*Alfa və Omeqa*

# QANUNUN TƏKRARI

14 dərs



Rəcəb və Leyla Aydın

*Alfa və Omeqa*

# QANUNUN TƏKRARI

## 14 dərs



Rəcəb və Leyla Aydın

KITABI-KNIGI.COM

Bütün ailə üçün nəzərdə tutulmuş pulsuz elektron kitablar!
İstənilən cihazda yükləyib öz dilinizdə oxuya bilərsiniz.

KITABI-KNIGI.COM

*Qanunun Təkrarı: 14-cü dərs*
Alfa və Omeqa tərəfindən müəlliflik hüququ © 2025. Bütün hüquqlar qorunur.
*alphaomegasilkroad@gmail.com*

© 2025 for the Azerbaijani edition.
Translated by permission. Bütün hüquqlar qorunur.

İllüstrasiyalar müəllif hüququ © 2025 Cim tərəfindən təqdim olunmuşdur. Bütün hüquqlar qorunur.

Müqəddəs Kitab sitatları “MÜQƏDDƏS KİTAB (Əhdi-Ətiq və Əhdi-Cədid)” nəşrindən götürülmüşdür. © Müqəddəs Kitab Şirkəti 2009

# Qanunun Təkrarı Kitabını niyə öyrənməliyik?

Qanunun Təkrarı Kitabında Əhdi-Ətiqin qalan hissəsinin əsasını təşkil edən təlim var. Biz bu kitabın bütün Əhdi-Ətiqin peyğəmbərlik kitablarına (xüsusilə Yeremya Kitabına), Padşahlar (məsələn, 2 Padşahlar 22:8), Zəbur və Süleymanın Məsəlləri kitablarına təsirini görürük.

İsa Məsih Əhdi-Ətiqdəki hər hansı digər kitabdan daha çox Qanunun Təkrarı Kitabındakı sözlərdən istifadə edirdi (məsələn, Matta 4:1-11; 5:33; 19:18-19).

Əhdi-Cədid boyu bu kitaba çoxlu istinadlar var.

Bu kitabın məzmunu yalnız Əhdi-Ətiqdəki İsraillilərə deyil, həm də bugünkü gündə hamımıza ünvanlanıb. Onu öyrəndikcə bizim heyrətamiz Allahımızın kim olduğunu və Onun bizim üçün nələr etdiyini başa düşəcəyik.

Bu gözəl kitabla tanış olmaqda sizə kömək edəcək 14 dərsimiz var!

Əgər siz Alfa və Omeqa *Müqəddəs Kitab İcmal Kursunu* oxumamısınızsa, bu kursu başlamazdan əvvəl onu oxumağınız məsləhətdir.

Hər dərsdə bir çox suallara cavab verməli olacaqsınız. Hər sualdan sonra mötərizədə verilən rəqəm dərsin sonundakı cavabın nömrəsini göstərir. Çalışın cavaba baxmadan suallara cavab verəsiniz.

Hər dərsdə Müqəddəs Kitabdan ayələrə istinadlar var. Əgər onlar **qalın hərflərlə** yazılıbsa, onları tapmaq və oxumaq lazımdır. Əgər onlar qalın hərflərlə deyilsə, vaxtınız olanda onları nəzərdən keçirə bilərsiniz.

"Əlavə" qutular fəsli daha da dərindən araşdırmaq istəyənlər üçün nəzərdə tutulub. Onlar dərsin bir hissəsi və ya ev tapşırığı kimi öyrənilə bilər.

Bu gözəl kitab haqqında öyrənməkdən və onu başqaları ilə bölüşməkdən zövq almağınız üçün dua edirik!

Qanunun Təkrarı 1-ci dərs:

# Peyğəmbər və vəd



## Giriş

### Ümumi məlumat

Qanunun Təkrarı Kitabında biz Allahın Öz qulu Musa vasitəsilə xalqına söylədiyi qiymətli sözlərə rast gəlirik. Musa Allahın vəd etdiyi Kənan torpağına girməzdən əvvəl onlarla danışdı.




Bu kitabın tarixi mənbələrini Yaradılış, Çıxış və Saylar kitablarından əldə etmək olar.

Aşağıdakı ifadələri oxuyun və baxmadan onları təkrarlamağa çalışın:

- Allah hər şeyi yaxşı yaratdı: dünyanı və ilk iki insanı, Adəm və Həvvanı.
- Onlar Allaha itaət etmək əvəzinə, Ona itaətsizlik etmək üçün şeytan tərəfindən sınağa çəkildilər.

- Buna görə də onlar Allahın hüzurundan qovuldular. Beləliklə, onlar Allahın xeyir-dualarını, o cümlədən əbədi həyatı itirdilər.

- Uzun illər sonra Allah Kənan torpağının şərqində yaşayan, torpağı, uşağı olmayan qoca İbrahimə vəd etdi ki,
  – o, böyük bir xalqın atası olacaq;
  – onun nəsli Kənan torpağında yaşayacaq;
  – onun vasitəsilə bütün xalqlar xeyir-dua alacaqlar!

- Lakin İbrahimin nəsli dəhşətli aclıqdan xilas olmaq üçün Misirə köçdü. Bu, Allahın onlara vəd etdiyi torpaq deyildi. Onlar orada dözülməz köləliyə düçar oldular.

- Beləliklə, Allah Musanı təyin etdi ki, onları kölәlikdən çıxarsın. Bu qurtuluş Əhdi-Ətiqdə Allahın xalqı üçün ən mühüm hadisədir. Buna **çıxış** deyilir.

Bu hadisələr haqqında Yaradılış Kitabında və Çıxış Kitabı 1–19-cu fəsillərdə oxuya bilərsiniz.

İndi Qanunun Təkrarı Kitabında Allah, nəhayət, Öz xalqını vəd olunmuş torpağa gətirmək istəyir.

## 1. Müqavilə

Qanunun Təkrarı Kitabı bütünlüklə o vaxt padşahların fəth etdikləri xalqlarla bağladıqları qədim müqavilələrə bənzəyir. Bu müqavilələr, adətən, beş əsas hissədən ibarət idi:

1. Tarixi giriş (Qanunun Təkrarı 1:1–4:49).

2. Müqavilənin ümumi tələbləri (Qanunun Təkrarı 5–11-ci fəsillər).

3. Fəth edilən xalqın nə edəcəyinə dair ətraflı təlimatlar (Qanunun Təkrarı 12–26-cı fəsillər).

4. Xeyir-dualar və lənətlər (Qanunun Təkrarı 27–28-ci fəsillər).

5. Şahidlər (Qanunun Təkrarı 30:19; 31:19; 32-ci fəsil).

Beləliklə, Qanunun Təkrarı Kitabı Allahın Öz xalqı ilə bağladığı müqaviləyə bənzəyir. O onların yeni Padşahıdır (Qanunun Təkrarı 33:5). Bu kitabda Allahın xalqı Padşahın onlardan nə gözlədiyini öyrənir.

## 2. Coğrafiya

İlk üç fəsildə Allahın xalqı səyahət edir. Bir çox yerlər qeyd olunur. Bu göstərir ki, hadisələr, həqiqətən də, baş vermişdi. Bu ayələrin bizə nə öyrətdiyini başa düşmək üçün bütün bu yerlərin harada olduğunu bilməyə ehtiyac yoxdur. Əhəmiyyət kəsb edən yerləri xəritələrdə qeyd edəcəyik.

Artıq kursa başlamağa hazırıq!

# Peyğəmbər və vəd

Birinci dərsdə aşağıdakıları nəzərdən keçirəcəyik:

- Əhdi-Ətiqdə Allahın ən mühüm peyğəmbəri və vədi.

- Əhdi-Cədiddə Allahın ən mühüm peyğəmbəri və vədi.

Əhdi-Ətiqdən başlayaq.

## Əhdi-Ətiqdə Allahın ən mühüm peyğəmbəri olan Musa

**Qanunun Təkrarı 1:1-5**-i oxuyun.

Burada Musanın üç xüsusiyyətini müşahidə edirik. Onlar aşağıdakılar idi:

## 1. Allaha etibar

**Çıxış 4:10**-da Musa özü haqqında nə dedi? [1]

**Çıxış 4:11-12**-də Allah ona nə dedi? [2]

Bu kitabdan nəticələri görürük! Allah Musanı Allahın Kəlamını aydın şəkildə öyrədə və izah etməyə qadir olan sadiq natiq olaraq yaratdı. Musanın zəifliyinə baxmayaraq, Allah ondan Öz xalqını köləlikdən çıxarmaq və vəd olunmuş torpaqda yaşamağa hazırlamaq üçün istifadə etdi. Lakin Musa Allahdan nə qədər asılı olduğunu heç vaxt unutmurdu (Qanunun Təkrarı 34:10).

## 2. Yaxşı müəllim

Qanunun Təkrarı 1:1-də Musa kiminlə danışdı? [3]

Musa bu sözləri təkcə rəhbərlərə deyil, **bütün İsrail xalqına söylədi**. Bu sözlər hər kəs üçündür! Eynilə Qanunun Təkrarı Kitabı təkcə rəhbərlər üçün deyil, bütün imanlıların öyrənməli olduğu təməl kitabdır.

Musanın təliminin haradan gəldiyi barədə nə öyrənirik (3-cü ayə)? [4]

Müqəddəs Kitabın bütün kitabları kimi, bu da insanın danışığıdır, lakin eyni zamanda bu sözlər Allahın sözləridir.

Musa nə etdi (5-ci ayə)? [5]

Musa təkcə insanlara Allahın dediklərini söyləmirdi, həm də onları izah edirdi. Allahın xalqı Allahın Kəlamını bilməlidir **və başa düşməlidir**. Musa yaxşı müəllim idi!

## 3. Allahın Padşahlığının sadiq müjdəçisi

Allahın peyğəmbəri kimi Musanın vəzifəsi Allahın xalqını onları xilas etmiş Padşah olan Allaha itaət etməyə çağırmaq idi (Qanunun Təkrarı 33:5). Beləliklə, itaətkarlıq Qanunun Təkrarı Kitabının vacib mövzusudur. Onlar Allaha məxsus idilər. Ona tabe olmalı idilər!




Qanunun Təkrarı 1:1-dəki insanlar harada idilər? [6]

Xəritədə bu yeri tapın.

Musa Misirdən çıxdıqdan sonra neçənci ildə danışdı (3-cü ayə)? [7]

Xorevdən (və ya Sina dağından) Qadeş-Barneaya getmək, adətən, nə qədər vaxt aparırdı (2-ci ayə)? [8]

Beləliklə, 11 günlük səyahət 40 il çəkdi! Bu, itaətsizliyin nəticəsi idi. İtaətsizlik etdikləri üçün İsraillilər 40 il səhrada sərgərdan gəzməli oldular.

**Qanunun Təkrarı 30:16**-nı oxuyun. Allah deyir ki, xalqı Ona itaət edərsə, nə baş verəcək? [9]

**Qanunun Təkrarı 30:17-18**-i oxuyun. Allah deyir ki, xalqı Ona itaət etməsə, nə baş verəcək? [10]

Əhdi-Ətiq heyrətamiz bir hekayədir. Əhdi-Ətiq boyu biz bunları oxuyuruq:
- Allahın xalqı daim Ona itaətsizlik edirdi.
- Allah Öz xalqı ilə münasibətlərini bərpa etmək üçün daim çalışırdı.

Allahın mərhəmətli və lütfkar olması necə də heyrətamizdir! Qanunun Təkrarı Kitabında oxuyuruq ki, Musa bunu dəfələrlə Allahın xalqına xatırladır.

Musa sadiq şəkildə bəyan edirdi ki, Allahın xalqı öz padşahına itaət etməli və Allahın Padşahlığının sadiq vətəndaşları olmalıdır.

## Allahın əhdi-ətiqdə ən mühüm vədi — vəd olunmuş torpaq

**Qanunun Təkrarı 1:6-8**-i oxuyun.




Xəritəyə baxın və bu yerləri tapın:

Sina dağı (Qanunun Təkrarında ona Xorev də deyilir)
Emorluların dağlıq ölkəsi
Arava vadisi
Qərb ətəkləri
Negev
Livan
Fərat çayı

Musadan beş yüz il əvvəl Allah İbrahimin nəslinə Kənan torpağını verəcəyini vəd etmişdi (Yaradılış 15:18-21). İndi, nəhayət, Allah bu torpağı Öz xalqına verməyə hazırdır.

Qanunun Təkrarı 1:6-da Musa Sina dağında (həmçinin Xorev adlanır) Allahın Öz xalqı ilə görüşdüyü vaxtı xatırlayır. Bu, Musanın bu kitabda yazılan sözləri deməzdən 40 il əvvəl idi.

40 il əvvəl Allah onlara nə etməyi əmr etmişdi (7-ci ayə)? [11]

Qırx il bundan əvvəl Allah onlara vəd olunmuş torpağa daxil olmağı əmr etmişdi. Ancaq növbəti dərsdə oxuyacağımız kimi, onlar oraya daxil olmaqdan imtina etdilər! Allah onlara gözəl torpaq vəd etmişdi, lakin xalq oraya girmək istəmədi!

# Əhdi-Cədid

Bu dərsdə nələri nəzərdən keçirdik:

- Əhdi-Ətiqin ən mühüm **peyğəmbəri** olan Musa. Onun vəzifəsi xalqı öz Padşahı olan Allaha itaət etməyə çağırmaq idi.

- Əhdi-Ətiqin ən mühüm **vədi** — vəd olunmuş torpaq. Bu vəd Allahın xalqı ancaq itaət edib vəd olunmuş torpağa daxil olduğu halda yerinə yetə bilərdi.

İndi gəlin Əhdi-Cədiddəki ən mühüm peyğəmbərə və ən mühüm vədə nəzər salaq.

## Əhdi-Cədidin ən mühüm peyğəmbəri

**İbranilərə 1:1-2**-ni oxuyun. Əhdi-Cədidin ən mühüm peyğəmbəri kimdir? [12]

Musa kimi, O da Allahın peyğəmbəri idi (Mark 6:4), hansı ki,
- Ata Allahın Ona verdiyi sözləri söylədi (Yəhya 8:28);
- çox yaxşı müəllim idi (Matta 7:28);
- Allahın Padşahlığını elan etdi (Luka 8:1).

Musanın qabaqcadan xəbər verdiyi kimi, İsa Allahın göndərəcəyi xüsusi peyğəmbər idi:

"*Allahınız Rəbb sizin üçün aranızdan — öz soydaşlarınız içərisindən mənim kimi bir peyğəmbər yetirəcək. Ona qulaq asın*" (Qanunun Təkrarı 18:15).

Həvari Peter Əllinci Gün bayramındakı vəzində bu ayədən sitat gətirərək İsanın Allahın Musa vasitəsilə illər əvvəl vəd etdiyi Məsih olduğunu göstərdi (Həvarilərin İşləri 3:20-22).

Yəhyanın Müjdəsində İsa Ona iman etməyənlərə dedi: "*Əgər siz Musaya inansaydınız, Mənə də inanardınız, çünki o Mənim barəmdə yazıb*" (Yəhya 5:46).

Musa vasitəsilə Allah Öz xalqına deyirdi ki, çox vacib olan biri gələcək. Bu, Əhdi-Ətiqin bizi hamının ən mühüm peyğəmbəri olan İsa Məsihin gəlişinə necə hazırladığına dair nümunələrdən yalnız biridir.

## Əhdi-Cədiddəki ən mühüm vəd

**1 Yəhya 2:25**-i oxuyun. Allahın Əhdi-Cədiddə bizə verdiyi ən mühüm vəd hansıdır? [13]

Allah bizə Özünün əbədi vəd etdiyi torpaqda, yeni Yerusəlimdə həyat vəd edir!

**Yəhya 1:12**-ni oxuyun. Allahın əbədi həyat vədini almaq üçün nə etməliyik? [14]

Yalnız İsa vasitəsilə biz Ata Allahın yanına gələ bilərik (Yəhya 14:6).

Amma biz bu hədiyyəni qəbul etməsək, o bizimki olmayacaq. Biz Allahın gözəl təklifini rədd edən İsraillilər kimi olmamalıyıq!

Əhdi-Ətiqdə Allah Öz xalqını vəd olunmuş torpağın yaxınlığına gətirmək üçün Musadan istifadə etdi və sonra Musa öldü. Digər rəhbərlər onları vəd olunmuş torpağa apardılar və sonrakı illərdə onların üzərində

rəhbərlik etdilər. Əhdi-Cədiddə bizi əbədi vəd olunmuş torpağa aparan və əbədi olaraq bizimlə olacaq İsanın Özüdür (Yəhya 14:1-6). Musa və vəd olunmuş torpaqdan fərqli olaraq, İsa əbədi həyat vədindən ayrılmazdır!

İsraillilər kimi, biz də vəd olunmuş torpağa gedirik! Ancaq İsraillilərdən fərqli olaraq, gedəcəyimiz torpaq əbədi qalacaq mükəmməl bir torpaqdır (Vəhy 21:1-4).

Bizim əbədi vəd olunmuş torpağa səyahətimiz ilə İsraillilərin vəd olunmuş torpağa səyahəti arasında hansı iki fərq var? [15]

## *Əlavə:* Nə üçün Allahın xalqı vəd olunmuş torpağa girməzdən əvvəl bu qədər gözləməli oldu?

1. Yusifin dövründə Allahın xalqından (İbrahimin nəsli) neçə nəfər Misirə getdi (**Yaradılış 46:27**)? [16]

   Bu, bir ölkəni doldurmaq üçün kifayət qədər insan sayı deyildi!

   Misirdən çıxanda Allahın xalqının (kişilərinin) sayı nə qədər idi (**Saylar 1:46**)? [17]

   Beləliklə, qadınları və uşaqları da əlavə etsək, ola bilsin, orada iki milyona yaxın insan var idi. İndi onların sayı vəd olunmuş torpaqda yaşamaq üçün kifayət idi!

2. Emorlular Kənan torpağını niyə itirdilər (**Yaradılış 15:16**)? [18]

   Allah bu ölkənin xalqına qarşı heyrətamiz dərəcədə səbirli idi. O onlara tövbə etmək və həyat tərzini dəyişmək üçün uzun müddət imkan verdi. Yalnız son dərəcə yollarını azdıqda O onları məhv etdi.

## Çağırış

Musa bizim üçün gözəl nümunədir! O, çox yaxşı natiq olmadığını dedi, amma heyrətamiz müəllim oldu. Əlbəttə, bizim sözlərimiz Müqəddəs Kitabın bir hissəsi olmayacaq. Allahın sözü kamildir və ona əlavə edilə bilməz. Amma insanlar Allahın artıq dediklərini eşitməlidirlər. İnsanlara xoş xəbəri çatdırmaq üçün yaxşı natiq olmaq lazım deyil.

Əhdi-Cədiddə hətta həvari Paul da özünə güvənmirdi! O, Korinflilərə demişdi: "*Yanınıza zəiflik, qorxu və böyük lərzə içində gəldim. Mənim sözüm də, vəzim də müdrikliyin inandırıcı sözlərindən deyil, Ruhun qüdrətini göstərməsindən asılı idi...*" (1 Korinflilərə 2:3-4).

Daha sonra o yazırdı: "*Məsih uğrunda zəifliklərə... dözürəm, çünki mən zəifləyəndə qüvvətlənirəm*" (2 Korinflilərə 12:10).

Qoy Musanın və həvari Paulun nümunələri bizi ruhlandırsın!

Bizim işimiz aşağıdakılardan ibarətdir:

- **Allaha güvənmək.** Dua etməliyik ki, Müqəddəs Ruh qohumlarımızın və dostlarımızın gözlərini həqiqətə açsın.
- **Yaxşı müəllimlər olmaq.** Biz Allahın Özünü İsa Məsihdə necə göstərdiyini insanlara söyləməliyik.
- **Allahın Padşahlığını bəyan etmək.** Biz insanlara Allahın Kəlamını oxumağı sevməkdə və ona riayət etməkdə kömək etməliyik ki, onlar da Allahın Padşahlığının yaxşı vətəndaşları ola bilsinlər.

Qoy insanlarla gözəl Allahımız haqqında danışarkən O bizdə müjdəçilik və təlim vermək ənamlarını inkişaf etdirsin!

Musa və həvari Paul bizim üçün necə nümunələrdir? [19]

Bu dərsləri öyrədə biləcəyiniz kimsə varmı?

## Bu dərs vasitəsilə Allah sizə nəyi öyrətdi?

## Bu gün bunu kiminlə bölüşə bilərsiniz?

# Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 1:6—3:11**-i oxuyun.

## Cavablar

1 – O dedi ki, səlis danışmır və dili ağırdır.
2 – Mən sənə danışmağa kömək edəcəyəm və nə deyəcəyini öyrədəcəyəm.
3 – Musa bütün İsrail xalqına danışırdı.
4 – Musanın təlimi Rəbdən gəlmişdi.
5 – Musa Allahın qanununu **izah etdi**.
6 – Səhrada, İordan çayının şərqində.
7 – Misirdən çıxdıqdan sonra qırxıncı ildə.
8 – Səyahət etmək üçün yalnız on bir gün tələb olunurdu.
9 – Allah onlara yaşayacaqlarını, çoxalacaqlarını və vəd olunmuş torpaqda onlara xeyir-dua verəcəyini vəd etdi.
10 – Allah onların məhv olacağını və vəd olunmuş torpaqda çox yaşamayacaqlarını söylədi.
11 – Gedin vəd olunmuş torpağa sahib olun.
12 – Allahın Oğlu İsa Məsih.
13 – Allah bizə əbədi həyat verəcəyini vəd etdi!
14 – Biz İsa Məsihi qəbul etməli və Onun adına iman etməliyik.
15 – İsanın Özü bizi ora aparacaq və əbədi olaraq bizimlə olacaq! Həmçinin gedəcəyimiz vəd olunmuş torpaq əbədi qalacaq mükəmməl bir torpaqdır!
16 – Yetmiş nəfər.
17 – Orada 600 000-dən çox kişi var idi.
18 – Onlar Kənan torpağını yollarını son dərəcə azdıqları üçün itirdilər.
19 – Onlar insanlara Allah haqqında öyrətməkdən qorxurdular, lakin Allah onları böyük müəllimlər etdi.

Qanunun Təkrarı 2-ci dərs:

# Rəhbərlər və davamçılar



Bu dərsdə biz aşağıdakılar barədə danışacağıq:

- yaxşı rəhbər necə olmaq olar;
- yaxşı davamçı necə olmaq olar;
- itaət etməyi öyrəndiyimiz zaman nə baş verir.

## Rəhbərlər

**Qanunun Təkrarı 1:9-18**-i oxuyun.

Musanın problemi nə idi və o bununla bağlı nə etdi (10-15-ci ayələr)? [1]

> **Komandirlər** (15-ci ayə) ordu zabitləri və xüsusi tapşırıqları yerinə yetirən müxtəlif qruplara nəzarət edənlər idilər.
>
> **Qəbilə məmurları** (15-ci ayə) xalqın təşkilinə kömək edən mülki (hərbi olmayan) məmurlar idilər.
>
> **Hakimlər** (16-cı ayə) cinayət törədildikdə ədalətin bərqərar olmasını təmin edənlər idilər.

5-ci və həmçinin sonrakı fəsillərdə Musa xalqa Allahın qanunlarını xatırladır. Allah onlara bu qanunları 40 il əvvəl Sina dağında (həmçinin Xorev dağı da deyirlər) vermişdi. Bu rəhbərlər müdrikliklə rəhbərlik etmək və ədalətlə hökm etmək üçün **bu qanunları öyrənib onlara əməl etməli idilər**. Onlar yoxsulların və müdafiəsizlərin qayğısına qalmalı idilər (Qanunun Təkrarı 15:7; 24:14), rüşvət almamalı idilər. Onlar yanlış hökm çıxarmaq istəyən güclü insanlardan qorxmamalı idilər (Qanunun Təkrarı 16:19).

**Komandirlər, qəbilə məmurları və hakimlər** öz işlərini layiqincə yerinə yetirmək üçün nə etməli idilər? [2]

## Davamçılar

**Qanunun Təkrarı 1:19-28**-i oxuyun.




Onlar hara çatdılar və hara getməli idilər (19-21-ci ayələr)? [3]

Nə baş verdi (22-28-ci ayələr)? [4]

Problem nədə idi (28-ci ayə)? [5]

**Qanunun Təkrarı 1:29-46**-nı oxuyun.

Musa İsraillilərə nə dedi (29-30-cu ayələr)? [6]

Musa Allahın İsraillilərin qayğısına qalmasından danışarkən 31-ci ayədə Allahı kim ilə müqayisə etdi? [7]

İsraillilər bilirdilər ki, Allaha güvənə bilərlər. O, Misirdən çıxandan bəri səhrada olan bu iki milyon insanın qayğısına qalırdı. Bəs insanlar Allahın çağırışına necə hay verdilər (32-ci ayə)? [8]

Bu çox heyrətləndirici idi! Allah Öz xalqı üçün çox şeylər etdi. O, möcüzəvi şəkildə onları dəhşətli köləlikdən azad etdi, möcüzəvi şəkildə onlara rəhbərlik edirdi və möcüzəvi şəkildə onları səhrada lazım olan hər şeylə təmin etdi. Ancaq bununla belə, onlar Ona etibar etmədilər. Bunun əvəzinə onlar qorxuya boyun əydilər və itaət etməməyi seçdilər.

Bəs Allah onlara nə dedi (35-38-ci ayələr)? [9]

İnsan bir dəfə itaətsizlik etdikdə ikinci dəfə itaətsizlik etmək daha asan olur. Baxın, İsraillilərin bir günahı başqa bir günaha səbəb oldu. Xalq nə etmək qərarına gəldi və bunun nəticəsi nə oldu (41-46-cı ayələr)? [10]

Onlar məğlub oldular, çox üzüldülər və ən pisi, Allahla münasibətləri korlandı.

Biz gördük ki, Əhdi-Ətiqdə Allahın xalqının rəhbərləri və davamçıları sadiq olmalı idilər. Əhdi-Cədid də eyni şeyi deyir.

# Əhdi-Cədiddəki rəhbərlər

Allahın xalqının rəhbərləri Allahın Kəlamını yaxşı bilməli, ona əməl etməli və onu sədaqətlə öyrətməlidirlər (2 Timoteyə 2:2).

**Mark 10:42-45**-i oxuyun. İsa şagirdlərinə rəhbərlik haqqında başqa nə deyir? [11]

**1 Peter 5:2-3**-ü oxuyun. Peter imanlılar cəmiyyətlərinin ağsaqqallarını necə təsvir edir? [12]

## 1-ci çağırış



İmanlılar cəmiyyəti rəhbərləri hökmdarlar kimi ağalıq etməməlidirlər. Bunun əvəzinə, onlar cəmiyyət üzvlərinin Allahın bilik və məhəbbətində böyüməsi üçün əllərindən gələni edən qayğıkeş çobanlar kimi hərəkət etməlidirlər.

Musa başa düşdü ki, hər şeyi özü edə bilməz. Eynilə cəmiyyət rəhbərləri də hər şeyi özləri etməyə çalışmamalıdırlar. 1 Korinflilərə 12-ci fəsildə Paul imanlılar cəmiyyətini müxtəlif hissələrdən ibarət olan bir bədən kimi təsvir edir. Yaxşı rəhbər Allahın öz cəmiyyətinin müxtəlif üzvlərinə hansı ənamlar verdiyini görür. O onları ənamlarını cəmiyyətin xeyrinə istifadə etməyə ruhlandırır.

Əgər rəhbərsinizsə:
- Özünüzü Allahın Kəlamını öyrənməyə, ona əməl etməyə və öyrətməyə həsr etmisinizmi?
- Siz öz cəmiyyət üzvlərinizə qayğı və şəfqət göstərən çoban kimi təvazökarlıqla rəhbərlik edirsinizmi?
- İmanlılar cəmiyyəti üzvlərinə Allahın onlara verdiyi ənamları inkişaf etdirməkdə kömək edirsinizmi? Yoxsa hər şeyi özünüz etməyə çalışırsınız?
- Tərəfkeşlik etmədən hər kəsi ruhlandırırsınızmı (1 Timoteyə 5:21)?

Bunlardan hansının üzərində işləməyə daha çox ehtiyacınız var?

# Əhdi-Cədidin davamçıları

**Mark 8:34**-ü oxuyun. İsa davamçı olmaq haqqında nə deyir? [13]

İmanlılar cəmiyyəti üzvləri öz izzətlərini deyil, İsanın izzətini axtarmalıdırlar. Onlar əllərindən gələni etməlidirlər ki, cəmiyyət birlikdə İsanın sadiq şahidi ola bilsin. Biz hamımız xidmət etməyə hazır olmalıyıq!

## 2-ci çağırış

İmanlılar cəmiyyəti üzvüsünüzsə:
- Siz qorxu içində yaşayırsınız, yoxsa imanla? Bu, həyatınızda necə büruzə verir?
- İmanlılar cəmiyyəti rəhbərlərinizin yaxşı rəhbərlik etməsi üçün dua edirsiniz? Yoxsa ancaq narazılıq edirsiniz?
- Ənamlarınızdan cəmiyyətin xeyrinə xidmət etmək üçün istifadə edirsinizmi?

Bunlardan hansının üzərində daha çox işləməlisiniz?

# İtaət etməyi öyrənmək

Allah İsraillilərin Kənan torpağını fəth etmələrini istəyirdi.

## Niyə Allahın xalqı Kənanlılara qalib gəlməli idi?

Yaradılış Kitabında Allahın İbrahimi Özü üçün xüsusi olacaq bir xalqın atası olaraq seçdiyini oxuyuruq. Allah ona söz verdi ki, bir gün onun nəsli Kənan torpağında yaşayacaq. Təxminən 500 il sonra Allah bu vədi yerinə yetirəcəkdi.

Kənan torpağında yaşayan xalq pis idi. Onlar hətta oğul və qızlarını allahlarına qurban olaraq odda yandırırdılar (Qanunun Təkrarı 12:31). Allah bu xalqları dəhşətli pisliklərinə görə məhv etmək istəyirdi.

Allah Öz xalqına Kənan torpağını vermək istəyirdi ki, onlar bütün dünyaya nümunə olsunlar. Onlar hamıya necə yaşamağı göstərməli idilər. Onda başqa insanlar da Allahın nə qədər xeyirxah və müdrik olduğunu görüb Allahı necə razı salmağı biləcəkdilər (Qanunun Təkrarı 4:6-8).

Amma Allahın bu torpağı Öz xalqına verməsinin başqa səbəbi də var idi. Allah vəd olunmuş torpaqda yaşayan xalqı vasitəsilə dünyanı Oğlunun, Məsihin gəlişinə hazırladı. Dünyanı günahdan, ölümdən və şeytandan xilas edəcək Məsih idi. Allahın xalqı vəd olunmuş ölkədə yaşamasaydı və Allahın yaxşı qanunları ilə rəhbərlik etməsəydi, heç kim Məsihin nə edəcəyini başa düşə bilməzdi.

Kənanlıların məhv edilməsi dünya tarixində unikal bir hadisə idi. Bu bizim üçün bu gün hansısa ölkəni işğal etmək nümunəsi deyil!

Bu gün fiziki olaraq vəd olunmuş, uğrunda döyüşməli olduğumuz torpaq yoxdur. İmanlılar bir coğrafi məkanda yaşamırlar, onlara dünyanın bütün ölkələrində rast gəlmək olar.

Biz İsanın qayıdıb hamımızı Onunla əbədi vəd olunmuş torpaqda — yeni Yerusəlimdə yaşamağa aparacağı günü səbirsizliklə gözləyirik.

Növbəti hissəni oxumazdan əvvəl xəritəyə baxın və aşağıdakı yerləri tapın:

- Edom (Edomlular Yaqubun qardaşı Esavın nəslindən idilər).
- Moav (Moavlılar İbrahimin qardaşı oğlu Lutun nəslindən idilər).
- Ammon (Ammonlular da İbrahimin qardaşı oğlu Lutun nəslindən idilər).
- Zered çayı
- Arnon çayı




**Qanunun Təkrarı 2:1-13**-ü oxuyun.

Musa 40 il səhrada dolaşdıqdan sonra baş verənləri İsraillilərə xatırladır. 40 ildən sonra İsraillilər Allaha itaət etməyi öyrəndilər!

**Qanunun Təkrarı 2:24-37**-ni oxuyun.

Vəd olunmuş torpaq güclü şəhərlərdə yaşayan güclü insanlarla dolu idi. İsraillilərin vəd olunmuş torpağa necə girdikləri barədə nə öyrənirik (25-ci ayə)? [14]

İsraillilər vəd olunmuş torpağa girmək üçün nə etməli idilər (24-cü ayə)? [15]

Vəd olunmuş torpaq Allahın hədiyyəsi idi. Amma bu torpağı fəth etmək üçün onlar döyüşməli idilər.

Musa Xeşbon padşahı Sixona hansı xəbəri göndərdi və o nə cavab verdi (26-30-cu ayələr)? [16]

Bu zaman nə baş verdi (32-33-cü ayələr)? [17]

Bu, İsraillilərin vəd olunmuş torpağı fəth etmək ərəfəsində apardıqları ilk döyüş idi! Bu göstərdi ki, onlar Allaha güvənsələr və Ona itaət etsələr, O, vəd olunmuş torpağı onlara verəcəkdir!

**Qanunun Təkrarı 3:1-11**-i oxuyun.

Allah İsraillilərə kimin üzərində növbəti qələbəni verdi (3-cü ayə)? [18]

Onlar neçə şəhəri fəth etdilər (4-cü ayə)? [19]

Bu, qeyri-adi bir nailiyyət idi!

Onlar nəyi məhv etdilər və nəyi götürdülər (6-7-ci ayələr)? [20]

Ölkənin sakinləri çox pis idilər. Allah onları məhv etmək istəyirdi ki, Allahın xalqı günaha sürüklənməsin (Musa bu barədə Qanunun Təkrarı 7:3-4-də danışır).

Qənimətlər Allahın bir hədiyyəsi idi. Səyahətlərini davam etdirərkən Allah onları bu yolla təmin edirdi.

Bu döyüşlər İsraillilərə göstərdi ki, əgər Allaha itaət etsələr, onlar vəd olunmuş torpaqda qələbə çalacaqlar.

## *Əlavə:* Padşah Oq



Padşah Oq Refalı idi. Refalılar çox ucaboy və güclü bir xalq idi (Qanunun Təkrarı 2:20-21).

O dövrlərdə dəmir ancaq ən zəngin adamlarda olurdu. Padşah Oqa isə yatmaq üçün iri çarpayı lazım olurdu. İsraillilər nəhəng və güclü bir padşahı məğlub etdilər!

# Əhdi-Cədiddə itaət etməyi öyrənmək

Əhdi-Ətiqdə Allah Öz xalqına rəhbərlik edirdi. Onlar itaət etməyi öyrəndikcə O onlara qələbə verirdi ki, vəd olunmuş torpaqda yaşaya bilsinlər. Eyni şəkildə bu gün də Allah bizə rəhbərlik edir. Biz itaət etməyi öyrəndikcə Allah bizə günah üzərində qələbə bəxş edir ki, biz əbədi, mükəmməl vəd olunmuş torpağa daxil ola bilək. Tezliklə İsa bizi əbədi olaraq Onunla yaşamağa aparacaq!

Əbədi həyat Allahın bir hədiyyəsidir, amma biz arxayınlaşa bilmərik! Biz də döyüşdəyik və hər günün hər dəqiqəsində Padşahımıza tabe olmalıyıq.

## 3-cü çağırış



**Efeslilərə 6:10-18**-i oxuyun.

Biz kimə qarşı mübarizə aparmalıyıq (12-ci ayə)? [21]

İsraillilər vəd olunmuş torpaqda yaşayan pis insanlara qarşı vuruşmalı idilər. Eyni şəkildə, Allah bizə günaha, iblisə və onun şər qüvvələrinə qarşı mübarizə aparmağı əmr edir.

İblis və onun cinləri ilə hansı iki yolla döyüşə bilərik (vv.11, 18-ci ayələr)? [22]

Hər bir zireh və onun fəaliyyəti barədə düşünün. İmanlı bu zirehi Allahın verdiyini unutsa, nə baş verər?

- Həqiqət kəmərinə sahib olduğumuzu unutsaq, nə baş verər? [23]
- Döşümüzə salehliyi taxdığımızı unutsaq, nə baş verər? [24]
- İsa haqqında danışmağa hazır olduğumuzu unutsaq, nə baş verər? [25]

- İman qalxanımızın olduğunu unutsaq, nə baş verər? [26]
- Allahın Kəlamından möhkəm yapışmalı olduğumuzu unutsaq, nə baş verər? [27]
- Xilas dəbilqəsinə malik olduğumuzu unutsaq, nə baş verər? [28]

İblisə və onun şər qüvvələrinə qarşı möhkəm dayanmaq üçün biz nə edə bilərik? [29]

**Bu dərs vasitəsilə Allah bu gün sizə nəyi öyrətdi?**

**Bu gün bunu kiminlə bölüşə bilərsiniz?**

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 3:12-29**-u oxuyun.

# Cavablar

1 – Orada o qədər çoxlu adam var idi ki, Musa təkbaşına onların bütün məsələlərini həll edə bilmirdi. Buna görə də o, müdrik və hörmətli adamları xalqa rəhbər təyin etdi.
2 – Onlar Allahın qanununu öyrənməli və ona əməl etməli idilər.
3 – Onlar Qadeş-Barneaya çatmışdılar və Emorluların dağlıq ölkəsinə getməli idilər.
4 – Onlar yerin necə olduğunu görmək üçün bir neçə kəşfiyyatçı göndərdilər. Kəşfiyyatçıların çoxu onlara dedilər ki, ora yaxşı torpaqdır, lakin oradakı insanlar güclü və ucaboydurlar, şəhərlərin göyə çatan divarları var. Buna görə də İsraillilər Allaha itaət edərək bu ölkəyə getmək istəmədilər.
5 – Onlar dəhşətə gəlmişdilər.
6 – Musa onlara xatırlatdı ki, qorxmaq lazım deyil, çünki Allah Misirdən çıxanda etdiyi kimi, indi də onlar üçün döyüşəcək.
7 – Allahı balasını daşıyan ata ilə müqayisə etdi.
8 – Onlar Allaha güvənmirdilər.
9 – Kalev və Yeşuadan başqa böyüklərdən heç biri vəd olunmuş torpağı görməyəcək.
10 – Onlar qalxıb vuruşdular, baxmayaraq ki, Allah onlara bunu əmr etməmişdi. Ona görə də məğlub oldular.
11 – İsa xidmət edərək bizim üçün həyatını fəda etdiyi kimi, rəhbərlər də hökmdar deyil, xidmətçi olmalıdırlar.
12 – Ağsaqqallar Allahın sürüsünün çobanları olmalıdırlar.
13 – Davamçılar özlərini inkar etməli, çarmıxlarını götürməli və İsanın ardınca getməlidirlər.
14 – Allah oradakı bütün xalqları İsraillilərdən qorxu və vahiməyə salmışdı.
15 – Onlar xalqı döyüşə cəlb etməli idilər.
16 – Qoy ölkənizdən sülh yolu ilə keçək. O icazə vermədi.
17 – Allah İsraillilərə padşah Sixon üzərində qələbə qazandırdı.
18 – Padşah Oq.
19 – Altmış!
20 – Bütün insanları məhv etdilər, lakin bütün qənimətləri saxladılar.
21 – Biz insanlara qarşı yox, iblisə və onun bütün şər qüvvələrinə qarşı mübarizə aparmalıyıq.
22 – Allahın bizə bəxş etdiyi ruhani silahları və zirehləri geyinməliyik və **bütün** hallarda Ruhun idarəsi ilə dua etməliyik!
23 – Biz yalana inanarıq.
24 – Biz pis işlər görərik.
25 – Biz İsa haqqında danışmarıq.
26 – Pis şeylər baş verəndə Allahın bizi sevmədiyini və qayğımıza qalmadığını düşünərik. Qorxmağa və narahat olmağa başlayarıq.
27 – Biz Allahın Öz kəlamı ilə bizə öyrətmək istədiyi hər şeyi əldən verərik.
28 – Biz xilasın təmənnasız bir hədiyyə olduğunu unudarıq. Düşünərik ki, yaxşı əməllərimizlə Allahı razı sala bilərik.
29 – Birlikdə görüşüb bir-birimiz üçün dua edə bilərik, bir-birimizi ruhani zirehlərimizi geyinməyə ruhlandıra bilərik. Başqa hansı fikirləriniz var?

Qanunun Təkrarı 3-cü dərs:

# Birlik və yeni rəhbərlik



Bu dərsdə biz birliyin və yeni rəhbərlərin yetişdirilməsinin vacibliyi haqqında danışacağıq.

## Birlik




**Qanunun Təkrarı 3:12-13** və **18-20**-ci ayələri oxuyun.

İordan çayı şimalda Qalileya dənizindən başlayır və cənubda Ölü dənizə axır. Xəritədə İordan çayını tapın.

Bu ayələrdə bəhs edilən yerlər İordan çayının şərq tərəfindədir. Bu, İsraillilərin Yerixoya hücum etməzdən əvvəl ilk gəldikləri yerdir (Yeşua 6-cı fəsil).

**Saylar 32:1-5**-i oxuyun. Ruven və Qad qəbilələri Musadan nə soruşdular? [1]

**Saylar 32:16-22**-ni oxuyun. Onlar Musanı İordan çayının şərq tərəfində yaşamağa icazə vermək üçün necə inandırdılar? [2]

**Saylar 32:33**-ü oxuyun. İordan çayının şərq tərəfində başqa kim torpaq aldı? [3]

Musa bu iki yarım qəbilənin İordan çayının şərq tərəfində yaşamasına razılaşdı. O buna yalnız bir şərtlə icazə verdi: bu qəbilələrin adamları digər qəbilələrə İordan çayının qərb tərəfində Kənanlıları fəth etməkdə kömək etsinlər.

Ruvenlilərin, Qadlıların və Manaşşelilərin digər qəbilələrlə birliyinin davam etməsi son dərəcə vacib idi. Əgər Ruven, Qad və Menaşşe qəbiləsinin yarısı qalan İsraillilərlə birlikdə İordan çayının o tayına getməkdən imtina etsəydilər, Allahın xalqı parçalanardı. Bu halda onlar əsl düşmənləri ilə vuruşmaq əvəzinə bir-birləri ilə vuruşacaqdılar.

# Yeni rəhbərlik

**Qanunun Təkrarı 3:23-29**-u oxuyun.

Musa Allahdan nə istədi (25-ci ayə)? [4]

Bu onun son 40 ildə arzusu olub! Hətta Allahın ən böyük adamları, Əhdi-Ətiqin peyğəmbərləri də məyusluqlarla üzləşmişdilər!

**Saylar 20:1-13**-ü oxuyun. Nə üçün Allah Musaya Öz xalqını vəd olunmuş torpağa aparmağa icazə vermədi? [5]

Hətta Əhdi-Ətiqin ən böyük adamları belə, bəzən Allahı məyus edirdilər. Lakin biz Allahın mərhəmətini onda görürük ki, O, Musaya torpağı heç olmasa uzaqdan görməyə icazə verdi (Qanunun Təkrarı 3:27).

İsraillilərin növbəti rəhbəri kim olacaq (Qanunun Təkrarı 3:28)? [6]

Musa Yeşuaya nə dedi (Qanunun Təkrarı 3:21-22)? [7]

Vəd olunmuş torpağın fəthi çoxlu döyüşlər tələb edən böyük bir iş idi. Allah istəyirdi ki, xalq bilsin ki, Özü də onlar üçün döyüşəcək. Döyüşlərdə qalib gələn Allah idi. Çünki onların Ağası və Padşahı Allah idi! Lakin O Öz xalqını vəd olunmuş torpağa aparmaq üçün təyin etdiyi yeni rəhbər Yeşuadan istifadə edəcəkdi (28-ci ayə).

Musa Yeşuanı növbəti rəhbər olmağa necə hazırlamalı idi (Qanunun Təkrarı 3:28)? [8]

O hansı yollarla onu gücləndirə və ruhlandıra bilərdi? [9]

Musa Əhdi-Ətiqin ilk beş kitabı olan Tövratı yazdı. Bu, Musanın Yeşuaya və Allahın xalqına hədiyyəsi idi.

Daha sonra Allah Yeşuaya Kəlamını oxumaqla bağlı nə dedi (**Yeşua 1:8**)? [10]

## Əhdi-Cədid

Gəlin görək Əhdi-Cədid bu mühüm birlik və yeni rəhbərlik mövzuları haqqında nə deyir.

### Birlik

Allahın xalqı üçün birlik yalnız Əhdi-Ətiqdə əhəmiyyət kəsb etmirdi, Əhdi-Cədiddə də çox vacib idi.

İsa bütün imanlılar üçün necə dua etdi (**Yəhya 17:20-21**)? [11]

İsa davamçılarının birliyi üçün dua etdi.

Bugünkü gündə imanlılar cəmiyyəti günah və iblislə mübarizədə birləşməlidir. Allah istəyir ki, Onun cəmiyyəti böyüsün deyə biz **birlikdə** xidmət edək. Biz öz imanlılar cəmiyyətimizlə və digər cəmiyyətlərlə birliyi qorumaq üçün mümkün olan hər şeyi etməliyik.

## 1-ci çağırış

Birliyimizi hansı yollarla pozuruq? [12]

Birliyimizi gücləndirmək üçün nə edə bilərik? [13]

### Yeni rəhbərlik

Allah İsraillilərin həqiqi Ağası və Padşahı idi. Eynilə Allahın Oğlu İsa bizim həqiqi Ağamız və Padşahımızdır (Vəhy 17:14).

Allah Əhdi-Ətiqdə xalqı üçün rəhbərlər yetişdirdi və bu gün də Allah Öz xalqı üçün rəhbərlər yetişdirir.

2-ci dərsdə öyrəndiyimiz kimi, rəhbərlərin böyük vəzifəsi var! Onlar aşağıda göstərildiyi kimi olmalıdırlar:
- Allahın Kəlamını öyrənməyə, itaət etməyə və öyrətməyə həsr edilməli;
- təvazökarlıqla rəhbərlik etməli, imanlılar cəmiyyəti üzvlərinə qayğıkeş, şəfqətli çoban kimi xidmət etməli;
- imanlılar cəmiyyəti üzvlərinə Allahın onlara verdiyi ənamları inkişaf etdirməyə kömək etməli;
- Ayrı-seçkilik etmədən hamını ruhlandırmalıdırlar.

Amma rəhbərlər də artıq rəhbər olmayacaqları vaxta hazırlaşmalıdırlar.

Biz Musanın Yeşuanı yeni rəhbər olmağa necə hazırladığını gördük. İndi gəlin Əhdi-Cədiddə Paulun Timoteyə yeni rəhbərlər yetişdirmək haqqında dediklərinə nəzər salaq.

**2 Timoteyə 2:2**-ni oxuyun. Paul Timoteyə nə etməyi tapşırdı? [14]

## Yeni rəhbərlərin hazırlanması

Bütün müəllimlər öz şagirdlərini başqalarına öyrətmək bacarığı ilə təchiz etməlidirlər.

Musa Yeşuanı xalqın rəhbəri olmağa hazırladı. Eynilə də bütün imanlılar cəmiyyəti rəhbərləri bir gün onları əvəz edə biləcək gələcək rəhbərlər hazırlamalıdırlar.

Müdrik rəhbərlər ölməzdən **əvvəl** səlahiyyəti növbəti rəhbərə ötürürlər! Sonra yeni rəhbər, lazım gələrsə, köhnə rəhbərdən məsləhət ala bilər. Amma hamı (o cümlədən köhnə rəhbər) köhnə rəhbərin artıq rəhbərlik etmədiyi ilə razılaşsa, bu daha effektiv olar! Vacibdir ki, imanlılar cəmiyyəti köhnə rəhbəri dəstəklədiyi kimi, yeni rəhbəri də tam dəstəkləsin.

Eləcə də yaxşı olar ki, rəhbərlər imanlılar cəmiyyəti üzvlərini başqa yerlərdə yeni cəmiyyətlər açmağa ruhlandırsınlar.

## Rəhbərlərlə necə davrandığımıza dair vacib qeyd

İmanlılar cəmiyyəti üzvləri rəhbərlərə münasibətdə, adətən, iki səhvə yol verirlər:

### 1. Biz rəhbərləri kamil hesab edirik və düşünürük ki, onlar bütün problemlərimizi həll edə bilərlər.

Biz həmişə yadda saxlamalıyıq ki:

- Rəhbərlər sadəcə insandır və hərdən səhv edirlər;
- Hətta Musa da səhv edirdi;
- Yalnız İsa kamildir. Yalnız O bizi xilas edə və bütün problemlərimizi həll edə bilər!

### 2. Biz imanlılar cəmiyyəti rəhbərlərinə hörmət etmirik.

- Əhdi-Cədid aydın şəkildə göstərir ki, biz imanlılar cəmiyyətində rəhbər kimi xidmət edənlərə hörmət etməli və onlara tabe olmalıyıq (1 Salnamələr 5:12-13; İbranilərə 13:17).
- Rəhbərlərimizə hörmət etmədikdə və onlara tabe olmadıqda, cəmiyyət parçalanır və pis nümunəyə səbəb olur.

Biz cəmiyyət üzvləri olaraq rəhbərlərimizə münasibətdə, adətən, hansı iki səhvə yol veririk? [15]

## 2-ci çağırış



İmanlılar cəmiyyətində rəhbər olmağımızdan asılı olmayaraq, hamımız özümüzü Allahın Kəlamını öyrənməyə həsr etməliyik. Allahın Kəlamını oxumağınız Allahın Yeşuaya dedikləri ilə uyğun gəlirmi (Yeşua 1:8)?

Allahın Kəlamını daha çox oxumaq və üzərində düşünmək üçün hansı dəyişiklikləri edə bilərsiniz?

Birlik və yeni rəhbərlik mövzularını ayırmaq mümkün deyil:

- İmanlılar cəmiyyətindəki birlik rəhbərliyə dəstək olur. Parçalanma rəhbərliyi zəiflədir.

- Yaxşı rəhbərlik birliyə nail olmağı xeyli asanlaşdırır. Zəif rəhbərlik birliyə nail olmağı çətinləşdirə bilər.

Hər imanlılar cəmiyyəti getdikcə daha çox məhəbbət və müqəddəsliyə nail olmağa çalışır. Heç bir cəmiyyət bu həyatda kamilliyə çata bilməz! Ancaq cəmiyyətimizin məhəbbət və müqəddəslik içində böyüməsinə kömək etmək üçün əlimizdən gələni etməliyik.

Beləliklə, cəmiyyətimizin aşağıdakı ehtiyacları üçün müntəzəm olaraq dua etməliyik:
- Rəhbərlərin yaxşı rəhbərlik etməsi üçün.
- İmanlılar cəmiyyətinin İsaya və bir-birimizə olan məhəbbətimizdə bir olması üçün.

### Bu dərs vasitəsilə Allah sizi nəyə çağırdı?

## Ev tapşırığı:

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 4-cü fəsli** oxuyun.

# Cavablar

1 – Onlar İordan çayının şərq tərəfində yaşamaq istəyirdilər. Onlar Allahın Öz xalqına vəd etdiyi torpağın yerləşdiyi qərb tərəfə keçmək istəmirdilər.
2 – Adamlar İordan çayının qərb tərəfində vəd olunmuş torpağı fəth etmək üçün digər İsraillilərlə birgə döyüşəcəklərinə razılaşdılar. Yalnız bu halda şərq tərəfdəki arvad və uşaqlarının yanına qayıdacaqdılar.
3 – Menaşşe qəbiləsinin yarısı.
4 – Vəd olunmuş torpağı görsün.
5 – O, Allaha ehtiram göstərib Onun göstərişlərinə tam əməl etməmişdi: qayaya demək əvəzinə ona vurmuşdu.
6 – Yeşua.
7 – Musa Yeşuaya xatırlatdı ki, o, Allahın İordan çayının şərq tərəfində iki padşahı necə məğlub etdiyini görüb. Həm də Allah Yeşua üçün döyüşəcək ki, o, İordan çayının qərb tərəfindəki bütün xalqları fəth edə bilsin.
8 – Onu qüvvətləndirmək və ruhlandırmaq lazım idi.
9 – O ona Allahın etdiyi hər şeyi xatırladardı və onu Allahın Kəlamını oxumağa ruhlandırardı.
10 – Musanın yazdığı Qanun kitabını oxu. Bu barədə danış. Gecə-gündüz onun üzərində düşün. Onlara əməl et. O zaman uğur qazanacaqsan.
11 – Hamısı bir olsun.
12 – Bunlara daxildir:
- diqqətimizi Məsihdən çox imanlılar cəmiyyəti rəhbərlərinə yönəldirik;
- qürrələnirik;
- Məsihin Bədəninin ehtiyaclarından daha çox öz ehtiyaclarımız haqqında düşünürük;
- qeybət edirik;
- başqalarına pis sözlər deyirik;
- başqaları haqqında pis sözlər deyirik;
- başqalarından daha yaxşı olduğumuzu düşünürük;
- biz inciyirik və imanlılar cəmiyyətinə getməyi dayandırırıq.

13 – Nümunələrə daxildir:
- diqqətimizi imanlılar cəmiyyəti rəhbərlərindən daha çox Məsihə yönəldirik;
- biz təvazökar və öyrətməyə hazırıq;
- biz özümüzdən daha çox Məsihin Bədəninin ehtiyacları haqqında düşünürük;
- dedi-qodulara qulaq asmaqdan imtina edirik;
- başqalarına yalnız xoş sözlər deməyi seçirik;
- başqaları haqqında yalnız xoş sözlər deməyi seçirik;
- başqalarını özümüzdən üstün hesab edirik;
- biz yorğun, məşğul olsaq və ya incisək belə, daima toplantılara gəlirik.

14 – Allahın Kəlamını başqalarına da öyrətməyə qadir olan sadiq adamlara həvalə et.
15 – Biz rəhbərləri kamil hesab edirik və düşünürük ki, onlar bütün problemlərimizi həll edə bilərlər. Biz imanlılar cəmiyyəti rəhbərlərinə hörmət etmirik.

## Qanunun Təkrarı 4-cü dərs:

# Həyatı seçin!



## **Qanunun Təkrarı 4:1-40** (birinci hissə)

Bu dərsdə itaətin nə dərəcədə vacib olduğu barədə danışacağıq.

Müqəddəs Kəlamdan olan bu parça Musanın İsraillilərə təbliğ etdiyi gözəl bir vəzdir. Onlar Allahın Öz xüsusi xalqı olmaq üçün köləlikdən çıxardığı insanlar idilər. Bu vəzi oxumazdan əvvəl onun öyrətdiyi üç əsas fikrə nəzər salaq.

Bu vəzi beş hissəyə bölmək olar. Birinci və sonuncu, ikinci və dördüncü hissələr oxşar şeylərdən danışır; bir çox yəhudi şeir və moizələrində olduğu kimi, ən mühüm fikir orta hissədə yer alır:

- a.1-4: **İtaətkarlıq** — İsraillilər Allahın xeyir-duasına sahib olmaq üçün Onun qanunlarına riayət etməlidirlər.
- 5-20: **İsrail fərqlidir** — İsraillilər bütün digər xalqlardan fərqli idilər, çünki Allah bütün digər allahlardan fərqlidir.
- 21-31: **Hökm və mərhəmət** — Allah hökm və mərhəmət Allahıdır.
- 32-38: (yenə) **İsrail fərqlidir.**
- 39-40: (yenə) **İtaətkarlıq.**

Bu vəzdə ən vacib fikir hansıdır (orta hissə nədən bəhs edir)? [1]

Biz Müqəddəs Kitabın hər yerində Allahın hökmünü və mərhəmətini görürük. Allah haqqında anlamalı olduğumuz ən mühüm fikirlər bunlardır: O, pak və müqəddəsdir və bütün günahları mühakimə etməlidir. Lakin mühakimə edərkən belə, inanılmaz mərhəmət göstərir.

Allahın xalqı çox vaxt Allah haqqında iki yanlış təsəvvürə malikdir:

- günah işlətməyimiz Allah üçün əhəmiyyətli deyil;
- günah işlətdikdən sonra bağışlanmaya heç bir ümid yoxdur.

Allah Öz hökmünü və mərhəmətini niyə vurğulayır? [2]

Allah İsrailliləri xilas etdiyi üçün onlar düşünürdülər ki, istədiklərini edə bilərlər. Lakin itaət etmək üçün Allah onlara Öz kamil qanununu vermişdi!

Bu dərsdə biz Musanın vəzinin ilk mövzusunu öyrənəcəyik: İsraillilər Allahın xeyir-duasına sahib olmaq üçün Allahın qanunlarına riayət etməli idilər. Növbəti dərsdə digər iki mövzuya nəzər salacağıq.

# İtaətkarlıq

**Qanunun Təkrarı 4:1-4**-ü oxuyun.

Bu ayələrdə sanki bir-birinə zidd görünən iki fikir görürük:

- Allah İsraillilərə torpağı verəcək;
- İsraillilər torpağa sahib olmaq üçün Allaha itaət etməlidirlər.

Allah nə edəcək (1-ci ayə)? [3]

İsraillilər torpağa necə sahib olacaqlar (1-ci ayə)? [4]

Beləliklə, torpaq hədiyyədir, yoxsa onu itaət yolu ilə qazanmalıdırlar?

Bütün Müqəddəs Kitab boyunca biz bir-birinə zidd görünən bu iki ideyanı görürük: köləlikdən qurtuluş və vəd olunmuş torpaq **pulsuz** (hədiyyə) **idi**; lakin bu hədiyyəni almaq üçün Allahın xalqı Ona **itaət etməli idi**.

Allah İsrailliləri Misirdən çıxarmazdan əvvəl onları məhvedici mələkdən xilas etdi. İsraillilər xilas olmaq üçün nə etməli idilər? **Çıxış 12:21-23**-ü oxuyun. [5]

Allah itaət etməyənləri xilas etmədi!

## Əhdi-Cədid

Əhdi-Cədiddə də xilas pulsuz hədiyyədir, lakin yenə də Allahın qanunlarına riayət edərək yaşamalıyıq. Əbədi vəd olunmuş torpağa (yeni Yerusəlimə) çatanda hamımız Allahın qanunlarına kamil şəkildə riayət edəcəyik!

**Romalılara 6:17-18**-i oxuyun. İnsanlar nəyin qulları idilər? [6]

Sonra nəyin qulları oldular? [7]

Bir vaxtlar ümidsiz idilər və günahdan azad ola bilmirdilər. İndi İsa onları xilas etdi, təmizlədi və Öz Müqəddəs Ruhu ilə doldurdu. Artıq yaxşılıq və məhəbbətlə dolu bir həyatda Onun ardınca gedə bilərlər!

## Çağırış

İnsanlar sizin salehliyin qulu olduğunuzu görürlərmi? Yoxsa sizin də onlar kimi günahın qulu olduğunuzu düşünürlər?

Həyatınız ətrafınızdakı imansızların həyatından nə ilə fərqlənir?

# Həyat



Qanunun Təkrarı 4:1-də deyilir ki, İsraillilərin itaətkarlığı nə ilə nəticələnəcək? [8]

40-cı ayəyə baxın. Musa insanlar Allaha itaət edərlərsə, onlara nə vəd edir? [9]

**Qanunun Təkrarı 8:7-9**-u oxuyun. Allah Öz xalqına necə torpaq verəcək? [10]

Allah onlara vəd olunmuş torpaqda uzun və dolğun ömür bəxş etmək istəyir! Amma Allahdan üz döndərsələr, bunun əksi olacaq.

**Qanunun Təkrarı 4:3**-ü oxuyun.

Baal-Peor Moavlıların məhsuldarlıq tanrısı idi. Kənanlılar ona dəhşətli əxlaqsızlıqla səcdə edirdilər. Allah Baal-Peora səcdə edənlərə nə etdi? [11]

Qanunun Təkrarı Kitabının axırına yaxın Musa insanları düzgün seçim etməyə çağırır.

**Qanunun Təkrarı 30:15-20**-ni oxuyun. Musa xalqa hansı seçimi verir? [12]

Allaha itaət edib-etməmək qərarı böyük əhəmiyyət kəsb edir: bu, ölüm-dirim məsələsidir! Qanunun Təkrarı Kitabında Allah dəfələrlə xalqını həyatı seçməyə çağırır.

## Əhdi-Cədid

**1 Yəhya 5:11-12**-ni oxuyun. Allah bizə nə verib? [13]

Kimin əbədi həyatı var? [14]

## Həyat

Qanunun Təkrarı Kitabında olduğu kimi, Yəhyanın Müjdəsində də "həyat" sözü mühüm rol oynayır.

Məsələn:

> "*...Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi* ***həyata*** *malik olsun*" (Yəhya 3:16).
>
> İsa dedi: "***Həyat*** *çörəyi Mənəm*" (Yəhya 6:35).
>
> İsa dedi: "*Yol, həqiqət və* ***həyat*** *Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz*" (Yəhya 14:6).

**Əbədi həyatı heç bir başqa vasitə ilə deyil, yalnız İsada tapmaq olar!**

Əbədi həyat Allahın Əhdi-Cədiddə Öz xalqına verdiyi xeyir-duadır. Bu, Əhdi-Ətiqdə itaət etdikləri zaman Allahın İsraillilərə verdiyi maddi xeyir-dualardan daha yaxşıdır! Bu barədə 12-ci dərsdə daha ətraflı danışacağıq.

11-ci dərsdə biz bu gün hansı qanunlara riayət etməli olduğumuzu da müzakirə edəcəyik. Bu arada hamımız Allaha və bir-birimizə məhəbbət bəsləmək qanununa riayət etdiyimizə əmin olmalıyıq (Matta 22:37-39)!

## *1-ci xəbərdarlıq:* Allahın Kəlamını dəyişməyin!

**Qanunun Təkrarı 4:2**-də Allahın Kəlamı ilə necə davranmalı olduğumuz barədə nə deyilir? [15]

Bəzi insanlar Allahın Kəlamını dəyişdirmək istəyirlər. Onlar bizim itaət etməyimizi asanlaşdırmaq istəyirlər. Onlar Allahı öz nəzərlərində tutduqları tanrıya çevirmək istəyirlər. Lakin biz Allahın Kəlamından sevimli hissələri seçib bəyənmədiyimiz hissələrə etinasızlıq göstərə bilmərik.

Allahın Kəlamı kamildir. Biz ona nə artırıb, nə də ondan əskiltməli deyilik. Orada Allah haqqında indi və gələcək həyat üçün lazım olan bütün məlumatlar var!

**Vəhy 22:18-19**-u oxuyun. Allahın Kəlamına əlavə etmək və ya Allahın Kəlamından bəyənmədiklərini çıxarmaq istəyənlərə Allah nə deyir? [16]

**Müzakirə edin:** Müqəddəs Kitabın hansı əmrlərinə riayət etmək sizə daha çətin gəlir?

## *2-ci xəbərdarlıq:* Yeni vəhyləri qəbul etməyin!

- Tarix boyu yeni kitablarla ortaya çıxan bir neçə din müəllimi olub. Müqəddəs Kitab Allahın tam Kəlamıdır. O bizə xilas olmaq, əbədi həyata malik olmaq və Allahla münasibət qurmaq haqqında bilməli olduğumuz hər şey barədə deyir.
- Müqəddəs Kitabı öz fikirlərinə uyğun dəyişən başqa insanlar da olublar. Bizdə olan Müqəddəs Kitab ilk əlyazmaların dəqiq tərcüməsidir!



Ona görə də kimsə bizə desə ki, Allah ona yeni vəhy verib, biz bunu qəbul etməməliyik. Biz həmişə insanların bizə öyrətdiklərini Müqəddəs Kitabda deyilənlərlə **müqayisə etməliyik**.

Biz həmçinin **Allahın Kəlamını tam bilməliyik**. Əsrlər boyu bir çox imanlılar cəmiyyətləri Müqəddəs Kitabdan bir ayə (yaxud bir neçə ayə) üzərində cəmləşmiş və ondan bir qayda yaratmışlar. Onlar bu qaydanın Müqəddəs Yazıların qalan hissəsi ilə uyğun olub-olmadığını yoxlamadılar.

**Müzakirə edin:** Allahın kəlamı olan, lakin Müqəddəs Kitabdan fərqli bir kitaba malik olduğunu deyən birini tanıyırsınızmı?

### Bu dərsdə Allahın Kəlamı haqqında nə öyrəndiniz?

### Özünü məsihçi adlandıran, lakin "yaxşı" həyat sürməyən birinə nə deyərdiniz?

### Həyatı seçmək üçün bir-birimizə dua edək!

## Ev tapşırığı:

**Qanunun Təkrarı 4:1-40**-ı yenidən oxuyun. Növbəti dərsdə onu öyrənməyə davam edəcəyik.

## Cavablar

1 – Allah hökm və mərhəmət Allahıdır.
2 – Allah bunları vurğulayır, çünki xalqının belə düşünməsi çox asandır:
 – günah işlətməyimiz Allah üçün əhəmiyyətli deyil;
 – günah etdikdən sonra bağışlanmaya heç bir ümid yoxdur.
3 – Allah İsraillilərə vəd olunmuş torpağı verəcək.
4 – Allahın hökm və qanunlarına riayət etməklə.
5 – Quzunu kəsib qanını evin qapısının yan və üst tərəfinə yaxmalı idilər.
6 – Günahın.
7 – Salehliyin.
8 – Onlar yaşayacaqlar və vəd olunmuş torpaqlara sahib olacaqlar.
9 – Vəd olunmuş torpaqda uzun ömür.
10 – Çayları, münbit torpağı və qazılıb istifadə oluna bilən əlvan metalları olan gözəl bir torpaq.
11 – Onları məhv etdi.
12 – Həyatla xoşbəxtliyi və ya ölümlə bədbəxtliyi.
13 – Əbədi həyat.
14 – Oğlu İsa Məsihə malik olanın (inananın).
15 – Ona nə artırıb, nə də ondan əskiltməliyik.
16 – Onlar cəzalandırılacaq və yeni Yerusəlimdə yaşaya bilməyəcəklər.

Qanunun Təkrarı 5-ci dərs:

# Mühakimə və mərhəmət



## **Qanunun Təkrarı 4:1-40** (ikinci hissə)

Bu dərsdə biz Allahın xalqının digər insanlardan nə ilə fərqləndiyi barədə danışacağıq. Biz həmçinin Allahın ədalətli hökmü və inanılmaz mərhəmətinin mühüm mövzuları haqqında danışacağıq.

Keçən dərsdə gördük ki, Allahın xalqı xeyir-dua almaq üçün Ona itaət etməlidir. O onları köləlikdən xilas etmişdi. O onlara vəd olunmuş torpağı verəcəkdi. Lakin İsraillilər vəd olunmuş torpağa girib orada qalmaq üçün Onun qanunlarına tabe olmalı idilər.

### *Əlavə:* **Ümumi baxış**

Biz gördük ki, vəz (Qanunun Təkrarı 4:1-40) beş hissəyə bölünür. Birinci və sonuncu hissələr, ikinci və dördüncü hissələr də eyni şeydən bəhs edir. Bir çox yəhudi şeir və moizələrində olduğu kimi, ən vacib fikir şeirin və ya moizənin ortasındadır.

- a.1-4: **İtaətkarlıq** — İsraillilər Allahın xeyir-duasını almaq üçün Onun qanunlarına riayət etməlidirlər.
- 5-20: **İsrail fərqlidir** — İsraillilər bütün digər xalqlardan fərqli idilər, çünki Allah bütün digər allahlardan fərqlidir.
- 21-31: **Hökm və mərhəmət** — Allah hökm və mərhəmət Allahıdır.
- 32-38: (yenə) **İsrail fərqlidir.**
- 39-40: (yenə) **İtaət etmək.**

Bu vəzdə və Müqəddəs Kitabda ən vacib fikir nədir (orta hissədə nə deyilir)? [1]

Nə üçün Allah Öz hökmünü və mərhəmətini vurğulayır? [2]

Allah İsraillilləri xilas etdiyi üçün onlar düşünürdülər ki, istədiklərini edə bilərlər. Lakin Allah onlara itaət etmək üçün Öz kamil qanununu vermişdi!

Musa bu vəzində üç şeyi öyrətdi. Onlar hansılardır? [3]

Bu dərsdə biz bu vəzin üç mövzusunun ikinci və üçüncü mövzularına baxış keçirəcəyik.

# İsrail fərqlidir

**Qanunun Təkrarı 4:5-20**-ni oxuyun.

İsraillilər bütün digər insanlardan fərqli idilər, çünki Allah bütün digər allahlardan fərqlidir.

Allahın xasiyyəti digər xalqların səcdə etdiyi allahlardan nə ilə fərqlənir (7, 8, 12, 20)? [4]

7-ci ayə:

8-ci ayə:

12-ci ayə:

20-ci ayə:

Əgər insanlar Allahın sözünə riayət etsəydilər, bu nə ilə nəticələnəcəkdi (6-7-ci ayələr)? [5]

Allah İsraillilərin Ona təkcə ibadət etmələrini istəmirdi. O istəyirdi ki, İsraillilər bütün xalqlar üçün nümunə olsunlar ki, onlar da Allaha ibadət etmək istəsinlər!

Bu, əvvəldən Allahın planının bir hissəsi idi. O, İbrahimə gözəl vədlərini verəndə ona dedi ki, yer üzünün bütün xalqları onun vasitəsilə xeyir-dua alacaqlar (Yaradılış 12:3).

Eynilə bizim Allaha olan məhəbbətimiz və Onun sözünə riayət etməyimiz də bütün xalqlar üçün böyük nümunə olacaqdır. Bu yolla onlar da İsanın ardınca getmək istəyəcəklər!

## 1-ci çağırış

Bir çox insanlar İsaya iman edirlər, çünki onlar aşağıda sadalananları görürlər:
- imanlılar bir-birlərini sevirlər;
- Allah dualarımızı qəbul edir.



Ancaq insanlar aşağıda sadalananları görsələr, İsaya iman etməyəcəklər:
- biz bir-birimizi sevmirik;
- bizdə olandan daha çoxuna malik olanlara həsəd aparırıq;
- qeybət edirik;
- dua etmirik.

O zaman o insanlar əbədi həyata malik **olmayacaqlar**.

Allahın sözünə riayət etməyimiz imansızlara necə təsir edir? [6]

Allahın sözünə riayət etməməyimiz imansızlara necə təsir edir? [7]

Qanunun Təkrarı 4:10-14 Allahın Öz xalqına 40 il əvvəl On Əmri verdiyi qeyri-adi günü yada salır. Biz Musanın Qanunun Təkrarı Kitabının 5-ci fəslindəki On Əmri xalqa necə xatırlatdığını oxuyacağıq. Əvvəllər heç bir xalqın belə yaxşı qanunları olmamışdı. Və o vaxtdan bəri heç kim onları təkmilləşdirməyə müvəffəq olmayıb!

Allahın xalqı nələri etməməlidir (15-19-cu ayələr)? [8]

Allah bütlərdən nə ilə fərqlənir? Bütlərin edə bilmədiyi nəyi Allah edə bilər? [9]

Allah Öz xalqını bütpərəst bir xalqdan xilas etmişdi. İndi onlara başqa bütpərəst xalqların torpaqlarını verirdi. Buna görə də vacib idi ki, Allahın xalqı başqa xalqlar kimi bütlər düzəldib onlara səcdə etməsin.

## 2-ci çağırış

Hansı şeylər bizim üçün bütə çevrilə bilər? Hansı şeyləri biz Allahdan üstün hesab edə bilərik? [10]

Allahla münasibətiniz aşağıdakılara olan münasibətdən daha vacibdirmi?
- ailənizə
- evinizə
- işinizə
- pulunuza
- telefonunuza
- paltarınıza
- imtahanın nəticələrinə
- reputasiyanıza

Gündəlik həyatımızda "səcdə etdiyimiz" şeylər özünü necə büruzə verir? [11]

# Allah mühakimə və mərhəmət Allahıdır

**Qanunun Təkrarı 4:21-31**-i oxuyun. Bu, vəzin ən vacib hissəsidir.

21-24-cü ayələrdə Musa deyir ki, əgər o, günaha görə Allahın qəzəbindən qaça bilmədisə, Allahın xalqı, şübhəsiz ki, qaça bilməyəcək!

25-30-cu ayələrdə Musa peyğəmbərlik edir ki, xalq üsyan edəcək, sürgün olunacaq və sonra öz torpaqlarına qayıdacaq. Bu, Əhdi-Ətiq tarixində daha sonra baş verəcək hadisədir.

Allah xalqının hansı günahları edə biləcəyini deyir (25-ci ayə)? [12]

Allah Öz xalqının bu günahları işlətdiyi təqdirdə onlara hansı cəzaları verəcəyini deyir (26-28-ci ayələr)? [13]

Allah hansı vədi verir (29-31-ci ayələr)? [14]

Bu hadisələr haqqında Əhdi-Ətiqin tarixi kitablarında oxuya bilərsiniz (Yeşua, Hakimlər, 1–2 Şamuel, 1–2 Padşahlar, 1–2 Salnamələr, Ezra və Nehemya).

Maraqlıdır ki, Allah Öz xalqının nə qədər günah işlədəcəyini bilirdi. Nə qədər günah etsələr də, tövbə etdikdə Allah onları bağışlamağa hazır idi. Allah inanılmaz dərəcədə mərhəmətlidir!

Müqəddəs və pak olan Allahın Öz xalqına qarşı bu qədər mərhəmətli və sadiq olması da heyrətamizdir!

Sürgündən sonra belə, İsraillilər Allaha itaətsizlik etməyə davam edirdilər. Onlar Allahın kamil qanunlarına itaətsizlikdən əl çəkmirdilər.

Bütün Əhdi-Ətiq boyu biz Allahın xalqının xilas edilməsi üçün kiməsə ehtiyacı olduğunu görürük. Onlar təkcə yad ölkədəki köləlikdən deyil, günahın daha betər köləliyindən xilas olmalı idilər.

## Əhdi-Cədid

Əhdi-Cədiddə Allahın belə bir xilaskarı necə göndərdiyi haqqında oxuyuruq!

**Matta 1:20-21**-i oxuyun. Məryəmin oğlu İsanın nə edəcəyi barədə Allah Yusifə nə dedi? [15]

## *Əlavə:* İsa bizi xilas edə biləcək yeganə Xilaskardır

İsa Allahın Oğlu idi. Biz bunu aşağıda sadalananlara əsasən bilirik:



- O, Müqəddəs Ruh tərəfindən Məryəmin bətninə düşdü — Onun fiziki atası yox idi;
- O heç vaxt günah etmədi;
- O, bir çox insanların şahidliyi ilə çoxlu möcüzələr göstərdi;
- O, çarmıxa çəkildikdən üç gün sonra yeni və əbədi bədəndə dirildi.

İsanın çarmıxda ölməsi haqqında oxuyanda biz həm Allahın mühakiməsini, həm də mərhəmətini görürük. İsa günahlarımızı Öz üzərinə götürdü və onlar üçün olan mühakiməni daşıdı. Beləliklə, indi Allah bizə mərhəmət göstərə bilər, çünki İsa bizim günahlarımızın əvəzini ödəmişdir!

İsanın dirilməsi bizə göstərir ki, yalnız O bizi günahdan, ölümdən və iblisin özündən xilas edə bilər!

Dirildikdən qırx gün sonra İsa Allahın sağında oturdu. İndi O Öz mərhəmətini və bağışlanmasını bizə təklif edir, lakin vaxt azdır! Tezliklə O bütün yer üzünün hakimi kimi qayıdacaq!

İsa göyə qalxmazdan əvvəl Qanunun Təkrarı Kitabının 4-cü fəslindəki sözlərdən istifadə edərək şagirdlərinə son göstərişlərini verdi. O istəyirdi ki, onlar həqiqətən Onun Allahın Oğlu olduğunu başa düşsünlər!

**Qanunun Təkrarı 4:39-40**-ı oxuyun. Göydə və yerdə bütün hakimiyyət kimə məxsusdur? [16]

Beləliklə Onun xalqı bu gün nə etməlidir? (40-cı ayə)? [17]

Ona tabe olmalıdır!

**Matta 28:18-20**-ni oxuyun. Göydə və yerdə bütün səlahiyyət kimə verilib? [18]

Bəs bu gün Onun xalqı nə etməlidir (19-cu ayə)? [19]

## 3-cü çağırış

Biz bütün insanlara İsaya itaət etməyi öyrətməliyik. Göydə və yerdə bütün səlahiyyət Ona verilib!

O bütün yer üzünün hakimi kimi qayıdacaq!

Başqalarına bütün yer üzünün hakiminə itaət etməyi necə öyrədirsiniz?

Keçən həftə ərzində İsa haqqında kiminlə danışdınız?

### Bu dərsdəki üç çağırışdan hansı üçün Allahdan kömək istəyərdiniz?

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 5:1-15**-i oxuyun.

# Cavablar

1 – Allah mühakimə və mərhəmət Allahıdır.
2 – Allah bunları vurğulayır, çünki xalqı belə düşünürdü:
 – günah işlətməyimiz Allah üçün əhəmiyyətli deyil;
 – günah etdikdən sonra bizim üçün bağışlanmaya ümid yoxdur.
3 – **İtaətkarlıq** — İsraillilər Allahın xeyir-duasını almaq üçün Onun qanunlarına riayət etməlidirlər.
**İsrail fərqlidir** — İsraillilər bütün digər insanlardan fərqli idilər, çünki Allah bütün digər allahlardan fərqlidir.
**Mühakimə və mərhəmət** — Allah mühakimə və mərhəmət Allahıdır.
4 – Allah bizə yaxındır və dualarımızı eşidir (7-ci ayə).
Allah Öz xalqına itaət etmələri üçün yaxşı qanunlar verdi (8, 13-cü ayələr).
Allah danışan Allahdır, lakin xalqı Onu heç vaxt görmür (12-ci ayə).
Allah Öz xalqını dəhşətli kölelikdən xilas etdi (20-ci ayə).
5 – Onlar daha müdrik və anlayışlı olacaqlar.
Digər insanlar onlara və Allahın qanunlarına heyran olurlar.
Digər insanlar Allahın onlara necə yaxın olduğunu və dualarına cavab verdiyini görürlər.
6 – İsa imansızları cəlb edir və buna görə də onların əbədi həyatı əldə etmək imkanları olur.
7 – İsa imansızları cəlb etmir və buna görə də əbədi həyatı əldə etmək imkanından məhrum olunurlar.
8 – Onlar heç bir büt düzəltməməli və onlara səcdə etməməlidirlər.
9 – Allah bütlərdən fərqli olaraq görə bilir, danışır, hərəkət edir, yaradır, Öz xalqını xilas edə və dəyişdirə bilir, onların dualarına cavab verə bilir!
10 – Nümunələr:
 – uşaqlarımız,
 – mühüm və ya vacib insanlar,
 – futbol komandaları,
 – ölən insanlar,
 – telefonlar,
 – evlər,
 – nüfuzumuz (sosial mediada və ya qrup söhbətində neçə bəyənmələrin sayı daxil olmaqla).
11 – Biz hər zaman bunun haqqında düşünürük, hər zaman bu barədə danışırıq, bunu tərifləyirik, bununla çox vaxt keçirmək istəyirik və bunu edə bilməyəndə əsəbiləşirik.
12 – Onlar yollarından aza bilərlər, bütlər düzəldə və pislik edə bilərlər.
13 – Onlar yer üzündən yox olacaqlar, məhv olacaqlar, xalqlar arasına səpələnəcəklər, onlara kömək edə bilməyən, insan tərəfindən yaradılmış allahlara səcdə edəcəklər.
14 – Əgər Allahı bütün qəlbləri və varlıqları ilə axtarsalar, Onu tapacaqlar; Allah onları tərk etməyəcək və məhv etməyəcək. O, İbrahim, İshaq və Yaqubla bağladığı əhdi unutmayacaq (Yaradılış 12:1-3; 26:3-4; 28:14-15; 50:24).
15 – O, xalqını günahlarından xilas edəcək.
16 – Rəbb.
17 – Onun qanun və əmrlərinə riayət etməlidirlər.
18 – İsaya.
19 – Bütün millətlərdən olan insanlara İsanın bizə əmr etdiyi hər şeyə riayət etməyi öyrətməlidirlər.

Qanunun Təkrarı 6-cı dərs:

# **On Əmr** (1-ci hissə)



Bu dərsdə biz Allahı necə sevmək barədə danışacağıq.

## Biz niyə itaət edirik?

**Qanunun Təkrarı 5:1-15**-i oxuyun.

İsraillilər Fironun hakimiyyəti altında aciz qul idilər. Onlar özlərini azad etməyə qadir deyildilər və azad olmağa layiq heç nə etməmişdilər. Lakin Allah onları xilas edib onlara torpaqlar vermək qərarına gəldi.

Beləliklə, onlar Allahın əmrlərinə riayət etməli idilər, çünki O onları xilas edərək Öz xalqı etdi. O onların yeni Ağası və Padşahı idi!

Allah Öz xalqına On Əmri verməzdən əvvəl nə dedi (6-cı ayə)? [1]

Bunu niyə dedi? [2]

Allah onların yeni Ağası və Padşahı idi!

### Əhdi-Cədid

İsraillilər kimi biz də xilas olmağa layiq heç nə etməmişik. Biz iblisin gücü altında aciz günahkarlar idik. Özümüzü xilas etməyə qadir deyildik. Buna baxmayaraq, İsa bizi xilas etmək və bizə əbədi həyat bəxş etmək qərarına gəldi! İndi bizim yeni bir ağamız və padşahımız var!

Bizim vəziyyətimiz İsraillilərin vəziyyətinə nədə bənzəyir? [3]

**Matta 22:37-40**-ı oxuyun.

Yeni ağamız olan İsanın riayət etməyimiz üçün söylədiyi ən vacib iki qanun hansıdır? [4]

Gözəl xəbər budur ki, İsa bizə Onun qanunlarına riayət edə bilməyimiz üçün Öz Müqəddəs Ruhunu verir!

İndi biz Allahın Musaya verdiyi On Əmri nəzərdən keçirəcəyik. Biz görəcəyik ki, bu qanunların hamısı Allahı necə sevmək və qonşumuzu necə sevmək haqqında bəhs edir. Buna görə bu gün də imanlılar On Əmrə riayət etməlidirlər.

# İlk dörd əmr

İlk dörd əmr bizə Allahı necə sevməyi öyrədir.

**Birinci əmr** hansıdır (Qanunun Təkrarı 5:7)? [5]

Yalnız Allah bizim özümüzü tam həsr etməyimizə layiqdir.

Əgər bizim üçün Allahdan daha vacib olan bir şey və ya kimsə varsa, o bizim allahımıza çevrilir.

Birinci əmri necə pozuruq?

## 1-ci çağırış

**Telefonunuzun sizin üçün Allahdan daha vacib olub-olmadığını yoxlayın:** dua edərkən və ya toplantıda olarkən telefonunuza cavab verir və yeni mesajları oxuyursunuzmu? Əgər belə edirsinizsə, bu, telefonunuzun və münasibətlərinizin Allahdan daha vacib olduğunu göstərir. İmkan verməyin ki, o sizin diqqətinizi Allahdan yayındırsın! Onu səssiz rejimə qoyun — bu təkcə sizi deyil, həm də toplantıda olan hər kəsi narahat edir.

Biz başqa allahlara ibadət etməməliyik. Bütün digər allahlar yalançı allahlardır.

## Yalançı allahlar

- **Yalançı allah tanıya bilmədiyimiz** allahdır. Yaxşı ata övladları ilə vaxt keçirmək istədiyi kimi, Allah da bizimlə vaxt keçirmək istəyir. O bunu Kəlamı və Müqəddəs Ruh vasitəsilə edir ki, biz Onu tanıya bilək.

- **Başqa bir yalançı allah bizim üçün pul müqabilində nə isə edə biləcəyini düşündüyümüz** biridir. Bəzi insanlar düşünürlər ki, əgər Allah üçün bir iş görürlərsə, Allah da onlar üçün nə isə etməlidir. Müqəddəs Kitab bizə öyrədir ki, Allah bizi yer üzündəki atanın öz uşaqlarını sevməsindən də artıq və kamil şəkildə sevir. Onun məhəbbətini satın ala bilmərik — biz onun məhəbbətinə ancaq səcdə və itaət etməklə cavab verə bilərik.

Bəzi insanlar Allahın onlar üçün nə isə edəcəyini, ola bilsin ki, dualarına cavab verəcəyini və ya onlara daha çox pul verəcəyini düşünərək imanlılar cəmiyyətinə pul verirlər.

Əgər biz Allahın xeyir-duasını satın almağa çalışırıqsa, bu Onun bizim üçün etdiklərini başa düşmədiyimizi göstərir. Bu o deməkdir ki, biz həqiqi Allaha yox, yalançı allaha ibadət edirik.



Əgər biz həqiqi Allaha ibadət etsək, Ona səxavətlə verəcəyik. Biz Allaha olan məhəbbətimizi ona görə göstəririk ki, O bizə ən qiymətli hədiyyəni verib: İsa Məsihdə əbədi həyatı!

Biz yalançı allaha deyil, həqiqi Allaha ibadət etmək üçün, Allahı tanımaq üçün hər cür səy göstərməliyik!

**İkinci əmr** hansıdır (Qanunun Təkrarı 5:8-10)? [6]

- Bir çox yerlərdə Tanrının və ya digər allahların **insan tərəfindən çəkilmiş şəkilləri** var. Biz Allahı görə biləcəyimiz bir fiziki simaya çevirməməliyik. Heykəl və ya şəkil Allahın heyrətamizliyini kifayət qədər əks etdirə bilməz — əgər biz Onu fiziki formada təsvir edə biləcəyimizi düşünürüksə, bu, Allahı kədərləndirir. Bunu etmək düzgün deyil.

  Əllə hazırlanmış bütlərə niyə səcdə etmək olmaz? [7]

- Dünyada daha harada Allahın surətini görürük (**Yaradılış 1:26**)? [8]

  İstər prezident olsun, istər müğənni, istərsə də Həcc ziyarətində olan, molla, əcdad və ya başqa ölülər olsun, biz **insanlara** səcdə etməməliyik.

## 2-ci çağırış

Bütlərimiz varmı? Bizi qorumaq üçün amulet və ya gözmuncuğu taxırıqmı? Bu bizim üçün bir büt kimidir. Bizi yalnız Allah qoruya bilər. Allahı incitməyin!

İkinci əmri daha hansı yollarla poza bilərik? [9]

## *Əlavə:* Uşaqlara çatan cəza

**Qanunun Təkrarı 5:9-10**-u oxuyun. Tanrının üç-dörd nəsli cəzalandıracağı bizi təəccübləndirə bilər. Amma indi dünyanın bir çox ölkələrində olduğu kimi, o vaxtlar da tez-tez bir yerdə yaşayan nəsillərin sayı belə idi. Valideynlərinin günahlarına şərik olmasalar, Allah uşaqları cəzalandırmaz. Ancaq onlar, adətən, valideynlərinin günahına şərik olurlar — uşaqlar ailədə böyüklərdən gördüklərini etməyə davam edirlər!



Günahlarımız təkcə özümüzün deyil, övladlarımızın, nəvələrimizin də həyatını korlayır. Buna aid bir nümunə paylaşa bilərsinizmi?

Ancaq bunun əksinə olaraq, Allahın məhəbbəti nə qədər davam edir? [10]

Min nəslə məhəbbət göstərmək o deməkdir ki, Allahın məhəbbəti əbədidir — min nəsil sayıla bilməz!

**Üçüncü əmr** hansıdır (Qanunun Təkrarı 5:11)? [11]

Musa Allahdan adını soruşduqda Allah Öz adını dedi (Çıxış 3:13-14)? [12]

İbrani dilində Allahın adı *Yahvedir*. Əhdi-Ətiqdə *Rəbb* kimi tərcümə olunur.

Musa Allahın adını eşitmək şərəfinə nail oldu. İnsanın adı və xarakteri çox önəmlidir. Birinin adı və ya xarakteri haqqında pis danışıldıqda və ya boş yerə istifadə edildikdə bu, xoşagəlməzdir.

Allahın adı qiymətlidir! İsraillilər Allahın adını istifadə etməkdə o qədər ehtiyatlı idilər ki, bunu nadir hallarda edərdilər.

Üçüncü əmri pozmağın müxtəlif yolları var:

- Kənanlılar nifrət etdikləri insanlara **lənət** və cadu edərkən öz allahlarının adlarından istifadə edirdilər. Allah İsraillilərə deyirdi ki, Onun adı heç vaxt bu şəkildə istifadə edilməməlidir. Bütün bu cür hərəkətlər qadağan edilmişdi (Qanunun Təkrarı 18:9-13).

- **Hərəkətlərimiz və sözlərimizlə:** həvari Paulun yazdığı kimi: "*Qanunla öyünməyinə baxmayaraq, onu pozub Allahı hörmətdən salırsan. Axı belə yazılıb: 'Sizin üzünüzdən millətlər arasında Allahın adına küfr edilir'*" (Romalılara 2:23-24). Əgər biz Allahın xalqı olduğumuzu deyiriksə, bunu Ona və başqalarına olan məhəbbətimizlə göstərməliyik. Bizim əməllərimiz sözümüzlə uyğun gəlməlidir.

- İnsanlar işləri pis gedəndə Allahın adından boş yerə necə istifadə edirdilər? [13]

Amma insanlar, adətən, işləri yaxşı gedəndə Allahı izzətləndirmirlər.

Hansı yollarla Allahın adını boş yerə çəkməməliyik? [14]

## *Əlavə:* Andlar

Əhdi-Ətiq dövründə insanlar məhkəmədə həqiqəti söylədiklərini göstərmək üçün allahlarının adına and içirdilər. Kənanlılar allahlarının adlarına and içirdilər, lakin onlar çox vaxt yalan danışırdılar.

Bununla belə, Allah Öz xalqına yalnız Onun adı ilə and içmələrini və həqiqəti söyləməyi əmr etdi (Qanunun Təkrarı 6:13; 5:20).

Əhdi-Cədiddə İsa öyrətdi ki, ümumiyyətlə and içməmək daha yaxşıdır. "*Sözünüzdə 'bəli'niz bəli, 'xeyr'iniz xeyr olsun. Bundan qalanı şər olandandır*" (Matta 5:37). O, gündəlik həyatda and içməkdən danışırdı. Başqa insanlarla münasibətlərimizdə yalnız "Bəli, bunu edəcəyəm" və ya "Xeyr, bunu etməyəcəyəm" demək kifayətdir (Matta 5:37). Bununla belə, bəzi hüquqi hallarda, məsələn, məhkəmədə

və ya hərbi xidmətə qoşularkən xidmətə sadiq olacağınızı və ya həqiqəti söylədiyinizi bildirmək üçün sizdən and içmək tələb oluna bilər. Bu onun üçündür ki, hamı bilsin ki, siz xidmət etmək və ya həqiqəti söyləmək öhdəliyinizə ciddi yanaşırsınız. Bu vəziyyətdə ölkənizə və ya hökumətinizə sədaqət andı içmək günah deyil. Həvari Paulun yazdığı kimi, "*hər kəs başçılıq edən hakimiyyətlərə tabe olsun. Çünki Allah tərəfindən təyin olunmayan hakimiyyət yoxdur...*" (Romalılara 13:1).

**Dördüncü əmr** hansıdır (Qanunun Təkrarı 5:12-15)? [15]

İnsanlar nəyi yadda saxlamalıdırlar (15-ci ayə)? [16]

Qullar hər zaman işləmək məcburiyyətindədirlər. Amma Allah Öz xalqını AZAD etdi və indi onlar daha qul deyillər! Ona görə də istirahət gününə malik olmayan qul kimi hərəkət etməməlidirlər. Onlar hər həftə tam bir gün istirahət günü götürüb azadlıqlarını qeyd etməlidirlər.

Bir gün istirahət etmək onu göstərir ki, biz öz gücümüzə deyil, Allaha güvənirik. Əgər biz həftənin yeddi günü işləyiriksə, bu, Allaha güvənmədiyimizi göstərir — ehtiyaclarımızı ödəmək üçün öz gücümüzə güvənirik. Biz Allaha güvənməyi öyrənməliyik!

İstirahət günündən istifadə etməyin bir çox yaxşı yolları var. Siz imanlılarla görüşə, ailələrimiz və imanlılar cəmiyyəti ilə vaxt keçirə bilərsiniz.

İmanlılar cəmiyyətinin rəhbərləri həftədə bir gün istirahət etməlidirlər. Bazar günləri çox məşğul olduqları üçün fərqli bir gün istirahət edə bilərlər. Hər kəsə bildirməlidirlər ki, xüsusi hal olmadığı təqdirdə həmin gün onlara zəng etməsinlər. Bu yolla özlərini yorğunluqdan və depressiyadan qoruya bilərlər. Həftədə bir gün istirahət etsələr, daha yaxşı xidmət edə biləcəklər.

Allahla və insanlarla münasibətimiz işdən daha vacibdir!

Əgər biz Şənbə gününü qeyd edib onu təqdis etsək, bu, Allahı sevməyimizə necə yardım edər? [17]

## 3-cü çağırış

Hər həftə işdən bir gün istirahət günü götürürsünüzmü? Əgər belədirsə, Allahla münasibətlərinizi inkişaf etdirmək üçün o gündən istifadə edirsinizmi?

### Sizcə, məsihçilər bu dörd əmrdən hansına daha çox riayət etməkdə çətinlik çəkirlər?

### Üç çağırışdan hansında Allahın köməyinə ehtiyacınız var?

### Allah sizə nələri tövbə etməyi göstərib?

Rəbbə şükür olsun ki, O, günahlarını etiraf edən hər kəsi bağışlayır! (1 Yəhya 1:8-9).

*Allahınız Rəbbi **bütün** qəlbinizlə, **bütün** varlığınızla, **bütün** gücünüzlə sevmək* üçün bir-biriniz üçün dua edin (Qanunun Təkrarı 6:5).

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 5:16-21**-i oxuyun.

## Cavablar

1 – *Səni Misir torpağından, köləlik diyarından çıxaran Allahın Rəbb Mənəm.*
2 – Onlar Allahın əmrlərinə riayət etməli idilər, çünki O onları xilas etmişdi və onlar Onun xalqı idilər.
3 – İsraillilər kimi, biz də xilas olmağa layiq heç nə etməmişik. Biz iblisin gücü altında aciz günahkarlar idik. Özümüzü xilas etməyə tamamilə qadir deyildik. Buna baxmayaraq, İsa bizi xilas etmək və bizə əbədi həyat bəxş etmək qərarına gəldi! İndi bizim yeni bir Ağamız və Padşahımız var!
4 – Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev. Qonşunu özün kimi sev.
5 – *Məndən başqa allahların olmasın.*
6 – Özünüz üçün heç bir oyma bütün surətini düzəltmə, ona səcdə etmə.
7 – Büt Allahın heyrətamizliyini kifayət qədər əks etdirə bilməz — əgər biz Onu fiziki formada təsvir edə biləcəyimizi düşünürüksə, bu, Allahı kədərləndirir.
8 – Bütün insanlar Allahın surətində yaradılmışdır!
9 – İnsan tərəfindən yaradılmış surətlərə səcdə edəndə və ya insanlara (diri və ya ölü fərqi yoxdur) səcdə edəndə, yaxud onlara dua edəndə və ya bizi qorumaq üçün amuletlərdən istifadə edəndə ikinci əmri pozuruq.
10 – Min nəsil boyunca!
11 – *Allahın Rəbbin adını boş yerə çəkmə...*
12 – *Var Olan Mənəm.*
13 – Onlar işləri pis gedəndə Allahı günahlandırırlar ("Ay Allah!").
14 – Biz Allahın adını lənət və caduda çəkməməliyik.
Biz günah işlətməklə Allahı alçaltmamalıyıq.
Allahın adını and içməkdə istifadə etməməliyik.
15 – Şənbə gününü qeyd və təqdis et.
16 – Onlara deyilir ki, Allahın onları köləlikdən azad etdiyini xatırlasınlar.
17 – Biz Allahla vaxt keçirə, imanlılarla görüşə bilərik.

Qanunun Təkrarı 7-ci dərs:

# **On əmr** (2-ci hissə)



**Bu dərsi kişi və qadınlar ayrı-ayrı qruplarda keçməlidirlər.**

Axırıncı dərsdə bizə Allahı sevməyi öyrədən ilk dörd əmrə baxdıq. Bu dərsdə biz növbəti altı əmri nəzərdən keçirəcəyik. Onlar bizə bir-birimizi sevməyi öyrədirlər.

Əgər biz əvvəlcə Allahı sevməsək (ilk dörd əmr), bir-birimizi sevə bilməyəcəyik (sonrakı altı əmr).

**Qanunun Təkrarı 5:16-21**-i oxuyun.

## Əhəmiyyətli olanların ardıcıllığı



On Əmrin ardıcıllığı bizə Allah üçün əhəmiyyətli olanları göstərir:

- Allah üçün ən çox əhəmiyyət kəsb edən bizim Onunla münasibətimizdir.
- Növbəti ən vacib şey bir-birimizlə münasibətlərimizdir.
- Yalnız bundan sonra malımız-mülkümüz bizim üçün əhəmiyyət kəsb edə bilər.

Ancaq çox vaxt bizdə bu şeylər **əks** ardıcıllıqla baş verir:

- Malımız-mülkümüz bizim üçün hər şeydən əhəmiyyətli olur.
- Sonra bir-birimizlə münasibətlərimizə əhəmiyyət veririk.
- Və axırda Allahla münasibətimizə çox az əhəmiyyət veririk!

Əgər biz Allahın əhəmiyyət verdiyi şeylərə ən çox əhəmiyyət versək, o zaman sülh və sevinc əldə edəcəyik. Ancaq Allahın dəyər verdiyi şeylərə əhəmiyyət verməsək, heç vaxt əsl sülh və sevinc əldə edə bilməyəcəyik.

Bizim üçün nəyin daha vacib olması barədə Allahın qaydası hansıdır? [1]

**Qanunun Təkrarı 5:16**-nı oxuyun. Beşinci əmr hansıdır? [2]

Uşaqlar valideynlərinə itaət etməlidirlər (Efeslilərə 6:1). Yetkin uşaqlar valideynlərinə hörmət etməlidirlər (Qanunun Təkrarı 5:16) və ehtiyac duyduqda onlara qayğı göstərməlidirlər (1 Timoteyə 5:8).

Valideynlər övladlarına həm anaya, həm də ataya itaət etməyi öyrətməlidirlər. Həm oğlanlar, həm də qızlar valideynlərinə itaət etməlidirlər. Övladların tərbiyə edilməsi lap uşaq yaşda, hətta danışmağı öyrənməmişdən əvvəl başlayır!

Yaxşı valideynlər bütün ailəsi üçün ən yaxşı şeyləri istəyirlər. Yaxşı valideyn olmaq üçün ata və ana bir-birini sevməli və bir-birinə hörmət etməlidirlər. Uşaqlar valideynlərində gördüklərini təkrarlayırlar. Ata həmişə anaya qışqırırsa, uşaqlar da bunu etməyi öyrənəcəklər. Əgər ana həmişə atanı tənqid edirsə, uşaqlar da bunu etməyi öyrənəcəklər.

Kamil valideyn yoxdur. Təəssüf ki, hərdən valideynlər övladlarının səhv bir şey etməsini istəyirlər. Belə vəziyyətdə Həvarilərin İşləri 4:19 bizə nə deyir? [3]

# Müzakirə

Beləliklə, yetkin imanlılar valideynləri ilə necə rəftar etməlidirlər?

## 1. Pula münasibətdə:

- Valideynlərimiz bizim daha çox pul qazanmağımız üçün həftənin yeddi günü işləməyimizə təkid etdikdə nə etməliyik?

- Pul qazanıb onlara göndərmək üçün xaricə getməyimizi istədikdə nə etməliyik?

- Bizim üçün əhəmiyyətli olmayan şeylər üçün pul qazanmağımızı istədikdə nə etməliyik?

Valideynlərimizlə açıq şəkildə danışa bilərik: onları sevirik, lakin bizdən bu qədər işləməyi və uzun illər uşaqlarımızdan uzaq düşməyimizi tələb etmələri bizi kədərləndirir.

Onların olduqları yerdə necə pul qazana bilərlər?

Bu, aşağıdakı yollarla mümkün ola bilər:
- Valideynlərimiz kiçik bir dükan açıb orada mallar sata bilərlərmi?
- Onlar insanlara hansısa bacarıq və ya sənət öyrədə bilərlərmi?
- Valideynlərimiz başqalarının uşaqlarına baxa bilərlərmi?
- Başqa hansı ideyalar ağlınıza gəlir?

## 2. Məişət zorakılığı hallarına gəldikdə:

- Əgər kimsə başqa bir ailə üzvü ilə pis rəftar edərsə, biz nə etməliyik?

Yaxşı ev hər bir ailə üzvü üçün təhlükəsiz yerdir. Özünüzü və başqalarını zərərdən qorumaqda ayıb bir şey yoxdur.

Əgər imanlılar cəmiyyəti üzvü öz evində təhlükə hiss edirsə, imanlılar cəmiyyəti onlar üçün təhlükəsiz yeri təmin etməyi müzakirə etməlidir.

**Qanunun Təkrarı 5:17**-ni oxuyun. Altıncı əmr hansıdır? [4]

Ola bilsin ki, siz bu əmri heç vaxt pozmadığınızı düşünürsünüz. Amma...

**Matta 5:21-22**-ni oxuyun. Bu əmr bizə kiməsə qəzəblənmək haqqında nə deyir? [5]

## 1-ci çağırış

Kiməsə qəzəblənirsinizmi? Qəlbinizi buxovlayan qəzəb buxovlarından qurtulmaq üçün Allahdan o insanı bağışlamağınız üçün kömək istəyin!

Başa düşməliyik ki, abort da bir qətldir, hətta üzrlü səbəblər olsa belə. Məsələn, körpə zorlama nəticəsində bətndə yaranıbsa və ya körpənin fiziki problemi olduqda körpəni abort etmək yenə də günah sayılır. Körpələr Allahın hədiyyəsidirlər. Biz Allaha etibar etməliyik ki, O bizə verdiyi uşağın qayğısına qalmaq üçün bizə lazım olan hər cür neməti bəxş edəcək.

Əgər həyatda nə vaxtsa abort etmişiksə, üç şeyi bilməliyik:
- Allah hələ də bizi sevir və bizi bağışlamağa hazırdır.
- Allah övladımızı sevir, övladımız isə səmalarda bizi gözləyir.
- Allah bizi keçmişimizin günahlarından azad etmək istəyir.

Uşağınızın həyatına son qoymağın günahı və kədəri ilə yaşamayın.

Əgər:
- kiməsə nifrət bəsləyiriksə,
- uşağımızı abort etmişiksə,
- bu zaman bir anlıq dayanaq və bağışlanmağımız üçün sakitcə dua edək.



Dua edin ki, Allahın məhəbbətini və bağışlanma möcüzəsini həyatımızda yaşaya bilək!

**Qanunun Təkrarı 5:18-i** oxuyun. Yeddinci əmr hansıdır? [6]

Evlilikdən kənar bir kişi və bir qadın arasında bütün cinsi əlaqələr günahdır.

Gənc cütlüklər evlənməzdən əvvəl bir-birləri ilə öpüşməməli və bir-birlərinə toxunmamalıdırlar. Paulun yazdığı kimi: "*Əxlaqsızlığın adı belə aranızda çəkilməsin*" (Efeslilərə 5:3).

Gənc oğlanlar ər olmağı öyrənmək üçün fahişənin yanına getməməlidirlər. Ərin ən mühüm xüsusiyyəti arvadına sadiq olmasıdır. Beləliklə, ər olmağa hazırlaşarkən bir fahişənin yanına getmək onun yaxşı ər OLMAYACAĞINA bir işarədir. O, arvadına ən qiymətli toy hədiyyəsi olan paklığını hədiyyə edə bilməyəcək. Hətta arvadını fahişə ilə müqayisə edə bilər. Həm də o, müalicəsi mümkün olmayan ciddi bir xəstəliyə tutula bilər.

Arvadı ilə cinsi əlaqəsi mümkün olmadığı halda da ər fahişənin yanına getməməlidir. Məsələn, körpə doğulduqdan sonra ilk aylarda, arvadın aybaşı zamanı, uzun müddət xəstə olduqda və ya ər, yaxud arvad müxtəlif ölkədə işlədikdə. Nəfsinə hakim olmaq Müqəddəs Ruhun həyatımızda işlədiyinin sübutudur (Qalatiyalılara 5:22-23). Ər və arvadın bir-birindən uzun müddət ayrı qalması yaxşı deyil (1 Korinflilərə 7:5). Bir çox nikahlar bu səbəbdən dağılıb. Xoşbəxt bir evlilik üçün ərinizə və ya arvadınıza sadiq olmalısınız. Həvari Paul yazırdı: "*Bilmirsiniz ki, bədənləriniz Məsihin üzvləridir? İndi Məsihin üzvlərini götürüb bir fahişənin üzvləri edimmi? Əsla! Bilmirsiniz ki, fahişə ilə birləşən onunla bir bədən olur? Çünki deyilmişdir: 'İkisi bir bədən olacaq'*" (1 Korinflilərə 6:15-16).

Fahişənin yanına getməyin hansı nəticələri var? [7]

Allahı maraqlandıran təkcə hərəkətlərimiz deyil, həm də düşüncələrimizdir.

**Matta 5:27-30**-u oxuyun. Bu ayələr bizə düşüncələrimiz haqqında nə deyir? [8]

## 2-ci çağırış



Hansı filmlərə və videolara baxırsınız?

Parnoqrafiya filmlərinə baxsaq, hansı problemlərlə rastlaşacağıq:

- zehnimiz natəmiz fikirlərlə dolacaq;
- bu görüntülər yaddaşımızda əbədi qala bilər;
- bizi yanlış hərəkətlər etməyə sövq edəcək;
- həyat yoldaşımız gözümüzdən düşəcək və evlilik münasibətimiz korlanacaq;
- evlilikdən əvvəl belə filmlərə baxmaq gələcək evliliyimizi korlayır;
- bu filmlər bizi masturbasiya etməyə sövq edir — bu da özbaşına cinsi həzz almaq istəyidir. Seks yalnız evli cütlüyün birlikdə həzz alması üçün bir hədiyyədir. Müqəddəs Kitab bizə nəfsimizə hakim olmağı və "cismani təbiət üçün fürsət" verməməyi öyrədir (Qalatiyalılara 5:13).

Müəyyən filmlərə baxmağı dayandırmalısınızmı?



Gəlin bir anlıq dayanaq və nə vaxtsa etdiyimiz cinsi əxlaqsızlıq günahına görə tövbə edərək Allaha sakitcə dua edək.

Bizə murdar düşüncələr gətirən baxdığımız filmlərə görə Allahdan bağışlanma diləyək. Allahdan düşüncələrimizi və qəlbimizi təmizləməsini diləyək.

Dua edin ki, hamımız Allahın məhəbbətinin və bağışlamasının möcüzəsini həyata keçirə bilək!

Dua edin ki, Müqəddəs Ruhun qüdrəti ilə hamımız bu yanlış şeylərə baxmağı dayandıraq.

**Qanunun Təkrarı 5:19**-u oxuyun. Səkkizinci əmr hansıdır? [9]

Hansı hallarda biz bu əmrə riayət etmirik?

Əgər biz işimizi düzgün qaydada etmiriksə, lakin buna görə maaş alırıqsa, bu, oğurluqdur. Müdiriniz yerinə yetirməli işi gördüyünüzə görə sizə pul ödəyir və bir kimsə bunu görməsə də, işinizi düzgün yerinə yetirməyiniz vacibdir (Efeslilərə 6:5-8).

Əgər kimdənsə və ya imanlılar cəmiyyətindən borca bir şey götürürüksə (məsələn, boşqab, dəsmal, kitab, oyuncaq), o adam bunun hədiyyə olduğunu deməyi halda, onu mütləq geri qaytarmalıyıq. Bunu etməsək, biz onu oğurlamış oluruq.

Borc alırıqsa, onu qaytarmalıyıq. Əgər pulu geri qaytara bilmiriksə, o zaman borc götürdüyümüz adamla danışmalıyıq. Onunla borcu necə qaytara biləcəyimizi müzakirə etməliyik. Çox vaxt insanlar cəmiyyətin üzvlərindən borc pul alanda borclarını qaytara bilmədiyi üçün imanlılar cəmiyyətinə gəlmirlər.

Gəlin bir anlıq dayanaq və bağışlanma üçün dua edək, əgər:
- müdirimizi aldatmışıqsa,
- oğurluq etmişiksə,
- borcumuzu qaytarmamışıqsa.



Dua edin ki, Allah tez bir zamanda bu vəziyyəti düzəltməkdə bizə kömək etsin.

Borc üzündən pozulan münasibətlərin tezliklə bərpa olunmasını bərpa etsin.

Eləcə də dua edin ki, hamımız Allahın məhəbbətinin və bağışlamasının möcüzəsini həyatımızda yaşaya bilək!

**Qanunun Təkrarı 5:20**-ni oxuyun. Doqquzuncu əmr hansıdır? [10]

Başqaları haqqında pis danışanda və onlar haqqında qeybət edəndə biz onların həyatını məhv edirik. İnsanlar başqalarının onlar haqqında pis sözlər dediyini bilsələr, imanlılar cəmiyyətinə gəlməyəcəklər.



Gəlin bir anlıq dayanaq və başqaları haqqında pis danışdığımıza görə tövbə edək.

İnsanların onlar haqqında qeybət etdiklərinə görə imanlılar cəmiyyətinə gəlməyənlər üçün dua edin.

Dua edin ki, Müqəddəs Ruhun dəyişilməyimizə necə kömək edə biləcəyini öyrənək.

Eləcə də dua edin ki, biz Allahın məhəbbət və bağışlama möcüzəsini həyatda yaşaya bilək!

**Qanunun Təkrarı 5:21**-i oxuyun. Onuncu əmr hansıdır? [11]

Tamah salmaq nə deməkdir? [12]

**İbranilərə 13:5**-də pula münasibətimiz barədə nə deyilir? [13]

Əlimizdə olanlarla kifayətlənsək:
- Rəbbin bizə bəxş etdiyinə görə minnətdar olacağıq;
- Bizdə olmayan şey barədə şikayət etməyəcəyik;
- Bizdə olmayana sahib olan başqa insanlara həsəd aparmayacağıq.

İnsanlar nə vaxt qane olurlar? [14]

Bir çox insanlar uşaqlarını nadir hallarda görürlər, çünki onlar bütün günü işdə olurlar.

Hətta bəziləri pul qazanmaq üçün başqa ölkəyə gedir və illərlə öz ailə üzvlərini görmürlər.

Əgər xaricdə işləyirsinizsə, pul qazanmaq üçün evinizdən və ailənizdən nə qədər uzaq düşəcəyinizi nəzərə almağınız üçün Allahdan hikmət diləyərək dua edin.

Nəyisə əldə etmək üçün pul qazanmaq istəyi həmişə olur. Ancaq uşaqlar üçün ən dəyərli şey hər iki valideynin yanlarında olmasıdır. Onlara məhəbbət göstərmək və Rəbbin ardınca getməyi öyrətmək üçün valideynlərinə ehtiyacları var.



Rəbbə dua edin ki, sizə tamah saldığınız şeyləri göstərsin.

Tamah saldığınız şeylərin qərarlarınıza necə təsir etdiyini sizə göstərməsini xahiş edin.

Bunlara sahib olmaq istəyinizə görə kim əziyyət çəkir?

Rəbb bu barədə sizə nə demək istəyir?

# Bağışlanmanı necə əldə edə bilərik?

**1 Yəhya 1:8-9**-u oxuyun.

Günah etmədiyimizi düşünürüksə, bu ayədən nə öyrənə bilərik (8-ci ayə)? [15]

Biz necə bağışlana bilərik (9-cu ayə)? [16]

Əlbəttə ki, siz günahınızı Allahla özünüz arasında gizli şəkildə etiraf edə bilərsiniz. Ancaq bunu etibarlı bir dostunuza etiraf etsəniz, həyatınızdakı günahın buxovunu qırmaq üçün güclü çıxış yolu tapacaqsınız.

Qrupunuz günahları etiraf etmək üçün yaxşı yerdir. Amma diqqətli olun ki, qrupda paylaşılanları **başqalarına deməyəsiniz**. Biz etibarlı şəxslər olmağı öyrənməliyik!

## Müzakirə

Sizin imanlılar cəmiyyətinizdə olanlar bu əmrlərdən hansına riayət etməkdə çətinlik çəkirlər?

Bu əmrlərdən hansına riayət etmək sizə daha çətin gəlir?

**Rəbbə həmd edin ki, O bizə Onun istədiyi kimi yaşamağa kömək etmək üçün Müqəddəs Ruhunu verib!**

**Bir-biriniz üçün dua edin ki, xüsusi şəkildə Allahın Müqəddəs Ruhu ilə dolasınız!**

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 6-cı fəsli** oxuyun.

## Cavablar

1 – Allah üçün ən çox əhəmiyyət kəsb edən bizim Onunla münasibətimizdir. Sonra növbəti ən vacib şey bir-birimizlə münasibətlərimizdir. Yalnız bundan sonra malımız-mülkümüz bizim üçün əhəmiyyət kəsb edə bilər.
2 – Ata və anana hörmət et.
3 – İnsandan çox Allaha qulaq asmaq vacibdir.
4 – Qətl etmə.
5 – Əgər kiməsə qəzəbləniriksə, bu sanki onu qətlə yetirməyə bərabərdir.
6 – Zina etmə.
7 – Fahişə yanına getmək nikahınızı, düşüncələrinizi və sağlamlığınızı korlayır.
8 – Əgər murdar düşüncələrimiz varsa, bu, əslində, pis hərəkət etməyə bərabərdir.
9 – Oğurluq etmə.
10 – Qonşuna qarşı yalandan şahidlik etmə.
11 – Heç nəyə tamah salma!
12 – Bu o deməkdir ki, biz bir şeyə böyük istəklə sahib olmaq istəyirik.
13 – Pula olan məhəbbətdən azad olmaq, əlində olana qane olmaq.
14 – Heç vaxt! İnsanların çoxu həmişə daha çox şeyə sahib olmaq istəyir!
15 – Biz özümüzü aldadırıq.
16 – Günahlarımızı etiraf etməklə.

Qanunun Təkrarı 8-ci dərs:

# Allahın Rəbbi sev



Bu dərsdə biz Allaha olan məhəbbətimizin həyatımızda necə təzahür edəcəyini öyrənəcəyik.

**Qanunun Təkrarı 6-cı fəsli** oxuyun.

## Bir Allah

4-cü ayədə Allah haqqında nə deyilir? [1]

Orijinal ibrani dilində bu ayədə deyilir: "*Allahımız Yahve, yeganə Yahvedir*".

İbranicə "yeganə" sözü "*ehad*"*dır.* Bu, birlik deməkdir. Bu *ehad* sözünə eləcə də aşağıdakı yerlərdə rast gəlirik:

- Allah Müqəddəs məskəni tikmək barədə göstəriş verəndə: "*Qızıldan əlli bənd düzəlt. Bəndlərlə pərdələri bərkit və çadırı birləşdir ki, məskən* ***bütöv olsun***" (Çıxış 26:6).

- Allah Yezekelə iki İsrail xalqını yenidən bir xalq olaraq birləşdirəcəyini söyləyərkən: Mən onları "***bir*** *əsa edəcəyəm. Onlar əlimdə bir olacaq*" (Yezekel 37:19).

Bəziləri deyirlər ki, məsihçilər üç allaha sitayiş edirlər. Bizim Allahımız bir Allahdır. Yahvedir — yeganə canlı və həqiqi Allahdır. O, yeganə Allahdır və O, "birdir". Allah istəmir ki, Onun xalqı Ona səcdə etdikləri kimi başqa allahlara da səcdə etsinlər. Qadının yalnız bir əri ola biləcəyi kimi, bizim də bir Allahımız ola bilər. Başqa şeyə səcdə etmək vəfasızlıqdır. Buna görə də Qanunun Təkrarı 6-cı fəslin davamı belədir: "*Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün gücünlə sev*" (5-ci ayə).

Niyə biz yalnız bir Allaha səcdə edirik? [2]

## Bir Allahımız üç şəxsiyyətdən ibarətdir

Əhdi-Ətiqdə də, Əhdi-Cədiddə də Üçlüyə dair dəlillər var. Məsələn:

- **Yaradılış 1:26:** Allah "Mənim surətimə" deyil, "Öz surətimizə" deyir. Burada işarə verilir ki, bizim bir olan Allah cəm şəkildədir.

- **Yaradılış 18:22:** Allah göydə və yerdədir! Əlbəttə, Ata Allah hələ də göylərdədir. Buna baxmayaraq Allah yer üzündə İbrahimlə insan kimi danışdı. Bu necə mümkündür? Allahın bir olduğunu, lakin Özünü üç şəxs kimi təzahür etdirdiyini başa düşdükdə bu aydın olur. Üçlüyün bu ikinci şəxsi *Rəbbin* mələyi kimi göründü və dedi: "*Mən edəcəyim şeyi İbrahimdən gizlədəcəyəmmi?*" (Yaradılış 18:17). O, insan şəklində doğulmazdan əvvəl də Əhdi-Ətiqdə bir neçə dəfə Üçlüyün ikinci şəxsi olan insan şəklində görünmüşdü (məsələn, Yaradılış 32:22-31; Daniel 3:24-25).

- **Çıxış 24:9-11:** Yazılmışdır ki, heç kim Allahı görüb sağ qala bilməz (Çıxış 33:20). Bəs necə oldu ki, bu insanlar Allahı gördülər və ölmədilər? Bunun Üçlüyün ikinci şəxsi olduğunu başa düşsək, bu aydın olacaq. Bir gün O, yer üzünə insan kimi gələcək və bir çoxları Onu görəcəklər!

- **Matta 22:43-45:** Məsihin Allah olduğunu göstərmək üçün İsa 110-cu Məzmurdan sitat gətirir. Allah eyni zamanda həm göydə, həm yerdə idi!

- **Yəhya 14:16-17:** Oğul Allah olan İsa deyir ki, Ata Allahdan xahiş edəcək ki, şagirdlərinə Müqəddəs Ruhu göndərsin. Bu o deməkdir ki, göydəki Allah Oğlunun dualarını eşidir. O bizim içimizdə yaşamaq üçün Öz Müqəddəs Ruhunu göndərəcəkdi! Beləliklə, biz bu ayələrdə Üçlüyün hər üç şəxsiyyətini görürük.

Əhdi-Cədiddən Allahın Ata, Oğul və Müqəddəs Ruh olduğunu öyrənirik. Allah üç şəxsin birliyidir. Üçlük Allahı dərk etmək üçün gözəl bir şeydir. Bu bizə göstərir ki, Allah uzaqda deyil, əksinə, bizə yaxındır. Hər şeyə qadir olan Allah hələ də kainatın hökmdarı olaraq bizdə yaşayır!

Allahın Ata, Oğul və Müqəddəs Ruh olması nə üçün bu qədər gözəldir? [3]

## *Əlavə:* Kimin adı ilə?

**Matta 28:18-20**-ni oxuyun. Biz insanları kimin adı ilə vəftiz edirik? [4]

**Yəhya 14:13**-ü oxuyun. Kimin adı ilə dua etməliyik? [5]

**İbranilərə 10:19**-u oxuyun. Nə üçün biz İsanın adı ilə dua edirik? [6]

Bu, böyük şərəfdir! Biz İsa Məsihin sayəsində Səmavi Ataya yaxınlaşa bilərik!

Qanunun Təkrarı 6:21, 23 bizə Allah haqqında nə deyir? [7]

Yalnız Rəbb Allah İsraili Misirin köləliyindən azad edə bildi. Başqa allahlar heç cür onlara kömək edə bilməzdi.

Qanunun Təkrarı 6:10-12 bizə Allahın xasiyyəti haqqında nə deyir? [8]

Allah səxavətli Allahdır!

# Allahın xalqı necə yaşamalıdır

Bütün bunlara cavab olaraq, Allah Öz xalqına nə etməyi əmr edir (Qanunun Təkrarı 6:5)? [9]

Allahın xalqı yalnız Onu sevməlidir! Heç kim və ya heç nə onların həyatında birinci yerdə olmamalıdır. Əgər onlar bir şeyi Allahdan üstün tutarlarsa, deməli, bütlərə səcdə etmiş olurlar. Nəticədə Allaha səcdə etməyin sevincini yaşamayacaqlar.

## 1-ci çağırış

Əhdi-Ətiqdə qərarları insanın ürəyi qəbul edir. Məsələn, Süleymanın Məsəlləri 3:1-3: "*Təlimimi unutma... qoy **qəlbin** əmrlərimə bağlansın*".

Verdiyiniz qərarlarda Allahı razı salmağa çalışırsınızmı?

- Hər səhər işə getməzdən əvvəl Allahın Kəlamını oxumağa və dua etməyə qərar verirsinizmi?
- İşə getmək, dostlarla görüşmək və ya dincəlməkdənsə toplantıya getməyə qərar verirsinizmı?
- Sizi evdə və ya işdə narahat edənlər üçün dua etməyə qərar verirsinizmi?
- Telefonunuza baxmaq əvəzinə, başqalarına xidmət etməyə qərar verirsinizmi?
- Telefonda və televizorda yalnız yaxşı şeylərə baxmağa qərar verirsinizmi?

"*Allahın Rəbbi bütün **qəlbinlə** sev*" (Qanunun Təkrarı 6:5).

Əhdi-Ətiqdə **qəlbimiz** arzularımızı və duyğularımızı ifadə etdiyimiz yerdir. Məsələn, "*Rəbbə alqış et, ey könlüm!*" (Zəbur 103:1).

Arzularımız və duyğularımızla Allahı razı salmağa çalışırıqmı?

Nəyi daha çox **arzulayırıq**:

- Çoxlu pul qazanmağı, yoxsa Allahın xalqı ilə ünsiyyət etməyi?
- Çoxlu pul qazanmağı, yoxsa həyat yoldaşımız və uşaqlarımızla vaxt keçirməyi?
- Sosial mediada ən son xəbərləri eşitməyi, yoxsa Kəlam vasitəsilə Allahdan eşitməyi?
- İmanlı olub-olmamasından asılı olmayaraq, hər kəslə evlənməyi, yoxsa imanlı olan həyat yoldaşını gözləməyi?
- Əsəbiləşərkən qəzəbimizi ifadə etməyi, yoxsa özümüzə hakim olmağı?

"*Allahın Rəbbi bütün **varlığınla** sev*" (Qanunun Təkrarı 6:5).

**Güc** sözü Allahı nə qədər sevməli olduğumuzu vurğulayır!

"*Allahın Rəbbi **bütün qəlbinlə** sev, **bütün varlığınla** və **bütün gücünlə** sev*" (Qanunun Təkrarı 6:5).

Biz kimi razı salmağa çalışırıq: özümüzü, yoxsa Allahı?

Allaha məhəbbət Ondan qorxmağı və başqa allahlardan, o cümlədən vəd olunmuş Kənan torpağında səcdə edilənlərdən qorxmamağı nəzərdə tutur.

**Qanunun Təkrarı 6:13-17**-də İsraillilərin Allahdan necə qorxmalı olduqları barədə nə deyilir? [10]

Biz insanlardan və onların lənətlərindən qorxmamalıyıq. Biz fala baxanlara, "müqəddəs adamı" ziyarət edənlərə, məzar başında dua edənlərə də qoşulmamalıyıq.

## **Massada baş vermiş hadisə** (Qanunun Təkrarı 6:16)

İsraillilər Musaya və Allaha qəzəbləndilər. Onlar susamışdılar. Allahın onlara su verəcəyinə inanmırdılar. Onlar Musanı daşqalaq etməyə hazır idilər. Allah bu qədər möcüzələr göstərmiş halda belə, onlar Allahın həqiqətən də onlarla olduğuna şübhə edirdilər. Allahın onlara qəzəblənməsi təəccüblü deyil (Çıxış 17:1-7).

İsraillilər bu ayələrdə *Allahı necə sınadılar?* [11]

*Biz Allahı necə sınaya* bilərik? [12]

**Qanunun Təkrarı 6:6-9**-u oxuyun.

> ***"Bu gün sənə əmr etdiyim bu sözlər ürəyində kök salsın":*** Bu əmrlər bütün verdiyimiz qərarlara təsir etməlidir!

İsraillilər Allahın əmrlərinin ürəklərində kök salması üçün nə etməli idilər? [13]

# 2-ci çağırış

Allahın Kəlamı ürəyimizdə necə kök sala bilər? [14]



Uşaqlarımıza Allahın Kəlamını necə öyrədə bilərik? [15]

***Allahın Kəlamını yazıb qoluna bir nişan kimi bağla:*** Biz bütün işlərimizi əllərimizlə edirik. Beləliklə, əllərimizlə etdiyimiz bütün işlərdə Allahın Kəlamı rəhbər tutulmalıdır.

# 3-cü çağırış:

Əllərimizlə edə biləcəyimiz yaxşı işlərə dair bəzi nümunələr verin. [16]

Allaha belə sual verə bilərsiniz: "Mən bu vəziyyətdə Sənə necə xidmət edə bilərəm?"

Əllərimizlə edə biləcəyimiz pis işlərə dair bəzi nümunələr verin. [17]

Özünüzdən soruşa bilərsiniz: “Bu vəziyyətdə İsa nə edərdi?”

***Onları gözlərinin arasına alın bağı kimi bağla:*** Bu o deməkdir ki, Allahın Kəlamı bizə yol göstərməlidir. Allahın Kəlamını öyrəndikcə biz İsanın hansı yerlərə gedib-getməyəcəyimizi istədiyini öyrənə bilərik.

## 4-cü çağırış

Gedə biləcəyimiz yaxşı yerlərdən bəzi nümunələr verin. [18]

Getməli olmadığımuz pis yerlərdən bəzi nümunələr verin. [19]

***Onları evinizin qapı çərçivələrinə yaz:*** Bu o deməkdir ki, evimizdə yaşayan və ya evimizə gələn hər kəsin Allahı sevdiyimizi bilməsi üçün əlimizdən gələni etməliyik.

## 5-ci çağırış



Evinizdə yaşayan və ya evinizə gələn hər kəsin Allahı sevdiyinizi bilməsi üçün nə edə bilərsiniz? [20]

Hər kəsə Allahın Kəlamını xatırlatmaq üçün Müqəddəs Kitabdan ayələr yazıb evinizin divarından asa bilərsiniz. Ayələri güzgünün yanında və ya qapının üstünə asın ki, onları tez-tez görəsiniz.

Divarlarınızdan asa biləcəyiniz bəzi ayələrdən nümunələr verə bilərsinizmi? [21]

Allahın Kəlamının həyatınızda və evinizdə birinci yerdə olması üçün nə edə bilərsiniz?

***Onları evlərinin darvazalarına yaz:*** Qanunun Təkrarı yazıldığı dövrdə şəhər darvazaları şəhər sakinlərinin mühüm məsələləri müzakirə etdiyi bir yer idi. Bugünkü gündə onu şəhər şurası adlandırmaq olar (**Rut 4:1-4-ə bax**).

Beləliklə, bu əmr Allahın əmrlərinin Onun xalqının həyatının hər bir sahəsinə təsir etməsinə gətirib çıxarırdı.

Bu gün Allahın xalqı bir millət deyil. Onlar dünyanın hər yerinə səpələniblər. Onlar öz cəmiyyətlərinin rifahı üçün çalışırlar. Onlar yoxsullara, yetimlərə, qaçqınlara kömək edirlər, həbsxanada olanlara baş çəkirlər, qadınlara fahişəlik köləliyindən azad olmağa kömək edirlər, əlillərə xidmət edirlər, asılılıqlardan azad olmağa kömək edirlər, parklarda zibil toplayır və buna bənzər işlər görürlər.

Allahın xalqı sevən insanlardır: onlardan fərqli olan, hətta onlara pislik edən qonşularına da məhəbbət göstərirlər. Onlara yaxşılıq edirlər və ehtiyac duyduqları zaman onlara kömək etməyi təklif edirlər (Romalılara 12:14-21).

## 6-cı çağırış

Yaşadığınız yerdə Allahın məhəbbətini əməldə hansı yollarla göstərə bilərsiniz?

### Bu gün Allah haqqında nə öyrəndik?

### Bu dərs nəticəsində həyatınızda hansı dəyişiklikləri etmək istərdiniz?

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 7:1-11**-i oxuyun və 9-cu dərsdəki ilk iki cədvəli doldurun (5 və 6-cı suallar). Sonra qrupunuzla növbəti dəfə görüşəndə cavablarınızı müzakirə edə bilərsiniz.

# Cavablar

1 – Rəbb yeganə Allahdlr.
2 – Yeganə canlı və həqiqi Allah *Yahvedır*. Kiməsə və ya başqa bir şeyə səcdə etmək vəfasızlıqdır.
3 – Allah uzaqda deyil, əksinə, bizə yaxındır. Allah hələ də kainatın hökmdarı olaraq bizdə yaşayır!
4 – Biz insanları Ata, Oğul və Müqəddəs Ruhun adı ilə vəftiz edirik.
5 – İsa Məsihin adı ilə.
6 – Biz İsanın adı ilə dua edirik, çünki biz Ata Allahın qarşısına yalnız İsanın qanı ilə təmizlənərək gələ bilərik.
7 – Allah İsrailliləri vəd olunmuş torpağa aparmaq üçün onları Misirin köləliyindən azad etdi.
8 – Allah səxavətli Allahdır və vəd olunmuş torpaqda onların hər bir ehtiyacını bol-bol təmin edəcək.
9 – Onu bütün qəlbinlə, varlığınla və bütün gücünlə sev.
10 – Onlar yalnız Ona qulluq etməli, Onun adı ilə and içməli və başqa allahların ardınca getməməli, Onun qanunlarına riayət etməlidirlər.
11 – Onlar Allahın onlara lazım olanı verəcəyinə inanmadılar və qəzəbləndilər.
12 – Ehtiyac vaxtı Allahın təmin edəcəyinə etibar etməyib şikayət etdikdə.
13 – Onlar övladlarına Allahın əmrlərini öyrətməli və gün boyu onlar haqqında danışmalı idilər. Onların qollarında, alınlarında, qapılarında və darvazalarında Allahın əmrləri yazılmalı idi.
14 – Biz Allahın Kəlamını oxumalı, öyrənməli, üzərində düşünməli və ona riayət etməliyik ki, o, gün ərzində verdiyimiz qərarlarımıza təsir etsin.
15 – Uşaqlarımıza Müqəddəs Kitabı, Müqəddəs Kitab ilahilərini oxumalıyıq. Yolda gedərkən Müqəddəs Kitabdan hekayələr danışmalıyıq. Uşaqlarımıza Allahın dualarımıza necə cavab verdiyini deməliyik ki, onlar İsanın həyatımızda nə qədər dəyişikliklər etdiyini görsünlər!
16 – Hədiyyələr vermək; çətin anlar yaşayanlara ruhlandırıcı mesajlar yazmaq; evdə, cəmiyyətdə və ətraf dairəmizdə xidmət etmək və onlara kömək etmək.
17 – Oğurlamaq, vurmaq, kömək etməmək (tənbəllik etmək), telefonumuzda pis şeylərə baxmaq, yerə zibil atmaq.
18 – İmanlılar cəmiyyətinə getmək, xəstə olan və ya qohumunu itirmiş birinə baş çəkmək, yaxud İsa haqqında danışmaq üçün kiməsə baş çəkmək.
19 – Kinoda, televiziyada və ya telefonda zorakılıq barədə və ya parnoqrafik filmlərə baxmamaq, imanlılar cəmiyyətinə getmək əvəzinə işə getməmək, dostlarınızın pis işlər görəcəyini bilərkən onların evinə getməmək.
20 – Ən əsası odur ki, insanlar sizin vasitənizlə Allahın məhəbbətinin parladığını görə bilsinlər. Yeməkdən əvvəl dua edin. Allah haqqında və Onun dualarınıza necə cavab verdiyi barədə danışın. İnsanlar evinizdən çıxanda onlara xeyir-dua verin. Həmçinin evinizdə Allahın Kəlamından ayələri asmaq insanlara Allahın Kəlamının sizin üçün əhəmiyyətli olduğunu bildirəcək.
21 – Nümunələr:
  - İbranilərə 13:6
  - 2 Korinflilərə 12:9
  - Zəbur 23
  - Süleymanın Məsəlləri 3:5-6
  - Zəbur 40:1-3.

Qanunun Təkrarı 9-cu dərs:

# Torpağı fəth etmək



Bu dərsdə biz beş sual metodundan istifadə edərək Allahımızın necə gözəl olduğu və Onun bizim üçün nələr etdiyi barədə danışacağıq!

**Qanunun Təkrarı 7:1-11**-i oxuyun.

## Kənan xalqının məhv olması

Kənan torpağında yaşayan xalq pis xalq idi. Onlar allahlarına qurban olaraq hətta oğul və qızlarını da odda yandırırdılar. Allah bu xalqları günahlarına görə məhv etmək istəyirdi.

Allah Öz xalqına Kənan torpağını vermək istəyirdi ki, onlar bütün dünyaya nümunə olsunlar. Onlar hamıya necə yaşamağı göstərməli idilər. O zaman insanlar Allahın nə qədər böyük və müdrik olduğunu görərək Onu necə razı salmağı öyrənəcəkdilər.

Bu insanların məhv edilməsi dünya tarixində nadir hadisə idi. Bu gün hansısa ölkəni işğal edib bundan nümunə götürməməliyik!

Kənan torpağında yaşayan pis insanların məhv edilməsi öz Yaradanına üsyan edənlər üçün **xəbərdarlıqdır**. Dünyanın sonunda Allah bütün insanları mühakimə edəcək və bütün pisliyi məhv edəcək.

Allah İsraillilәri vəd olunmuş torpağa aparmaqla İbrahimə və onun nəslinə verdiyi vədi heyrətamiz şəkildə yerinə yetirdi. Bu bizə Allahın bütün xalqı üçün hazırladığı **əbədi vəd olunmuş torpağı xatırladır**. Tezliklə İsa geri qayıdacaq və xalqını yeni Yerusəlimə aparacaq! Bu ölkə kamil, ölümsüz, kədərsiz, fəryadsız və ağrısız olacaq (Vəhy 21:4)!

Bu torpaqda yaşayan insanlar niyə məhv edilməli idilər? [1]

Kənan torpağında yaşayan pis insanların məhvi bizi nə barədə xəbərdar edir? [2]

Vəd olunmuş torpaq bu gün bizə nəyi xatırladır? [3]

**Yəhya 3:16-17**-ni oxuyun. Biz ora gedib orada necə əbədi yaşaya bilərik? [4]

# Ayənin təhlil edilməsi

Hər hansı bir Müqəddəs Kitab ayəsini öyrənmək üçün istifadə edə biləcəyimiz beş sual:

1. Bu ayə bizə Allah (Ata, Oğul və Müqəddəs Ruh) haqqında nə deyir?

2. Bu ayə bizə insanlar haqqında nəyi öyrədir?

3. Bu ayədə
   - itaət etməli əmr,
   - qulaq asmalı xəbərdarlıq,
   - ya da izləməli bir nümunə varmı?

4. Allah bu hissədə sizə nəyi öyrətdi?

5. Bunu kiminlə bölüşə bilərsiniz?

Qanunun Təkrarı 7:1-11-ci ayələri daha yaxşı başa düşmək üçün bu sualların hər birinə növbə ilə cavab verək.

# 1. Bu ayə bizə Allah (Ata, Oğul və Müqəddəs Ruh) haqqında nə deyir? [5]

Bu cədvəli doldurun, sonra 5-ci suala verilən (dərsin sonunda) cavablarla cədvəlinizi müqayisə edin.

Əlavə sütunda eyni şeyi söyləyən Əhdi-Cədiddən bildiyiniz hər hansı bir ayəni yaza bilərsiniz.

Əgər bunu artıq ev tapşırığı kimi etmisinizsə, yazdıqlarınızı qrupunuzla bölüşün.

| 7:1-11-ci ayələr | Allah haqqında öyrəndiklərimiz | Əhdi-Cədiddən sitat |
|---|---|---|
| | | |
| | | |

| | | |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

## 2. Bu ayə bizə insanlar haqqında nəyi öyrədir? [6]

Bu cədvəli doldurun, sonra 6-cı suala verilən (bu dərsin sonunda) cavablarla cədvəlinizi müqayisə edin.

| 7:1-11-ci ayələr | İnsanlar haqqında öyrəndiklərimiz | Əhdi-Cədiddən sitat |
|---|---|---|
| | | |
| | | |
| | | |

Əhdi-Ətiq Allahın xalqını Əhdi-Cədiddən tanıdığımız Məsih üçün hazırladı. Əhdi-Ətiq bizə öyrətdiyi kimi, Əhdi-Cədid də bizə Allah və insanlar haqqında eyni şeyi öyrədir. Yalnız Müqəddəs Ruhun gücü ilə insanlar Allahın istəyinə uyğun olan müqəddəs insanlara çevrilə bilərlər!

3-cü suala cavab verməzdən əvvəl kontekst haqqında düşünməliyik.

## Konteksti yadda saxlayın.



Əhdi-Ətiqi tədqiq edərkən bilməliyik ki, biz **çarmıxdan sonra**, yəni İsanın ölümü və dirilməsindən sonrakı vaxtda yaşayırıq. Bu o deməkdir ki:

- İsa Allahın bütün əmrlərini kamil şəkildə yerinə yetirdi və günahlarımız üçün kamil qurban oldu. İndi O bizə yeni əmrlərlə yeni əhd verdi.
- Bu gün fiziki vəd olunmuş torpaq və uğrunda döyüşəcəyimiz torpaq yoxdur. İmanlılar bir coğrafi məkanda yaşamırlar, lakin onlara dünyanın hər bir ölkəsində rast gəlmək olar. Biz İsanın qayıdıb hamımızı Onunla birlikdə əbədi vəd olunmuş torpağa aparacağı günü səbirsizliklə gözləyirik!

Beləliklə, biz Allahın Əhdi-Ətiqdəki əmrlərini oxuyanda Əhdi-Cədidin bu əmrlər haqqında nə dediyi barədə düşünməliyik.

# 3. Allahın xalqının itaət etməli olduğu əmrlər, qulaq asmalı olduğu xəbərdarlıqlar və ya əməl etməli olduğu nümunələr varmı? [7]

Bu cədvəli doldurun, sonra öz cədvəlinizi 7-ci suala verilən (bu dərsin sonunda) cavablarla müqayisə edin.

| 7:1-11-ci ayələr | Əmr/xəbərdarlıq/ nümunə | Bu gün buna əməl etməliyikmi? | Niyə? Əhdi-Cədid bu barədə nə deyir? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

İki vacib məqam:

1. İmanlı imansızla evləndiyi zaman, adətən, imanlının həyatı hər cəhətdən çətinləşir. Çox vaxt onlara imanlılar cəmiyyətinə getməyə və ya uşaqlarına İsanın ardınca getməyi öyrətməyə icazə verilmir. Adətən, fərqli dəyərlərə görə ər-arvad bir-biri ilə mübahisələr edirlər. Beləliklə, imanlının qəlbi Allaha qarşı soyuya bilər.

2. Bizi başqa allahlara səcdə etməyə sövq edən hər şeydən, məsələn, bəd nəzərdən, gözmuncuğulardan, ulduz fallarından və başqa dinlərə mənsub hər hansı bir kitabdan özümüzü qorumalıyıq. Təbii ki, əgər evinizin başçısı siz deyilsinizsə, bu şeylərdən qurtulmaq mümkün olmaya bilər. Dua edin ki, evinizdəkilər bütün bunların Allahı necə kədərləndirdiyini başa düşsünlər!

Bu gün də 10-cu dərsdə hansı Əhdi-Ətiq qanunlarına tabe olmağımız barədə danışacağıq.

# 4. Allah bu hissədə sizə nəyi öyrətdi?

# 5. Bunu kiminlə bölüşə bilərsiniz?

## Ev tapşırığı

Bu həftənin hər günü Qanunun Təkrarını oxuyun və beş suala cavab verin:

1. 7:12-26
2. 8:1-20
3. 9:1-6
4. 9:7-29
5. 10:1-11
6. 10:12-22
7. 11:1-32

# Cavablar

1 – Pis adamlar olduqları üçün onlar məhv edilməli idilər.
2 – Dünyanın axırında bütün insanlar mühakimə olunacaq və pislər cəzalandırılacaqlar.
3 – Vəd olunmuş torpaq bizə Allahın bütün xalqı üçün hazırladığı əbədi vəd olunmuş torpağı — yeni Yerusəlimi xatırladır.
4 – İsanın bizi xilas edə biləcəyinə və bizə əbədi həyat verə biləcəyinə inanmaqla.
5 –

| Ayələr | Allah haqqında öyrəndiklərimiz | Allahın bu xüsusiyyətinə aid Əhdi-Cədiddən ayə |
|---|---|---|
| **1a ayəsi** | Allah Öz xalqına yeni bir ev, Kənan torpağını verəcəkdi. | "*...biz Allahın vədinə əsasən salehliyin sakin olacağı yeni göyləri və yeni yeri gözləyirik*" (2 Peter 3:13). |
| **1b-2, 10-cu ayələr** | Allah Ona qarşı çıxanları məhv edəcək. | "*O, Rəbbimiz İsa Allahı tanımayanlardan və Özü barədə Müjdəyə itaət etməyənlərdən qisas alacaq. Onlara Rəbbin hüzurundan və qüdrətinin izzətindən məhrum qalıb əbədi olaraq məhv edilmə cəzası veriləcək... gəldiyi gün baş verəcək*" (2 Salnamələr 1:9-10). |
| **6-cı ayə** | Allah müəyyən insanları Özü üçün seçir. | "*...siz seçilmiş xalqsınız...*" (1 Peter 2:9). |
| **7-8-ci ayələr** | Allah Öz xalqını o qədər sevirdi ki, onları xilas etmək qərarına gəlmişdi. Bu məhəbbətə heç kim layiq deyil! | "*Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun*" (Yəhya 3:16). |
| **8-ci ayə** | Allah vədlərini nə qədər əvvəl versə də, onlara əməl edir! O, Yaradılış Kitabında İbrahimə, İshaqa və Yaquba verdiyi vədə əməl etdi. | "*Biz indi sizə bu Müjdəni bəyan edirik: ata-babalarımıza verilən bu vəd həyata keçib. Allah İsanı diriltməklə bu vədi onların övladları olan bizlər üçün yerinə yetirib*" (Həvarilərin İşləri 13:32-33). |
| **9-10-cu ayələr** | Allah Onu sevənlərlə bağladığı məhəbbət əhdinə sadiqdir, lakin Ona nifrət edənlərdən qisas alacaq. | "*Məsihin məhəbbətindən bizi kim ayıra bilər?*" (Romalılara 8:35).<br><br>"*...indiki yer və göylər isə həmin kəlamla oda təslim olmaq üçün təyin olunub, allahsızların mühakimə və həlak olacağı günədək saxlanılır*" (2 Peter 3:7). |

6 –

| Ayələr | İnsanlar haqqında öyrəndiklərimiz | Əhdi-Cədid buna istinad edir |
|---|---|---|
| **6-cı ayə** | Allahın xalqı Rəbb üçün müqəddəsdir (pak olaraq seçilir). | “*...siz seçilmiş nəsil, Padşahın kahin dəstəsi,* ***müqəddəs millətsiniz****...*” (1 Peter 2:9). |
| **7-8-ci ayələr** | Allahın xalqı Onun mərhəmətinə qətiyyən layiq deyil. Allahın xalqı Allahın onlara göstərdiyi məhəbbət və mərhəmətə layiq heç nə etməmişdir. | “*...mərhəməti bol olan Allah bizi böyük məhəbbətlə sevdiyi üçün təqsirlərimiz üzündən ölü olduğumuz halda bizə Məsihlə birlikdə həyat verdi...*” (Efeslilərə 2:4-5). |
| **8-ci ayə** | Onlar köləlikdən satın alınmışdılar. | “*Məsih bizim uğrumuzda lənətlənərək bizi qanunun lənətindən satın aldı...*” (Qalatiyalılara 3:13). |

7 –

| Ayələr | Əmr/xəbərdarlıq/ misal | Bu gün bunu etməliyikmi? | Niyə? Əhdi-Cədid bu barədə nə deyir? |
|---|---|---|---|
| **2-ci ayə** | Allah onlara Kənan torpağındakı bütün insanları, yəni orada yaşayan və başqa allahlara səcdə edənləri öldürməyi əmr edir. | Xeyr | *Düşmənlərinizi sevin...* (Matta 5:43-44)<br><br>Bizim əsl düşmənimiz iblisdir (1 Peter 5:8). Təbii ki, bu, iblisi sevmək demək deyil! |
| **3-cü ayə** | Allah Öz xalqına əmr edir ki, Onun xalqı olmayanlarla evlənməsinlər (yəni başqa allahlara səcdə edənlərlə evlənməsinlər). | Bəli | “*İmansızlarla eyni boyunduruğa girməyin*” (2 Korinflilərə 6:14).<br><br>“*...kimə istəsə ərə gedə bilər, lakin o kişi, Rəbdə olmalıdır*” (1 Korinflilərə 7:39). |
| **5-ci ayə** | İsraillilər qurbangahlarını dağıtmalı, daş sütunlarını sındırmalı, Aşera bütlərini parçalayıb ovma bütlərini odda yandırmalıdırlar. | Bəli | “*Cadugərliklə məşğul olan bir dəstə insan da öz kitablarını yığıb hamının qarşısında yandırdı. Kitabların qiyməti hesablananda məlum oldu ki, əlli min gümüş pula bərabər idi*” (Həvarilərin İşləri 19:19). |

| | | | |
|---|---|---|---|
| **11-ci ayə** | Allahın Musaya verdiyi əmrləri, qaydaları və hökmləri diqqətlə yerinə yetirin. | Bəli — Allahın xalqı Əhdi-Cədiddə təsdiqlənmiş Allahın bütün əmrlərinə riayət etməlidir. Bunlar Allahı sevmək və qonşunu sevmək əmrləri ilə tamamlanır. | "*Sanmayın ki, Mən Qanun və Peyğəmbərlərin sözlərini ləğv etmək üçün gəldim. Mən onları ləğv etmək üçün yox, yerinə yetirmək üçün gəldim*" (Matta 5:17).<br><br>"*Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev*". *Bu, böyük və əsas əmrdir. Buna bənzəyən ikincisi budur:* "*Qonşunu özün kimi sev*". *Bütün Qanun və Peyğəmbərlərin sözləri bu iki əmrə əsaslanır* (Matta 22:37-40). |

# Qanunun Təkrarı 10-cu dərs:

# Allahın qanunları



Bu dərsdə biz Allahın qanunlarının nə qədər gözəl olduğunu daha yaxşı başa düşəcəyik!

12–26-cı fəsillərdə biz Allahın Musaya verdiyi qanunları və göstərişləri barədə oxuyuruq.

Əgər bu fəsilləri hələ oxumamısınızsa, bu həftə ərzində onları oxumağa çalışın.

**Qanunun Təkrarı 26:16-19**-u oxuyun.

Allah Öz xalqına qanunları ilə nə etməyi əmr etdi (16-cı ayə)? [1]

Allah yarımçıq itaətlə kifayətlənmir. O istəyir ki, xalqı Ona tam itaət etməyin sevincini tanısın.

Bütün qanunlar ona görə verilir ki, insanlar Allahı və bir-birlərini sevsinlər.

Düşünə bilərik ki, qanunlara riayət etmək çətindir və onlara əməl etsək, həyatımız xoş olmayacaq. Əslində isə, itaətkarlıq sevinc və izzət gətirir!

Allahın qanunları haqqında nə öyrənirik:

> **Zəbur 19:8**? [2]
>
> **Zəbur 119:97-99**? [3]

## Qanunun Təkrarı Kitabında olan qanunlar

Qanunun Təkrarı Kitabındakı qanunlar Allahın xalqının vəd olunmuş torpaqdakı həyatının müxtəlif aspektlərini əhatə edir. Bunlara daxildir:

- Allaha harada ibadət etməli;
- təmiz və natəmiz qidalar;
- onda bir hissə;

- bayramların qeyd edilməsi;
- padşah nə etməlidir;
- ədalət nədir;
- Allahı razı salacaq şəkildə necə döyüşməli;
- evlilik və cinsi paklıq.

# Allahın qanunları



## Allaha harada ibadət etməli

İsraillilər yalnız Allahın onlara göstərəcəyi yerdə ibadət etməli idilər (Qanunun Təkrarı 12:1-14). Bu, Kənanlıların müxtəlif yerlərdə çoxlu allahlara səcdə etmə tərzindən çox fərqli idi. Allah bir olduğu üçün Ona yalnız bir yerdə ibadət edilirdi.

İsraillilər səhrada yaşayarkən Allaha çadırda ibadət edirdilər. Onlar bir yerdən başqa yerə səyahət edərkən çadırı özləri ilə aparırdılar (Çıxış 25–27-ci fəsillər).

Onlar vəd olunmuş torpaqda məskunlaşdıqdan sonra Süleyman gözəl bir məbəd tikdi. Bu, Allahın Öz xalqı ilə görüşəcəyi yer idi (1 Padşahlar 6–8-ci fəsillər).

Allaha ibadət etmək Allahın xalqı üçün ən vacib şeydir!

İsraillilərin Allaha harada ibadət etmələri barədə qanun nə deyirdi? [4]

## Qida



İsraillilərə müəyyən ət növlərindən çəkinmək əmri verildi (Qanunun Təkrarı 14:1-21). Bu onların müqəddəs olduqlarına, yəni Allah üçün ayrıldıqlarına işarə olmalı idi. Onlar Allahı tanımayanlar kimi yaşamamalı və onlar kimi ibadət etməməli idilər.

Ət insanların çoxunun nadir hallarda yediyi xüsusi yemək idi. Buna görə də onun istifadəsi, adətən, Allaha ibadətlə bağlı xüsusi bir hadisə idi.

Qadağan edilən ətlərə başqa heyvanların ətini yeyən heyvanlar da daxil idi.

Bu qanunlara riayət etmək onları Allaha itaət etməyənlərlə yaxın münasibətdən çəkindirərdi. Onlar İsrailli olmayanların evlərində ət yeyə bilməzdilər.

Qanun qida haqqında nə deyirdi? [5]

## Onda bir hissə



İsraillilərə məhsullarının onda bir hissəsini ayırmaq əmri verilmişdi (Qanunun Təkrarı 14:22-29). Onda birlər aşağıdakı məqsədlə istifadə edilməli idi:
- məbəddə və ya çadırda qeyd etmə zamanı;
- çadırda və ya məbəddə işləyən Levililərə ianə vermə zamanı;
- yoxsulların qayğısına qalmaq məqsədilə.

Bütün Müqəddəs Kitabda Allah Öz xalqına yoxsulların qayğısına qalmağı tapşırır. Bu fəsillərdə (12–26-cı fəsillər) altı dəfə yoxsullara xeyirxah olmağın zəruriliyi haqqında əmr verilir.

Qanunda onda bir haqqında nə deyilirdi? [6]

## Bayramlar

İsraillilər hər il üç bayram keçirməli idilər:



- **Pasxa bayramı** — Misirdəki köləlikdən azad olmalarını xatırlayırdılar.
- **Həftələr bayramı**, yeddi həftə sonra — buğda biçini zamanı. Yunan dilində buna *Pentikost* deyilir.
- **Çadırlar bayramı** — payız meyvələrinin yığımı zamanı, səhrada gəzdikləri vaxtları xatırladıqları zaman.

Bu zaman onlar Allahın onlar üçün etdiyi işləri xatırlayırdılar. Allah təkcə Onu xatırlamalarını deyil, həm də işlərindən həzz alıb dincəlmələrini istəyirdi (Qanunun Təkrarı 16:1-17).

Qanun bayramlar haqqında nə deyirdi? [7]

## Padşah



Padşah Allaha ibadət edən İsrailli olmalı idi. O, çox zəngin olmamalı və çoxlu arvadı olmamalı idi. Bunun əvəzinə, o, Allahın qanunlarını öyrənməli və onlara riayət etməli idi. Bununla o, Allahın xalqını düzgün şəkildə idarə edə biləcəkdi (Qanunun Təkrarı 17:14-20).

Əhdi-Ətiqi oxuduqca biz görürük, İsrail padşahları bu qanuna riayət etmirdilər. Onlar getdikcə Allahın xalqını Allahdan uzaqlaşdırırdılar. Hətta Süleyman bütün müdrikliyi ilə bu qanuna tabe olmadı (1 Padlar 11:1-8).

Qanun padşah haqqında nə deyirdi? [8]

## Ədalət



İsraillilərə tapşırılmışdı ki, insanları cinayətlərinə görə ədalətlə mühakimə etsinlər. Əmin olmalı idilər ki, heç kəs törətmədiyi cinayətə görə cəzalandırılmayıb. Cəzalar münasib olmalı və həddən artıq olmamalı idi (Qanunun Təkrarı 19:1-21).

Qanun ədalət haqqında nə deyirdi? [9]

## Müharibə

Qədim dünyada müharibə gündəlik həyatın bir hissəsi idi. Padşahlar həmişə öz imperiyalarını genişləndirmək istəyirdilər. Başqa millətlərə hücum etmədikləri hallarda öz ərazilərini müdafiə edirdilər.



İsraillilər Allahı izzətləndirəcək şəkildə döyüşməli idilər. Müharibə dəhşətli bir şeydir. Lakin Allah müharibənin ən pis tərəflərini yüngülləşdirmək üçün qanunlar verdi (Qanunun Təkrarı 20:1-10).

İsraillilərə əmr edilmişdi ki, döyüşə hazır olmayan əsgərlərə və hücum etdikləri şəhərlərdə yaşayanlara mərhəmət göstərsinlər.

Yalnız vəd olunmuş torpaqda yaşayan Kənanlılar tamamilə məhv edilməli idilər, çünki onlar yüz illər boyu pislik edirdilər. Allah bu torpağı Öz xalqı üçün ayırmışdı. Allah istəyirdi ki, İsraillilər bütün digər xalqlara Yaradan Allahı razı salacaq şəkildə yaşamağı göstərsinlər.

Qanun müharibə haqqında nə deyirdi? [10]

### Evlilik qaydaları



Evlilik ömürlük bir öhdəlikdir və qadınların hüquqları qorunmalıdır. Bu qanunlar həm kişilər, həm də qadınlar üçün nikahdan kənar bütün cinsi əlaqəni qadağan edir. Buraya qohumluq əlaqəsi və zorlama daxildir (Qanunun Təkrarı 22:13-30). Bu günahlar təkcə günah edəni deyil, həm də onun ailəsini məhv edir. Cinsi əxlaqsızlıq günahları heç vaxt Allahın gözündən gizli qalmır.

Biz 7-ci dərsdən öyrəndik ki, İsrailli olmayanlarla (yəni imansızlarla) evlənmək qadağandır. Bu ona görə idi ki, belə bir nikahdan olan övladların Rəbbin ardınca getmə ehtimalı az idi (Qanunun Təkrarı 7:3-4).

Qanun evlilik haqqında nə deyirdi? [11]

Heç bir xalqın belə qanunları yox idi. Bunlar Allahın Öz xalqının xeyri üçün verdiyi yaxşı qanunlar idi.

## Allahın xalqı Allahın qanunlarına riayət etmədikdə

Bu qanunlar onların xeyri üçün nəzərdə tutulsa da, Allahın xalqı onlara heç vaxt sədaqətlə riayət etmədi. Buna görə də Allah Öz xalqına çadırda, daha sonra isə məbəddə heyvan qurbanları kəsməyi əmr etdi. Bu onlara xatırlatmalı idi ki,

- günah həmişə dəhşətlidir — günah edən adam ölümə layiqdir;
- onların bağışlanması üçün onların yerində bir şey ölməlidir.

Bu qurbanlar Allahın xalqını onların günahı problemini birdəfəlik həll edəcək birini göndərəcəyi günə hazırladı. Bu Şəxs:

- Allahın bütün qanunlarına kamil şəkildə riayət edəcəkdi;
- bütün zamanlar üçün kamil bir qurban olacaqdı;
- yeni “məbəd”, yeni Şəxs olmalı idi ki, Allahın xalqı günahlarının bağışlanması üçün Onun yanına gələ bilsin.
- Öz Müqəddəs Ruhu ilə gəlib Allahın xalqının daxilində yaşayacaqdı ki, onlar Allaha həqiqətdə səcdə edə bilsinlər!

**1 Yəhya 4:9-10**-u oxuyun. Allahın bir gün göndərəcəyi kamil insan kim olacaqdı? [12]

Bu kamil insan nə edəcəkdi? [13]

# Köhnə və yeni əhd

Qanunun Təkrarı Kitabı Allahın Sina dağında Öz xalqı ilə bağladığı əhdi izah edir (Qanunun Təkrarı 5:2):

- Allah Öz xalqını köləlikdən **xilas etdi**.
- Əgər onlar **Allaha etibar edərdilərsə və Ona itaət edərdilərsə**, Allah onlara bərəkət və vəd olunmuş torpaqda zəngin həyat verərdi.
- İtaətsizliyə görə Allahın lənətindən xilas olmağın yolu müəyyən **qurbanlar** təqdim etmək idi.
- Əgər **itaətsizlikdə davam edərlərsə**, Allah onları lənətləyər və vəd olunmuş torpaqdan çıxarar.

Bu əhd sonralar **Əhdi-Ətiq** adlandırıldı. Buna görə də bunu Müqəddəs Kitabın birinci hissəsi adlandırırıq.

Müqəddəs Kitabın ikinci hissəsi **Əhdi-Cədid** adlanır — artıq Allah yeni bir əhd bağlayır:

- Allahın Oğlu İsa Məsih Öz xalqını günahın köləliyindən **xilas etdi** (Romalılara 6:20-22).
- Əgər biz **Allahın Oğluna etibar etsək və Ona itaət etsək**, Allah bizi Öz övladları kimi qəbul etməklə və bizə əbədi həyat verməklə bizə xeyir-dua verəcək (Yəhya 1:12; 3:16).
- İsanın birdəfəlik və həmişəlik **qurbanı** tövbə etdiyimiz zaman bizə bağışlanma verir (1Yəhya 1:9).
- Əgər **Allaha itaətsizlikdə davam edəriksə**, bu xeyir-duaları itirə bilərik (İbranilərə 10:26-31).



Həm Əhdi-Ətiqdə, həm də Əhdi-Cədiddə Allahın xalqı Allaha itaət etmək üçün **iman etməli idi**. İbranilərə 11-ci fəsildə bu mühüm mövzu müzakirə olunur.

**Luka 22:20**-ni oxuyun. İsa Öz qanı ilə nə etdi? [14]

**İbranilərə 9:15**-i oxuyun. Yeni əhd nədir? [15]

# Bu gün hansı əhdi-ətiq qanunlarına riayət etməliyik?

Bu gün biz yeni əhd altında yaşayırıq.

## Biz nələri etməli deyilik?

**1. Məbəd və qurbanlar haqqında qanunlara riayət etmək məcburiyyətində deyilik:**

- İsa hər kəsin günahları üçün kamil bir qurban təqdim etdi (1Yəhya 2:2) və O, yeni məbəddir! (Yəhya 2:19, 21).

- Artıq qurbanlar verməli deyilik, ona görə də fiziki məbədə ehtiyacımız yoxdur. Yəhudi məbədi eramızın 70-ci ilində romalılar tərəfindən dağıdıldı. İsa ölüb dirildikdən sonra məbədə ehtiyac olmadığı üçün Allah buna icazə verdi.
- İmanlılar cəmiyyəti (yəni İsanın ardınca gedənlərin icması) indi İsanın bədəni və Allahın məbədidir. İnsanlar indi Allahla burada görüşə bilərlər (1 Korinflilərə 3:16).

**2. Müəyyən qidaları yeməkdən çəkinməyə ehtiyac yoxdur:**

- İsanın ölümündən və dirilməsindən sonra İsa Peterə dedi ki, o, hər cür ət yeyə bilər (Həvarilərin İşləri 11:1-18). Allahın xalqının Allah üçün müqəddəs olduğunu göstərməkdən ötrü başqa xalqlardan ayrılmağa ehtiyac yoxdur. Əksinə, onların müqəddəsliyi indi məhəbbət, sevinc, sülh, səbir, yaxşılıq, xeyirxahlıq, sədaqət, həlimlik və nəfsə hakim olmaları ilə görünəcək (Qalatiyalılara 5:22-23).
- Bu gün hansı Əhdi-Ətiq qanunlarına riayət etməyimiz lazım deyil? [16]

## Biz nələri ETMƏLİYİK?

**Yeremya 31:31-33**-ü oxuyun. Allah yeni əhdin qanunlarının nə ilə fərqli olacağını söylədi? [17]

Biz İsanın ardınca getməyə başlayanda O bizi Öz Müqəddəs Ruhu ilə doldurur. Və **O bizə həyatımızda nəyi dəyişməli olduğumuzu göstərir**. Allahın Kəlamını oxuduqca Onun dediklərini dinləyin!

- İsa hansı qanunların ən vacib olduğunu dedi (**Mark 12:30-31**)? [18]

  Bunu demək çox asandır, lakin yerinə yetirmək çox çətindir!

Bütün Əhdi-Ətiq qanunları Allahı necə sevmək və qonşumuzu sevmək haqqındadır.

- On Əmrə (Qanunun Təkrarı 5:6-21) bu gün də riayət etməyimiz vacibdir. Onlar bizə Allahı və qonşumuzu sevməyi öyrədir.
- Əhdi-Cədid cinsi paklığın vacibliyini təsdiqləyir. Bu da qonşumuzu sevməyin və On Əmrə riayət etməyin bir hissəsidir (**İbranilərə 13:4**-ü oxuyun). Heç vaxt düşünməyin ki, cinsi əxlaqsızlıq əhəmiyyət kəsb etmir (1 Korinflilərə 6:15-16). İblis bir çox yaxşı xidmətçiləri bu sahədə azdırıb. Bu, imanlılar cəmiyyəti, onların ailəsi və Allah üçün hər zaman dözülməzdir (İbranilərə 10:29).

Bu gün hansı qanunlara riayət etməliyik? [19]

## Bəs nə üçün Əhdi-Ətiqin qanunlarını oxumalıyıq?

Aşağıda sadalananları daha yaxşı başa düşmək üçün Əhdi-Ətiqdəki qanunları oxumalıyıq:

- Allahın xarakterini;
- nəyin doğru, nəyin yanlış olduğunu;
- hamımızın nə qədər günahkar olduğunu;
- günahımız yalnız başqasının ölümü ilə satın alına bilər;
- Xilaskarımıza nə qədər ehtiyacımız olduğunu!



Bütün Əhdi-Ətiqi oxuduqca İsanın kim olduğunu və Onun nə etdiyini daha yaxşı başa düşürük.

Əhdi-Ətiqi və onun qanunlarını oxumağa ehtiyac olmadığını iddia edən birinə nə deyərdiniz?

**İsaya həyatınızı dəyişdirməyə icazə verirsiniz, yoxsa özünüzü kifayət qədər yaxşı hesab edirsiniz?**

**İsaya necə daha çox bənzəyə bilərsiniz?**

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 27–28-ci fəsilləri** oxuyun.

# Cavablar

1 – Allah Öz xalqına Onun qanunlarına bütün qəlbləri və bütün varlıqları ilə diqqətlə riayət etməyi əmr etdi.
2 – Allahın qanunları ürəyi sevindirir.
3 – Allahın qanunları bizi müdrik edir.
4 – Kənanlıların ibadətindən fərqli olaraq, İsraillilər Allaha yalnız çadırda və daha sonra məbəddə ibadət edə bilərdilər.
5 – İsraillilərə bəzi ət növlərini yeməyə icazə verilmirdi. Bu onların müqəddəs, Allah üçün ayrılmış olduqlarının əlaməti olmalı idi.
6 – İsraillilər çadırda və ya məbəddə bayram etmək, orada işləyən Levililərə və yoxsullara vermək üçün məhsullarının onda birini ayırmalı idilər.
7 – İsraillilər hər il Pasxa bayramını, Həftələr bayramını və Çadırlar bayramını qeyd etməli idilər. Bu yolla onlar Allahın onlar üçün etdiyi şeyləri xatırlayacaqdılar.
8 – Padşah Allaha ibadət edən İsrailli olmalı idi. O, çox zəngin olmamalı və çoxlu arvadı olmamalı idi. Bunun əvəzinə o, Allahın qanunlarını öyrənməli və onlara riayət etməli idi ki, Allahın xalqını düzgün şəkildə idarə etməyi bacarsın.
9 – İnsanlar cinayətlərə görə ədalətlə mühakimə olunmalı idilər. Heç kim etmədiyi cinayətə görə cəzalandırılmamalı idi.
10 – Döyüşməyə hazır olmayan əsgərlərə və hücum etdikləri düşmən şəhərlərində yaşayanlara mərhəmət göstərilməli idi. Yalnız vəd olunmuş torpaqda yaşayan insanlar tamamilə məhv edilməli idilər.
11 – Evlilik ömürlük bir öhdəlikdir və qadınların hüquqları qorunmalıdır. Qanunlar nikahdan kənar bütün cinsi əlaqəni, o cümlədən qohum əlaqələrini və zorlamanı qadağan edir. Allahın xalqı yalnız iman edənlərlə evlənməlidir.
12 – Allahın Oğlu, İsa Məsih.
13 – O, Allahın qanunlarına kamil şəkildə riayət edəcəkdi, tək kamil qurban, yeni "məbəd" olacaqdı və Öz Müqəddəs Ruhu ilə Allahın xalqının daxilində yaşayacaqdı.
14 – İsa Öz qanı ilə Allahla insanlar arasında yeni əhd bağladı.
15 – İsa bizi təqsirlərimizdən satın almaq üçün öldü ki, biz əbədi həyata malik ola bilək!
16 – Məbəd, qurbanlar və yediyimiz şeylər haqqında qanunlara riayət etməli deyilik.
17 – Allah bu qanunları ağlımıza və ürəklərimizə yazacaq.
18 – Allahı bütün qəlbinlə, varlığınla, düşüncənlə və gücünlə sev. Qonşunu özün kimi sev.
19 – Allahı və qonşunu sev. Buraya On Əmrə tabe olmaq və cinsi paklığa riayət etmək də daxildir.

Qanunun Təkrarı 11-ci dərs:

# Xeyir-dualar və lənətlər



Bu dərsdə biz Əhdi-Ətiqin xeyir-duaları, lənətləri və onların bu gün bizə necə aid olduğu haqqında danışacağıq.

## İki dağ




**Qanunun Təkrarı 11:29**-u oxuyun.

İsraillilər vəd olunmuş torpağa daxil olanda Allah onlara iki dağla bağlı göstəriş verdi. Ölkənin mərkəzindəki iki dağ Allahın Öz xalqı ilə bağladığı əhdi əbədi xatırlatmalı idi. Allah Ona itaət edənlərə xeyir-dua verəcəyini, itaət etməyənləri isə lənətləyəcəyini xatırlatmaq istəyirdi.

Onlar hansı dağda Allahın xeyir-duasını bəyan etməli idilər? [1]

Onlar hansı dağda Allahın lənətlərini bəyan etməli idilər? [2]

**Qanunun Təkrarı 27:1-8**-i oxuyun.

Musa İsraillilərə dedi ki, Eval dağında daşdan iki şey düzəltsinlər (orada lənət oxuyacaqdılar).

Onlar nəyi dikəltməli idilər **(2-4-cü ayələr)**? [3]

Onlar nə düzəltməli idilər **(5-ci ayə)**? [4]

Allah İsraillilərə Öz yazılı qanununu Eval dağında qoymağı əmr etdi; bunun yanında Allah onlara qurbangah düzəltməyi əmr etdi. O bilirdi ki, xalqı qanunları kamil şəkildə yerinə yetirə bilməyəcək. Qurbanlar onların günahlarının satın alınması üçün idi. Beləliklə, qurbangah ona görə orada idi ki, onlara qurbanlar vasitəsilə bağışlanmanı xatırlatsın.

Bu qurbangahda hansı iki növ qurban kəsməli idilər **(6-7-ci ayələr)**? [5]

## Yandırma qurbanı

Yandırma qurbanı təkcə günahın kəffarəsi deyil, həm də insanın bütün həyatını Allaha təqdim etməsini simvolizə edirdi. Digər qurbanlardan fərqli olaraq, onların heç birini kahinlər yeyə bilməzdi.

**Efeslilərə 5:2**-ni oxuyun. Kim Özünü bizim üçün qurban olaraq fəda etdi ki, biz bağışlana bilək? [6]

**Romalılara 12:1**-i oxuyun. İsanın bizim üçün etdiklərini nəzərə alaraq biz nə etməliyik? [7]

Bu nə deməkdir? [8]

Yandırma qurbanı bizə nəyi xatırladır? [9]

Bütün həyatımızı Allaha həsr etdiyimiz zaman O bizi sevinc ilə doldurur!

## Ünsiyyət qurbanı

Adətən, yalnız kahinlərə qurban kəsilən heyvanların ətini yeməyə icazə verilirdi. Lakin ünsiyyət qurbanı adi insanların da yeyə biləcəyi bir qurban idi. Bu, ailə və qonşularla paylaşılmalı idi.

Bu qurban günahların bağışlanmasından sonra Allahla münasibətlərin bərpasının simvolu idi. Bu, başqaları ilə bölüşmək mümkün olan bir sevinc idi!

İndi biz Əhdi-Cədid dövründə ünsiyyət qurbanı təqdim etmək əvəzinə nə edirik (Luka 22:19)? [10]

İsa kamil, birdəfəlik qurban idi, ona görə də biz artıq bağışlanmışıq və yenidən Allahla ünsiyyətdə ola bilərik!

Hal-hazırda bir çox cəmiyyətlər Rəbbin Süfrəsini düzgün şəkildə qəbul etmirlər. Onlar İsanın çarmıxda ölümünü xatırlamaq üçün onu yalnız simvolik olaraq qəbul edirlər. Ünsiyyət qurbanı bizə Allahın xalqının birlikdə yeməyinin nə qədər vacib olduğunu göstərir. Beləliklə, cəmiyyətinizdə Rəbbin Süfrəsi yalnız simvolik olaraq qəbul edilsə belə, imanlılar cəmiyyəti olaraq daima birlikdə yemək yeməyiniz vacibdir.

Ünsiyyət qurbanı bizə nəyi xatırladır? [11]

# Xeyir-dualar və lənətlər

Qanunun Təkrarı 27–28-ci fəsillərdə:

- Allahın qanunlarına riayət edənlər üçün çoxlu xeyir-dualar,
- Allahın qanunlarına riayət etməyənlər üçün çoxlu lənətlər barədə yazılıb.

**Qanunun Təkrarı 28:1-24**-ü oxuyun.

Əhdi-Ətiqdə Allah Öz xalqına onların layiq olmadıqları şəkildə xeyir-dua verdi. Bununla belə, onlar daim Ona itaətsizlik edirdilər. Beləliklə, Allah dəfələrlə xalqına lənətlər göndərirdi.

Hakimlər Kitabında Allahın xalqı davamlı olaraq aşağıdakı dövrlərdən keçirdi:

- Allahın qanunlarına riayət etmirdilər və pis həyat sürürdülər.
- Allah onları uzun illər boyunca onlara zülm edən düşmənlərin əlinə verirdi.
- Kömək üçün Allaha yalvarırdılar.
- Allah onları xilas etmək üçün bir xilaskar (hakim) göndərirdi.
- Yenidən Allahın qanunlarına riayət etməyərək pis həyat sürürdülər.

Bu, təxminən 300 il davamlı olaraq baş verdi.

Uzun illər sonra, Axav İsrail padşahı olanda insanları Baala səcdə etməyə çağırdı. Beləliklə, Allah üç il quraqlıq göndərdi (1 Padşahlar 17:1).

Nəhayət, Allahın xalqı Ona qarşı bütünlüklə xəyanət etdiyi üçün cəzalandırıldı. Allah ağlasığmaz bir şey etdi: ölkəni fəth etmək, məbədi dağıtmaq və insanları sürgünə aparmaq üçün Babil ordusunu hərəkətə gətirdi. Bu, Məsih doğulmazdan 586 il əvvəl baş vermişdi (2 Salnamələr 36:15-21).

## *Əlavə:* Mərsiyələr Kitabı

Mərsiyələr Yerusəlim dağıdılandan sonra Allahın xalqının kədərini ifadə edən şeirlər toplusudur.

*Yerusəlim şəhəri necə də boş qalıb,*
*Bir zaman insanlarla dolu idi,*
*İndi dul qadına bənzəyir —*
*Millətlər arasında ulu sayılan,*
*Ellər arasında mələkə olan*
*Bu şəhər nökərçilik edir.* (Mərsiyələr 1:1)



Hətta belə faciə vaxtı müəllif bəyan edirdi:

*Rəbbin məhəbbətinə görə məhv olmadıq,*
*Çünki mərhəməti tükənməzdir.*
*Hər səhər bunlar təzələnir; Sənin sədaqətin böyükdür.*
*Öz-özümə deyirəm: "Rəbb mənim nəsibimdir";*
*ona görə Rəbbə ümid bəsləyirəm.* (Mərsiyələr 3:22-24)

Müəllif bilirdi ki, bu, Allahın xalqının sonu deyil və əsrlər boyu bir çox imanlılar bu ayələrlə təsəlli tapıblar. Çətinliklərlə üzləşdiyimiz zaman bu ayələr bizə ümid verir.

Bu gün Allahın Kəlamını oxuyarkən bu xeyir-duaların və lənətlərin daha böyük bir şeyi təmsil etdiyini görməliyik. Onlar vasitəsilə biz İsanın dünyanı mühakimə etmək üçün qayıdanda gətirəcəyi əbədi xeyir-duaları və lənətləri dada bilirik.

**Matta 25:34**-ü oxuyun. İsa ona sadiq qalanlara nə deyəcək? [12]

Bunlar necə də gözəl sözlərdir!

**Matta 25:41**-i oxuyun. İsa Onun ardınca getməyənlərə nə deyəcək? [13]

Bunlar necə də dəhşətli sözlərdir.

Əhdi-Ətiqin xeyir-duaları və lənətləri nəyi təmsil edir? [14]

Lakin bizim xeyir-dualarımız yalnız gələcəyə aid deyil.

**Efeslilərə 1:3-8**-i oxuyun. Hazırda Allahın verdiyi hansı xeyir-dualardan zövq alırıq? [15]

Bu xeyir-dualar bütün fiziki xeyir-dualardan qat-qat üstündür!

## Allahın bizə bəxş etdiyi başqa xeyir-dualar

Bu anda sizin üçün ən vacib olan ayələrə nəzər salın:

- Allah bizə Müqəddəs Ruhunu verir (1 Korinflilərə 3:16).
- Onu məyus etdiyimiz üçün peşman olduğumuzu etiraf etdikdə Allah bizi bağışlayır (1 Yəhya 1:9).
- O, çətinliklərimizdə bizə təsəlli verir (2 Korinflilərə 1:3-4).
- O, qəlbisınıqlara yaxındır (Zəbur 34:18).
- O bizə müdriklik verir (Yaqub 1:5).
- O, dualarımıza cavab verir (Yəhya 14:13).
- O bizə imanlılardan ibarət bir ailə verir (Qalatiyalılara 6:10).
- O bizi çox sevir (Efeslilərə 5:1).
- O bizə həqiqətən kim olduğumuza dair yeni bir anlayış verir: biz yaşayan Allahın övladlarıyıq! Bu kim olmağımızdan asılı olmayaraq bizə izzət və hörmət bəxş edir, çünki Məsih İsada biz hamımız birik (Qalatiyalılara 3:28).

Bunlar bizim indi zövq ala biləcəyimiz xeyir-dualardan bəziləridir.

Hazırda zövq ala biləcəyimiz Allahın başqa hansı xeyir-dualarını sadalaya bilərsiniz?

### Bəs bu gün lənətlər haqqında nə deyə bilərik?

İsa "*bizim uğrumuzda lənətlənərək bizi Qanunun lənətindən satın aldı*" (Qalatiyalılara 3:13). Biz indi Allahın lənəti altında deyil, Onun xeyir-duası altındayıq.

Əgər biz İsanın ardınca gediriksə, O bizi insanların hər cür lənətindən qoruyur! Həvari Paul Efeslilərə məktubunda deyir ki, Allahın "*iman edən bizlərə sərf etdiyi qüdrətinin hədsiz böyüklüyünün nə olduğunu görəsiniz. Allah bu qüdrətlə Məsihdə elə fəaliyyət göstərdi ki, Onu ölülər arasından dirildib səmada Öz sağında oturtdu və hər başçı, hakim, qüvvə və ağadan, yalnız bu dövrdə deyil, gələcək dövrdə də çəkiləcək hər addan Onu çox yüksəltdi*" (Efeslilərə 1:19-21).

Əgər bir kəs sizi lənətləyirsə, İsanın qüdrətli adı ilə dua edə bilərsiniz ki, O sizi qorusun.

Beləliklə, bu gün heç bir lənətdən qorxmaq lazım deyil!

# Sağlamlıq və var-dövlət



Bəzən adamlar deyirlər ki, Allah yer üzündə bizə sağlamlıq və var-dövlət vəd edir. Amma bu, doğru deyil.

Əhdi-Ətiqdə Allah Öz xalqına itaət etdikləri təqdirdə zənginlik və firavanlıq vəd etdi. Biz padşah Süleymanın dövründə bunun yerinə yetirildiyini görürük: "*hər kəs öz üzüm meynəsinin və əncir ağacının altında dinclik içində yaşayırdı*" (1 Padşahlar 4:25).

Lakin o zənginlik və firavanlıq yalnız maddi idi və uzun sürmədi.

Allahın planı o idi ki, bütün dünya dəyişilmiş ürək və Allahla yeni münasibətlərdən qaynaqlanan **əbədi xeyir-duanı alsın (Yezekiel 36:26, Efeslilərə 2:18)**. Əbədi xeyir-dua heç vaxt maddi var-dövlətdən əldə edilə bilməz.

Nə İsa, nə də həvarilər varlı deyildilər. Biz bilirik ki, Paul fiziki xəstəlikdən əziyyət çəkirdi və onu aradan qaldırması üçün Allaha yalvarırdı (2 Korinflilərə 12:1-10). Təbii ki, İsanın Özü də çox əziyyət çəkdi və sonra ən qəddar şəkildə edam edildi. **Romalılara 8:18-**də Paul nə deyir? [16]

Yeni Yerusəlimdə Allahla yaşamağın necə gözəl olacağı ağlımıza da gəlmir!

Bilməliyik ki, yeni Yerusəlimdə yaşamağa başlamayana qədər Əhdi-Ətiqin xeyir-duaları bu gün bizə aid deyil. Allah dualarımıza cavab verməyi sevir, lakin bu həyatda əziyyətlərimiz olur. Biz bilirik ki, Allah bizi İsaya daha çox bənzətmək üçün çətinliklərdən keçirdir (İbranilərə 12:7-11). Amma bilmirik ki, Allah həyatımızda çətinliklərə niyə yol verir (Yeşaya 55:9). Əgər biz bolluq içində, sağlam yaşayırıqsa və heç bir problemimiz yoxdursa, bu o demək deyil ki, başqalarına nisbətən Allah bizdən daha razıdır. Bu gün çətinliklərdən, xəstəliklərdən və qıtlıqlardan əziyyət çəkdiyimiz zaman Allahın bizi lənətlədiyini düşünməməliyik. Biz düşünməməliyik ki, kimsə problemlə üzləşəndə Allah onu cəzalandırır. Bizim işimiz bir-birimizi sevmək, ruhlandırmaq və bir-birimizə dəstək olmaqdır!

İndi həyat çətin ola bilər. Lakin Allah bizə söz verir ki, bizi heç vaxt tərk etməyəcək (İbranilərə 13:5). Onun Müqəddəs Ruhu bizə sona qədər İsanın ardınca getməyə lazım olan gücü və sevinci verəcək! O zaman biz həqiqi sağlamlığı və zənginliyi dərk edəcəyik (Vəhy 21:3-4; 22:1-5).

Bu gün "xeyir-dualı" insan nələri bilir? [17]

Necə düşünürsünüz, biz Allahın xeyir-dualarından daha çox həzz ala bilərik? [18]

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 29–30-cu fəsilləri** oxuyun.

# Cavablar

1 – Gerizim dağı.
2 – Eval dağı.
3 – Üzərində Allahın qanunu yazılmış daşlar.
4 – Qurbangah.
5 – Yandırma və ünsiyyət qurbanları.
6 – İsa Məsih.
7 – Biz bədənimizi Allaha diri qurban kimi təqdim etməliyik.
8 – Bu o deməkdir ki, biz bütün həyatımızı Allahı razı salaraq və başqalarına Onun haqqında danışaraq yaşamalıyıq.
9 – Yandırma qurbanı bizə xatırladır ki, günahımız üçün kəffarə qurbanı lazımdır. İsa Özünü bizim üçün qurban verdiyi kimi, biz də bütün həyatımızı Allaha həsr etməliyik.
10 – İsanın günahlarımızdan ötrü öldüyünü xatırlamaq üçün Rəbbin Süfrəsini (çörəyi və şərabı bölüşürük) birlikdə qeyd edirik.
11 – Ünsiyyət qurbanı bizə xatırladır ki, tövbə etdikdən sonra yenidən Allahla ünsiyyətimizdən həzz ala bilərik. Bu, yalnız ona görə mümkündür ki, İsa Öz qanı ilə bizi günahlarımızdan təmizlədi. Bu o qədər gözəldir ki, biz bunu başqaları ilə qeyd etməliyik!
12 – *Ey sizlər, Atamın xeyir-dua verdiyi adamlar! Gəlin, dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Padşahlığı irs alın.*
13 – *Ey lənətə gəlmişlər, çəkilin önümdən! İblis və onun mələklərinə hazırlanmış əbədi oda yollanın!*
14 – Onlar İsanın dünyanı mühakimə etmək üçün qayıdanda gətirəcəyi əbədi xeyir-duaları və lənətləri təmsil edir.
15 – O, dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və nöqsansız olaq. Onun övladları olaq, satın alınaq və bağışlanaq!
16 – *Belə düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç bir müqayisəyə gəlməz.*
17 – Xeyir-dualı adam bunları bilir:
- Allah onları dünya yaradılmazdan əvvəl seçdi,
- onlar Allahın övladıdırlar,
- onlar satın alınıb və bağışlanıblar,
- həyatda nə olursa olsun, Allah həmişə onlarla olacaq,
- və Allah onları sağ-salamat izzətli, əbədi vəd olunmuş torpağa aparacaq!

18 – Allahın xeyir-dualarından o vaxt daha çox həzz ala bilərik, nə vaxt ki,
- Onun Kəlamını oxuyub, üzərində düşünüb ona əməl etsək,
- bacardığımız qədər çox dua etsək,
- digər imanlılarla görüşmək üçün toplantılara getsək,
- başqalarına İsa haqqında danışsaq.

## Qanunun Təkrarı 12-ci dərs:

# Əhdin yenilənməsi



Bu dərsdə biz hər bir nəsil üçün Allaha itaətkarlığın öhdəliyini yeniləməyin nə qədər vacib olduğuna nəzər salacağıq.

Qanunun Təkrarı 29—30-cu fəsillərdə Musanın və Allahın xalqının gələcək nəslinin Allahla bağladığı əhdi necə yenilədikləri təsvir edilir. Sina dağında əhd bağlayan ilk nəsil öldü. Beləliklə, indi onların uşaqları və nəvələri Allahla əhdi yeniləməli idilər.

Qanunun Təkrarı Kitabının bütün qalan hissəsi kimi, 29—30-cu fəsillər də bir çox cəhətdən padşahların fəth etdikləri ölkələrlə bağladıqları qədim müqavilələrin nümunəsini izləyir. Bu müqavilələr həmişə eyni şəkildə yazılmırdı, lakin onlar, adətən, beş əsas hissədən ibarət idi (həmçinin 1-ci dərsə baxın):

1. Tarixi giriş.
2. Müqavilənin ümumi tələbləri.
3. Əhdi pozmağa qarşı xəbərdarlıqlar.
4. Xeyir-dualar və lənətlər.
5. Şahidlər.

**29—30-cu fəsilləri** oxuyun və onu oxuyarkən müqavilənin bu beş hissəsinə diqqət yetirin.

İndi biz əhdin beş hissəsini nəzərdən keçirəcəyik.

## 1. Tarixi giriş (29:2-8)

Allah İsraillilərə keçmişlərini xatırladır. Musa onlarla elə danışdı ki, sanki onlar özləri də Sina dağında olmuşdular, halbuki orada olanlar onların valideynləri idilər (3-cü ayə).

## 1-ci çağırış

Tarix çox önəmlidir. Keçmişdə Allahın bizim üçün etdiklərini oxuyanda Allahın lütfü ilə xilas olduğumuzu xatırlayırıq. Əgər Allahın bizim üçün etdiklərini unutsaq, qürurlana və fariseylər kimi başqa insanları mühakimə etməyə başlaya bilərik. Buna görə də biz Allahın Kəlamını davamlı olaraq oxumalıyıq ki, Onun nə etdiyini və Allahın lütfü ilə xilas edilmiş günahkarlar olduğumuzu xatırlayaq!

## 2-ci çağırış

Allahın Kəlamını oxuyarkən yaxşı olardı ki, oxuduğumuz hadisələrdə özümüzün də iştirak etdiyimizi təsəvvür edək. Musa İsraillilərə danışarkən belə deyirdi: "*Öz gözünüzlə gördünüz...*" (Qanunun Təkrarı 29:3). Bu, sözlərin təsirini hiss etməyə kömək edir.

# 2. Əhdin ümumi tələbləri (29:9-15)

Qanunun Təkrarı Kitabı bizə Allahın qanunlarının təfərrüatlarını verir. Beləliklə, bu o deməkdir ki, hamı, o cümlədən qadınlar, uşaqlar və yadellilər (11-ci ayə) əhdin şərtlərinə riayət etməlidirlər. Biz düşünməməliyik ki, Allahın Kəlamı yalnız kişilər və böyüklər və ya bizim kimi insanlar üçün nəzərdə tutulub.

- Valideynlərin üzərinə çox mühüm vəzifə düşür — onlar övladlarına ilk günlərindən Allahın Kəlamına riayət etməyi öyrətməlidirlər. Onlar övladlarını Allahın Kəlamının günah adlandırdığı şeydən çəkindirməlidirlər.
- Oğullarımızı və qızlarımızı **hər iki** valideynə hörmət və itaət etməyi öyrətməliyik.
- Oğullarımıza və qızlarımıza başqa insanları sevməyi və onlara qayğı göstərməyi öyrətməliyik.
- Başqa tayfalardan, millətlərdən olanları diqqətdən kənarda qoymamalıyıq. Onlar da Rəbb barədə eşitməlidirlər!

## 3-cü çağırış

Uşaqlar və əcnəbilərin, ümumiyyətlə bütün insanların Allahı sevməsi və Onu razı salmağı öyrənə bilməsi üçün ailənizdə və imanlılar cəmiyyətinizdə nələri edirsiniz?

# 3. Əhdin pozulması ilə bağlı xəbərdarlıqlar (29:16-29)

Allah digər xalqların səcdə etdikləri şeyləri necə təsvir edir (17-ci ayə)? [1]

Allah başqa allahlara səcdə edənlərin təlimini necə təsvir edir (18-ci ayə)? [2]

Başqa allahlara səcdə edən Allahın xalqı ilə nə baş verəcək (20-28-ci ayələr)? [3]

Xalqı günah edəndə Allah qəzəblənir. Biz düşünməməliyik ki, O buna laqeyd yanaşır! O, yaratdığı dünyanı sevir. Münasibətlərimizi və dünyamızı korladığımız zaman Ona ağrı gətiririk.

"*Bu andın sözlərini eşidən zaman kimsə öz-özünə gözaydınlığı verib belə bir fikrə düşməsin: 'Onsuz da salamat qalacağam, qoy kefim istəyən kimi yaşayım'. Bu fikir həm münbit torpağa, həm də quru torpağa bəla gətirər*" (19-cu ayə). İblis istəyir ki, Allahdan başqasına ibadət etməyin düzgün olduğunu düşünək. O istəyir ki, biz "gizli" günahın yaxşı olduğunu düşünək. Günahın yaxşı olmamasının iki səbəbi var:

1. Günah **həmişə** qəlbimizə, münasibətlərimizə zərər verir, ən pisi isə, Allaha ağrı gətirir.

2. Günah yoluxucudur — o, başqa insanlara da ötürülür. Həvari Paulun dediyi kimi: "*Məgər bilmirsiniz ki, azacıq maya bütün xəmiri acıdır?*" (1 Korinflilərə 5:6).

Unutmayın ki, günahımız imanlılar cəmiyyətimizə, icmalarımıza və ölkələrimizə böyük ziyan vura bilər. Həyatımızdakı günaha nifrət etməliyik. İsanın dediyi kimi: "*Əgər sağ əlin səni pis yola çəkərsə, onu kəs at. Çünki sənin üçün bədən üzvlərindən birinin məhv olması bütün cəhənnəmə düşməsindən yaxşıdır*" (Matta 5:30).

Əgər bir şeyin günah olub-olmadığına əmin deyiliksə, özümüzə iki sual verməliyik:

- Müqəddəs Kitab bu barədə nə deyir?

- İsa bunu edərdimi?

Kənan tanrısı Baal rifah tanrısı idi. Baala, demək olar ki, hər kəs səcdə edirdi. Eynilə bu gün əksər insanlar üçün ən vacib şey çoxlu pul qazanmaqdır. Pulun onlara xoşbəxtlik, təhlükəsizlik və sülh gətirəcəyinə inanırlar.

İsraillilər həm Allaha, həm də Baala səcdə edə biləcəklərini düşündüyü kimi, bu gün də bir çox imanlılar da həm Allaha, həm də pula səcdə edə biləcəklərini düşünürlər.

Matta 6:24-də İsa bu barədə nə deyib? [4]

## 4-cü çağırış



Pula aid test: həyatınızda ən vacib şey nədir?

- Daha çox işləyib pul qazandığınız üçün toplantıları buraxırsınızmı?

- Yeni model telefon və ya başqa yeni şeylər almaq istədiyiniz üçün cəmiyyətə bacardığınızdan daha az pul verirsinizmi?

- Ehtiyacı olanlara qarşı səxavətlisinizmi?

- Siz Allahdan pulunuzu necə istifadə etməyi soruşursunuzmu?

Bu suallara cavablarınız sizin həm Allaha, həm də pula xidmət etməyinizi müəyyən edəcək. İsa bunun mümkün olmadığını deyir. Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz.

## **Əhdini pozanlar üçün ümid** (30:1-15)

Xeyir-dualar və lənətlər haqqında oxumazdan əvvəl Musanın əhdi pozanlara ümid vermək üçün etdiyi qeyri-adi əlavəni qeyd edək.

Allah bilirdi ki, bütün xəbərdarlıqlara baxmayaraq, xalqı Onu məyus edəcək. Lakin 4-cü dərsdə gördüyümüz kimi, Allah inanılmaz dərəcədə mərhəmətli Allahdır: O, günahı mühakimə edəcək, eyni zamanda həqiqətən tövbə edənləri də bərpa edəcək (30:1-10).

“Ürəklərinizi sünnət edin” nə deməkdir? [5]

Musa Allahın xalqının Allahı həqiqətən sevəcəyi vaxtı səbirsizliklə gözləyir! Həvari Paul kimsə tövbə edib İsaya iman edəndə baş verənləri təsvir etmək üçün “ürəyin sünnəti” ifadəsindən istifadə edir (Kolosselilərə 2:11).

Biz günaha xərçəng kimi baxmalıyıq: yayılmamış və öldürməmiş dərhal onu kəsib atmalıyıq! Əlbəttə, bu çox ağrılı ola bilər, amma bunu etməliyik!

Bizə lazım olanı verməyə qadir olan yeganə şəxs kimdir (Qanunun Təkrarı 30:9)? [6]

***Onda Allahınız Rəbb əlinizdə olan hər işinizi uğurlu edəcək, sizə çoxlu övlad… verəcək.*** Kənanlılar düşünürdülər ki, onların allahı Baal onlara sağlam övladlar və bol məhsul verir. Allah istəyir ki, xalqı bilsin ki, bu şeyləri Baal deyil, O verə bilər.

İnsanlar günahlarından həqiqətən tövbə etdikdə Rəbb nə edir (9-cu ayə)? [7]

***Rəbb sizə yaxşılıq etməkdən razı qalacaq…*** Bunlar dünyanın ən gözəl sözləridir! Bunları həqiqətən tövbə edənlərə deyir. Bu, İsanın söylədiyi məsəldə itmiş qoyununu tapan çobanın sevincinə bənzəyir (Luka 15:6-7).

Hər günün hər dəqiqəsində hansı seçimi etməliyik (Qanunun Təkrarı 30:19-20)? [8]

***Həyatı seçin… Çünki sizin həyatınız Odur…*** Musa Allahın xalqına yalvardı ki, həyatla ölüm, xeyir-dua ilə lənət arasında seçim etsinlər (15-ci ayə). Eyni şəkildə, Yəhyanın Müjdəsində biz *yol, həqiqət və həyat* olanın ardınca getməyə çağırılmışıq (Yəhya 14:6). Yalnız İsaya iman etməklə biz əbədi həyata malik ola bilərik (Yəhya 17:3).

# **4. Xeyir-dualar və lənətlər** (30:16-18)

İtaət edənlər üçün hansı xeyir-dualar və itaətsizlik edənlər üçün hansı lənətlər təkrarən qeyd edilir (16-18-ci ayələr)? [9]

Xeyir-dua və lənət mövzusunu təkrarlamaq üçün yenidən 11-ci dərsi nəzərdən keçirin.

# **5. Şahidlər üçün yekun çağırış** (30:19)

Qədim dünyada qələbə çalan padşah və məğlub olan xalq müqavilələrini bağlayanda öz allahlarını şahid tuturdular. Aydındır ki, bu əhddə onlar büt allahlarını şahid tuta bilməzdilər. Beləliklə, Allah Öz yaratdıqlarını şahid kimi istifadə edirdi.

Nikah mərasimi bir kişinin bir qadınla evləndiyini hamıya bildirmək üçün ictimai tədbirdir. Onlardan biri öz əhdini pozarsa, buna şahidlər olmalıdır. Eynilə Allahla Onun xalqı arasında olan bu əhd açıq şəkildə bağlanmışdı. Əgər Allahın xalqı xəyanət edərsə, Allahın yaratdıqları bu xalqa qarşı fəryad edəcək. Qanunun Təkrarı 28-ci fəsildəki lənətlər bu barədə xəbərdar edir (Qanunun Təkrarı 28:16-19).

Əhdi-Cədiddə həvari Paul bizə deyir ki, yaradılış özü də çürüməyə əsir olmaqdan xilas olacağı günü gözləyir (Romalılara 8:21). Gözəl, qüsursuz bir yaradılış yaxınlaşır! Lakin biz hələ də çətinliklərlə dolu bir dünyada yaşayırıq (Yaradılış 3:17-18). Bizim işimiz Allahın indi bizə bəxş etdiyi qiymətli yaradılışın qayğısına qalmaqdır (Yaradılış 2:15)!

## Əhdin yenilənməsi

Biz Allahın xalqının gələcək nəslinin Ona itaət etmək öhdəliyini yenilədiyini gördük. Eynilə biz də bu gün imanlıların övladlarına İsanın ardınca getməyə öz öhdəliklərini açıq şəkildə təsdiq etmək üçün imkanlar verməliyik. Bunu öz imanlılar cəmiyyətinizdə necə edə bilərsiniz?

### Qanunun Təkrarının bu iki fəsli vasitəsilə Allah sizə nələri dedi?

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 31—32-ci fəsilləri** oxuyun.

## Cavablar

1 – Onlar iyrəncdirlər.
2 – Acı zəhərli kök.
3 – Onlar Allahın qəzəbinə uğrayacaqlar.
4 – *Heç kim iki ağaya qulluq edə bilməz. Çünki ya birinə nifrət edib o birisini sevəcək, ya da birinə bağlı qalıb o birisinə xor baxacaq. Siz həm Allaha, həm də sərvətə qulluq edə bilməzsiniz.*
5 – Bu, Allaha qəlbimizdəki bütün günahlı vərdişləri kəsməsinə icazə vermək deməkdir.
6 – Təkcə Rəbb Allah bizə ehtiyacımız olanı verməyə qadirdir.
7 – Rəbb bundan razı qalır!
8 – Biz ölüm yolunu yox, həyat yolunu seçməliyik.
9 – Xeyir-dualar odur ki, onlar vəd olunmuş torpaqda yaşayıb artacaq və Allahın xeyir-duasını alacaqlar. Lənət odur ki, onlar məhv olacaq və vəd olunmuş torpaqda uzun ömür sürməyəcəklər.

## Qanunun Təkrarı 13-cü dərs:

# Gözümüzü gələcəyə dikərək



31–32-ci fəsillərdə Musa əvvəllər söylədiyi bir çox şeyləri təkrarlayır. Lakin o onları yeni tərzdə deyirdi ki, köhnə həqiqətlər onun dinləyicilərinin qəlbinə yeni şəkildə təsir etsin. Bu fəsillər bizə xatırladır ki, Allah bizim sadiq, xeyirxah və kamil padşahımızdır; biz Ona çox asanlıqla xəyanət edirik və buna baxmayaraq O, yenə də pozulmuş münasibətimizi bərpa etməyə davam edir. Beləliklə, minnətdarlıq əlaməti olaraq biz Allaha məhəbbətimizi göstərməyə və Onun sözünə riayət etməyə cəhd göstərməliyik.

## Allah bizimlədir

**Qanunun Təkrarı 31:1-8**-i oxuyun.

Bu fəsildə Musanın Allahın xalqını özünün daha onlarla olmayacağı vaxta hazırlamaqda davam etdiyini görürük.

Musa İordan çayından keçərək xalqı vəd olunmuş torpağa aparmayacaqdı. Musa xalqa nə dedi (Qanunun Təkrarı 31:3)? [1]

O, xalqa xatırlatdı ki, Yeşua onların yeni rəhbəri olsa da, onların padşahı və məğlubedilməz döyüşçüsü Allahın Özüdür.

Musa Yeşuaya nə dedi (8-ci ayə)? [2]

Bu gözəl əminlik Yeşuaya (Yeşua 1:5) və sonra Əhdi-Cədiddə bizə xatırladılır (Matta 28:20; İbranilərə 13:5). Rəhbərlərimiz və müəllimlərimiz bizi tərk edə bilərlər, amma Allah heç vaxt tərk etməyəcək!

### 1-ci çağırış

Musanın Allah haqqında "*O səni atmaz və səni tərk etməz*" dediyi bu qiymətli sözləri ən çox nə vaxt özünüzə xatırladırsınız: (Qanunun Təkrarı 31:8)?

Əgər işinizdə, ailənizdə və ya yaşadığınız yerdə böyük bir dəyişikliklə üzləşirsinizsə, bu sözləri mütləq xatırlayın. Əgər biz Rəbbi sevməyə və Ona itaət etməyə çalışırıqsa, O bizi heç vaxt atmaz və tərk etməz!

Buna şübhə etdiyiniz vaxtlar olurmu?

# Hər kəs Rəbdən qorxmağı öyrənməlidir

**Qanunun Təkrarı 31:9-13**-ü oxuyun.

Musa insanlara xatırlatdı ki, Allahın xalqı Onun qanunlarını bilməlidir.

Allahın qanununu dinləmək və Onun qanununu öyrənmək kimə lazım idi (12-13-cü ayələr)? [3]

Musa Allahın qanunlarını yazıb xalqın kahinlərinə və ağsaqqallarına verdi. Allahın Kəlamının nüsxələri yalnız onlarda idi. Onların vəzifəsi bunu bütün Allahın xalqına, o cümlədən qadınlara və uşaqlara öyrətmək idi. Bu gün imanlılar Allahın Kəlamını kitab şəklində və ya telefonda oxuya bilirlər. Lakin bəzən onlar öz övladlarına Allahın Kəlamını öyrətmirlər. Uşaqların kiçik yaşlarından Allahın Kəlamını öyrənmələri çox vacibdir.

## 2-ci çağırış

Valideynlər uşaqları üçün Allahın Kəlamını oxumağı gündəlik həyat tərzinə çevirməlidirlər. İmanlılar cəmiyyəti uşaqlara Allahın Kəlamını başa düşə biləcəkləri şəkildə izah etməlidir. Beləcə onlar da Allahın Kəlamını sevəcəklər.

Evinizdə və cəmiyyətinizdə bu baş verirmi? Əgər belə deyilsə, uşaqlara Allahın Kəlamını sevməyi öyrənməyə kömək etmək üçün nə edə bilərsiniz?

# Allah Onu necə tez unutduğumuzu bilir

**Qanunun Təkrarı 31:14-29**-u oxuyun.

Musa bilirdi ki, Allahın xalqı onları xilas edən, onlara qayğı göstərən və bolluq ölkəsinə gətirən Allaha xəyanət edəcək (15-29-cu ayələr).

***Mən onlardan üz döndərəcəyəm ...*** (17-18-ci ayələr): Allah Öz üzünü bizdən gizlədirsə, bu bizim başımıza gələ biləcək ən dəhşətli şeydir. Kahin öz xeyir-duasında Allahdan Onun üzü ilə bağlı nə etməyi xahiş edir (Saylar 6:24-26)? [4]

Əhdi-Cədid bizə vəd verir ki, İsanın ardınca gedənlər bir gün Allahın üzünü görəcəklər (Vəhy 22:4)!

Allahın Öz xalqından əl çəkməməsi necə də heyrətamizdir. Onu nə qədər incitməyimizdən asılı olmayaraq, O bizə həmişə yenidən Ona müraciət etmək imkanı verir. Müjdə, həqiqətən də, xoş xəbərdir!

## 3-cü çağırış

Biz də çox asanlıqla Allaha xəyanət edirik. Hər gün Allahdan günahınızı sizə göstərməsini diləyirsinizmi? Hər gün Allahdan ürəyinizi İsanın qanı ilə təmizləməsini istəyirsinizmi?

Həyatımızda heç vaxt günaha biganə qalmamalıyıq! Bir günah asanlıqla başqa bir günaha səbəb olur. Hər gün tövbə etməliyik ki, günah böyüməsin və bizi Rəbdən uzaqlaşdırmasın.

# Musanın nəğməsi

32-ci fəsildə Musanın xalqa öyrətdiyi nəğməni oxuyuruq. Bu, acı kədər mahnısıdır. Bu, Allahın Öz sevimli xalqından hədsiz məyus olduğunu göstərir. O, gələcək nəsillərin Allaha xəyanət etməmələri üçün xəbərdarlıq olaraq oxumalarını istədiyi bir mahnı idi (Qanunun Təkrarı 31:19).



## 4-cü çağırış

Mahnılar vacib həqiqətləri yadda saxlamağın bir yoludur. Onlar uzun müddət bizim qəlbimizdə və beynimizdə qala bilərlər. Ona görə də cəmiyyətdə biz Allahın Kəlamına uyğun olan, həyatı dəyişdirən həqiqətlərlə bizi dolduran mahnılar oxumalıyıq. İmanlılar cəmiyyətinizdə mahnıları seçənlər sözlərin Müqəddəs Kitabın öyrətdiklərinə uyğun olub-olmadığını nəzərdən keçirirlərmi?

**32-ci fəsli** oxuyun və onun Allah və Onun xalqı haqqında bizə nə öyrətdiyini araşdırın.

Musa istəyirdi ki, İsraillilər Allah və Onun xalqı haqqında çox vacib həqiqətləri yadda saxlasınlar.

- **Allahın kim olduğu haqqında nə öyrənirik (4, 6, 10-14, 16, 18-19, 21-ci ayələr)?** [5]

- **Allahın xalqı haqqında nə öyrənirik (9-10-cu ayələr)?** [6]

  ***İrs*** (9-cu ayə): Allahın xalqı Ona məxsus idi. Və bir gün O onlarla kamil, pozulmamış münasibətdən əbədi həzz alacaq!

  Bu, nişanlı qızın vəziyyətinə bənzəyir. O, gələcək ərinə məxsusdur, lakin bu münasibətin tamlığını yalnız toy mərasimindən sonra yaşaya bilər. Vəhy Kitabında İsanın qayıdışı Onun toyu kimi təsvir olunur (Vəhy 19:7). Eyni şəkildə, Qanunun Təkrarında Allah Öz xalqına olan qısqanc məhəbbətindən danışır.

  ***Onun göz bəbəyi…*** (10-cu ayə): bu, göz bəbəyimizə, bədənimizin nəyin bahasına olursa olsun qoruduğumuz ən həssas hissəsinə aiddir. Allah Öz xalqını hamıdan çox sevir və onları hər cür bəladan qoruyur!

- **Allahın xalqı ən çox nə vaxt Allahdan üz döndərir (15-ci ayə)?** [7]

***Yeşurun*** (15-ci ayə): "düzgün olan" deməkdir və İsrailin başqa bir adıdır (Yeşaya 44:2). Təəssüf ki, İsrail çox vaxt öz adına layiq deyildi.

***Tənəkləri Sodom və Homorra bağlarından gəlir*** (32-ci ayə): Bu iki şəhər o qədər pislik edir ki, Allah onları məhv etdi (Yaradılış 19-cu fəsil). Əgər İsraillilər Allaha və Onun qanunlarına qarşı üsyan etməkdə davam etsələr, eyni şey onlarla da baş verə bilərdi.

- **İnsanların ibadət etdikləri yalançı allahlar haqqında nə öyrənirik (17, 21-ci ayələr)?** [8]

Saxta allahlar heç nə edə bilməzlər. Onlar heç vaxt nə möcüzələr ediblər, nə də kimisə xilas ediblər.

***İnsanlar cinlərə qurban gətirirlər*** (17-ci ayə): Hər kəs nəyəsə və ya kiməsə ibadət edir. İnsanlar dərk etmirlər ki, bəzən ibadət etdiklərinin arxasında şeytanın özü durur. Şeytan bizi Allaha ibadət etməkdən yayındıraraq ona ibadət etməyə sövq etməyi sevir.

- **Allah Öz xalqının xəyanətinə qarşı nə edəcək (Qanunun Təkrarı 32:20-23)?** [9]

***Onları xalq olmayanlarla qısqandıracağam...*** (21-ci ayə): həvari Paul bu ayədən (Romalılara 10:19) Allahın İsraili rədd etdiyini və qeyri-yəhudiləri Öz Padşahlığına qəbul etdiyini izah etmək üçün sitat gətirir. İsrail başqa allahlara ibadət etməklə Allahı qısqandırmışdı. Beləliklə, Allah başqa millətlərə xilas verməklə onları qısqandırdı (**Romalılara 11:11, 14**).

***Üzərinə bəlalar yığacağam...*** (23-cü ayə): Allah dəhşətli bir şəkildə hərəkət etməli idi. Əgər bunu etməsəydi, xalqının imanı sarsılar və itərdi. Allahın İbrahimə verdiyi vəd yox olacaqdı. Allah haqqında, Onun əhdi, Qanunu, torpağı, xalqı və niyyəti haqqında olan həqiqət Onun yeganə Oğlu gələnə qədər sədaqətlə qorunub saxlanmalı idi (Yəhya 3:16).

- **Allahın xalqının nə qədər müdrik olması haqqında nə öyrənirik (28-ci ayə)?** [10]

Çətinliklər vasitəsilə Allahın onlara nə öyrətdiklərini görmürdülər. Bu o qədər mühüm problem idi ki, Əhdi-Ətiq peyğəmbərləri çox vaxt Allahın xalqına qoyun kimi müraciət edirdilər (məsələn, Yeşaya 53:6, Yeremya 50:6); qoyunlar ağıllı deyillər və hər şeyi başqaları etdiyi üçün edirlər. Lakin İsanın Yaxşı Çoban obrazı o deməkdir ki, biz Onun ardınca getsək, O bizi qoruyacaq və qayğımıza qalacaq (Zəbur 23). Və bu bizi möhtəşəm həqiqətə doğru aparacaq:

- **Allahın nə edəcəyi barədə nə öyrənirik (39-43-cü ayələr)?** [11]

Allahın xalqı ən zəif vəziyyətdə olanda (36-cı ayə) Allah onların köməyinə gəlir və Öz xalqının düşmənlərini məhv edir (41-42).

***[Allah] torpağını və xalqını satın alacaq...*** (43-cü ayə): necə də heyrətamizdir ki, Allah Özü onların günahı üçün kəffarə verəcək. Adətən, kahinin vəzifəsi insanların günahlarına görə kəffarə üçün qurbanlar təqdim etmək idi (Lev 6:7), lakin burada Allah bunu edir!

Əhdi-Cədiddən öyrənirik ki, satınalınma yalnız Allahın Oğlunun bütün dünya üçün gətirdiyi kamil qurban vasitəsilə mümkün idi (1 Yəhya 4:10). Günahlarımız yalnız o zaman satın alına bilər ki, biz onları Allaha etiraf edək (1 Yəhya 1:9).

## 5-ci çağırış

Siz hər gün Allahın kim olduğunu, kim olduğunuzu, nə qədər günahkar olduğunuzu və Müjdənin nə qədər gözəl olduğunu başa düşürsünüzmü?

## *Əlavə:* Allah bizim Qayamızdır



Bu mahnıda Allahı təsvir etmək üçün beş dəfə "Qaya" sözündən istifadə edilib (Bunları 4, 15, 18, 30, 31-ci ayələrdə görə bilərsiniz).

Səhrada nəhəng bir qayanı təsəvvür edin. Bu söz bizə Allahı necə xatırladır? [12]

Bu təsviri sözdən anlaya biləcəyimiz başqa fikirlər də var. Bəzən qayalar qida ilə təmin edir:

***Onu qayadan süzülən balla, çaxmaq daşından çəkilən yağla bəslədi…*** (13-cü ayə): vəhşi bal arıları pətəklərini qaya yarıqlarında qururlar. Zeytun ağacları da başqa ağacların böyüyə bilməyəcəyi yerlərdə, o cümlədən qayalıq yerlərdə bitirlər.

Evinizi qaya üzərində qurmaq qum üzərində qurmaqdan daha yaxşıdır. İsa bu barədə bir məsəl söylədi (Matta 7:24-27).

Beləliklə, "Qaya" sözü bizə Allahın etibarlı olduğunu və bizə qayğı göstərdiyini bildirir. Başqa allahlar faydasızdır: onlar bizi nə qoruya, nə bizə kömək edə və nə də ki bizim ehtiyaclarımızı təmin edə bilməzlər. Onlar həyatımızı qurmaq üçün bizə möhkəm təməl vermirlər. Əslində, həyatımızı yalançı allahlar üzərində qursaq, məhvə doğru gedərik (Matta 7:27).

### Bu dərs vasitəsilə Allah sizə nəyi öyrətdi?

### Beş çağırışdan hansının üzərində düşünməyə və dua etməyə daha çox ehtiyacınız var?

## Ev tapşırığı

Növbəti dərsə keçməzdən əvvəl **Qanunun Təkrarı 33–34-cü fəsilləri** oxuyun.

# Cavablar

1 – *Başınızın üstündə Allahınız Rəbb gedəcək və O, millətləri qarşınızdan yox edəcək.*
2 – *Başının üstündə Rəbb gedəcək. O səninlədir, səni atmaz və tərk etməz. Qorxub çəkinmə!*
3 – *Öz şəhərlərində yaşayan kişilər, qadınlar, uşaqlar və yadellilər ...*
4 – *...Rəbb Öz nurlu üzünü sənə göstərərək lütf versin. Rəbb üzünü sənə tərəf çevirsin, sənə sülh versin.*
5 – Allah *Qayadır* (4-cü ayə); *Onun işləri kamildir* (4-cü ayə); *Onun bütün yolları haqdır* (4-cü ayə); [O] *heç zaman haqsızlıq etməyən sadiq Allahdır* (4-cü ayə); onların *Atası və Yaradanıdır* (6-cı ayə); onları *tapdı*, *sipər* kimi onları *hifz etdi* və *qorudu* (10-cu ayə); O, balalarını qanadları üzərində aparan *qartal kimidir* (11-ci ayə); xalqına bol ruzi verir (13-14-cü ayələr); O onlara həyat verdi — onların həm atası, həm də anasıdır (18-ci ayə); O, xalqı başqa allahlara səcdə edəndə *qısqanan* və *qəzəblənən* Allahdır (16, 19, 21-ci ayələr).
6 – *...Rəbbin payı... payına düşən irsi...Onun göz bəbəyi.*
7 – İnsanlar zənginləşdikcə Allaha ehtiyac duymurlar. Allahın onları yaratdığını, sevdiyini, xilas etdiyini və bir çox cəhətdən xeyir-dua verdiyini daha asanlıqla unudurlar: *Onlar Öz yaradan Allahlarını tərk edirdilər.*
8 – Bu allahlar *faydasızdır [və yalnız] son zamanlar yaranmışlar.*
9 – Allah *Öz üzünü onlardan gizlədəcək... xalqı olmayanlarla qısqandıracaq [və]... üzərinə bəlalar yığacaq.*
10 – *Onlar düşüncəsiz bir millətdir...*
11 – Allah Öz xalqına həyat verəcək, onlara şəfa verəcək, düşmənlərindən qisas alacaq, *ölkəsi və xalqı üçün kəffarə edəcək.*
12 – Fırtınalardan sığınacaq olacaq. Güclü istidə kölgə salacaq.

Qanunun Təkrarı 14-cü dərs:

# Son xəbərdarlıqlar və təşviqlər



33–34-cü fəsillərdə Musanın xalqına verdiyi son xəbərdarlıqları və təşviqlərini oxuyuruq. Kursun bu son dərsini öyrənərkən Rəbbin sizə vermək istədiyi xəbərdarlıq və təşviqlərə diqqət yetirin.

33-cü fəsildə Musanın 12 qəbiləyə xeyir-dua verməsi haqqında oxuyuruq. Bu bizə ondan 500 il əvvəl ölməzdən öncə 12 oğluna xeyir-dua verən Yaqubu xatırladır (Yaradılış 49:1-27). Musa bununla xalqa Allahın 500 il ərzində əhdinə sadiq qaldığını xatırladırdı! Onlar İordan çayını Allahsız deyil, Musasız keçməli olacaqdılar. O bundan sonra da xalqına sadiq qalacaqdı.

Son 40 ildə Musa bu qəbilələri yaxından tanımışdı. Bu onun ən vacib şeyləri onlara söyləmək üçün son fürsəti idi. Vəd olunmuş torpaq onların böyük sərvətdən həzz ala biləcəyi bir yer olmaqla yanaşı, həm də ruhani təhlükə yeri olacaqdı. Beləliklə, o, yaxşı bir pastor kimi xalqını həm xəbərdar etdi, həm də ruhlandırdı.

## Musa 12 qəbiləyə xeyir-dua verdi

**Qanunun Təkrarı 33-cü fəsli** oxuyun, lakin tanış olmayan adlardan qorxmayın. Təsəvvür edin ki, siz oradasınız və Musanın son sözlərini dinləyirsiniz. Sizə ən çox təsir edən ifadələri və ayələri qeyd edin. Bütün fəsli oxuduqdan sonra bunu qrupunuzla bölüşün.

Musanın İsraillilərə xatırlatmaq istədiyi həqiqətlər:

- Allah Misirdən xilas etdiyi xalqı ilə əhd bağlamaq üçün gəldi (1-5-ci ayələr). Eynilə Əhdi-Cədid dövründə Allah İsanın simasında bizim aramızda məskən saldı (Yəhya 1:14).
- Münaqişə və qarşıdurmalar həyatın bir hissəsidir (7, 11, 20, 22).
- Rəhbərlər Allahı öz həyatlarında birinci yerə qoyaraq nümunə göstərməlidirlər (8-10-cu ayələr).
- Allah Öz xalqını qoruyur və onlara qayğı göstərir (12-ci ayə).

- Ruhani çiçəklənmə əzab-əziyyətdən irəli gəlir — Yusif "çiçəklənməyə" nail olmamışdan əvvəl uzun illər köləlikdə, sonra isə zindanda yaşadı (13-17-ci ayələr).

- Allahın xalqı sevinən xalq olacaq (18-ci ayə).

- Allahın xalqı başqalarını Allaha ibadət etməyə dəvət edir (19-cu ayə).

- Allah Ona itaət edənləri mükafatlandırır — Qad qəbiləsi artıq öz torpaqlarını əldə etməyə nail olduqdan sonra Allahın qalan xalqı ilə birlikdə təmənnasız olaraq Kənanlılara qarşı vuruşmağa getdi (20-21-ci ayələr). 4-cü dərsə baxın (Saylar 32:16-19).

- Allah Öz xalqına kömək edəcək (23-29-cu ayələr).

- Allah Öz xalqının qayğısına qalan qüdrətli Padşahdır (26-29-cu ayələr).

Bu gün bu həqiqətlərdən hansını daha çox yada salmalısınız?

***Yeşurun*** (5, 26-cı ayələr): 13-cü dərsdə öyrəndiyimiz kimi, "düzgün olan" deməkdir və İsrailin başqa bir adıdır.

## 1-ci çağırış

Sizi xilas etdiyinə və qayğınıza qaldığına görə hər gün Allahı izzətləndirirsinizmi? Əgər belədirsə, bunu gündəlik həyat tərzinizə necə çevirəcəyiniz barədə düşünün.

# Musanın ölümü



**Qanunun Təkrarı 34-cü fəsli** oxuyun.

Musa ölməzdən əvvəl nə etdi (1-4-cü ayələr)? [1]

***Rəbb ona bütün ölkəni göstərdi...*** (1-ci ayə): İsraillilər üçün torpağa baxmaq onun sahibi olmaq prosesinin bir hissəsi idi. İbrahim Kənan torpağına baxdı (Yaradılış 13:14-15). İblis İsaya dünyanın bütün padşahlıqlarını (ölkələrini) göstərərək ona ibadət etsin deyə Onu imtahana çəkdi (Matta 4:8). İsanın böyük ziyafət məsəlində torpaq sahibinin gəlməmək səbəbi ondan ibarət idi ki, o adam oranı təzəcə almışdı və *gedib oranı görməli idi* (Luka 14:18). Beləliklə, Musanın vəd olunmuş torpağa baxması o demək idi ki, Allahın xalqı adından qanuni olaraq ona sahib çıxmaq imtiyazına malik idi.

Musa, nəhayət, vəd olunmuş torpağa nə vaxt girə bildi (Matta 17:1-3)? [2]

Musa kimi biz də əbədi vəd olunmuş torpağa (yeni Yerusəlimə) uzaqdan baxa bilərik, lakin hələ ora girə bilmirik. Necə ki, İbranilərə Məktubda yazılıb: "*Bunların hamısı imanlı olaraq öldü. Vəd edilən şeylərə nail olmadılar; amma bunları uzaqdan görüb salamladılar və özlərinin yer üzündə yad və qərib olduqlarını iqrar etdilər*" (İbranilərə 11:13).

Eynilə Peter yazırdı: "*Rəbbimiz İsa Məsihin Allahına — Atasına alqış olsun! O Öz böyük mərhəmətinə görə yenidən doğulmamızı təmin etdi. İsa Məsihin ölülər arasından dirilməsi ilə bizi canlı ümidə,*

*çürüməz, ləkəsiz, solmaz bir irsə qovuşdurdu. Bu irs sizin üçün göylərdə saxlanılır. Siz Allahın qüdrəti ilə axırzamanda aşkar olunmağa hazır olan xilas üçün iman vasitəsilə qorunursunuz*" (1 Peter 1:3-5).

Biz varislərik, çünki Allahın övladlarıyıq (Yəhya 1:12), lakin göylərin bu tərəfində olan bütün mülkdən faydalana bilmirik. Yalnız yeni Yerusəlimdə vəd olunmuş torpağın bizə təqdim etdiyi hər şeydən, yəni: günahsız həyatdan, kamil münasibətlərdən, daimi sağlam bədən və sonsuz xoşbəxtlikdən həzz ala biləcəyik!

Musanın vəd olunmuş torpağa baxışını bugünkü günümüzlə necə müqayisə edə bilərik? [3]

Gözlərimizi əbədi vəd olunmuş torpağa dikmək üçün nələri edə bilərik? [4]

***Rəbbin qulu …*** (Qanunun Təkrarı 34:5): həvarilər özlərini belə adlandırırdılar (məsələn, Romalılara 1:1; Yaqub 1:1; 2 Peter 1:1). Hər bir imanlı Rəbbin qulu olmalıdır. Biz həmişə ağamızı razı salmaq və Ona izzət vermək barədə düşünməliyik. Biz özümüzü razı salmaq və özümüzə izzət gətirmək barədə düşünməməliyik.

Qulun vəzifəsi nədən ibarətdir? [5]

## *Əlavə:* Rəbbin qulu

Yeşaya Kitabında "Rəbbin qulu" adı mühüm rol oynayır. Dörd hissədə* Yeşaya İsrailin Allaha dönməsini mümkün edən Allahın qulundan bəhs edir. Üstəlik, bu qul ölümü ilə insanların günahlarını satın alaraq bütün millətlərin də Onun yanına gəlməsini mümkün edəcək (Yeşaya 53:5-6).

*Yeşaya 42:1-9; 49:1-12; 50:4-9; 52:13–53:12

***…heç kim onun qəbrinin yerini bilmir*** (Qanunun Təkrarı 34:6): Ola bilsin ki, bu da Musanın vəd olunmuş torpağa buraxılmamasının bir səbəbi idi. Allah bilirdi ki, xalqı asanlıqla pis işlər görəcək. Musa İsraillilər üçün o qədər əhəmiyyətli bir şəxs idi ki, onlar Musanın qəbrini ziyarətgaha döndərəcəkdilər. Bu gün bir çoxları "müqəddəs" insanların məzarları başında dua etdiyi kimi, insanlar ora gedərək ona sitayiş edib dua edəcəkdilər. Allah Musanın vəd olunmuş torpaqdan kənarda ölməsini istəyirdi ki, heç kim onun harada dəfn olunduğunu bilməsin.

***…Rəbbin üz-üzə görüşdüyü*** (Qanunun Təkrarı 34:10): Allahla gündəlik görüşlər bütün imanlıların, xüsusən də rəhbərlərin həyatdakı çətinliklərlə üzləşə bilməsi üçün vacibdir. Allahın xalqının rəhbərləri hər gün duaya vaxt ayırmaqda göstərdikləri səy nəticəsində xidmətlərində uğur qazana bilərlər.

## 2-ci çağırış



Allahla gündəlik olaraq görüşürsünüzmü? Əgər görüşmürsünüzsə, özünüzdən hər gün telefon və televizora baxmağa nə qədər vaxt sərf etdiyinizi soruşun. Sizin üçün hansı daha vacibdir: mesajlara və sosial mediaya baxmaq, yoxsa Allahın Kəlamını oxumaq?

Allahla daha yaxın münasibət qurmağınız üçün həyatınızda hansı dəyişiklikləri etməlisiniz?

***...heç kim Musanın bütün İsrailin gözləri önündə etdiyi kimi böyük və zəhmli işlər görməmişdir*** (Qanunun Təkrarı 34:12): Qanunun Təkrarı Musanın sözlərinə əsaslanır. Amma görürük ki, sonradan başqası onları redaktə edib bu gün sahib olduğumuz kitab halına salıb. Ona görə də: “Mən dedim” yox, “Musa dedi” yazılır. Həmçinin kitabın sonunda onun ölümündən bəhs olunur. Redaktor Musadan sonra kifayət qədər uzun müddət yaşayır. Biz bilirik ki, Allah Musaya danışmaq üçün ilham verdiyi kimi, bu kitabı redaktə edənə də eləcə ilham verib. Redaktor İsrailin tarixini göz önünə alaraq bir çox peyğəmbərlərin gəlib getdiyini görmüşdü. Lakin heç biri Musa qədər böyük deyildi.

Nə üçün Musa Rəbbin böyük qulu sayılırdı? Musa necə dua etdi (Çıxış 33:13)? [6]

Musanın bütün həyatının motivasiyası bu üç şeydən ibarət idi:
- Allahın yollarını öyrənmək;
- Allahı tanımaq;
- Allahı razı salmaq.

Bütün bunlar gündəlik həyatınızda sizi motivasiya edən şeylərlə nə dərəcədə uyğun gəlir?

## 3-cü çağırış

Sizi motivasiya edən nədir?

Bu motivasiyadan hansı nəticələri görürsünüz?

Allahın istəyinə uyğun olaraq Rəbb İsanın daha yaxşı xidmətçisi olmaq üçün hansı dəyişiklikləri etmək istərdiniz?

Musa təkcə Allahın xalqını köləlikdən çıxarıb vəd olunmuş torpağın sərhədinə apardı. O həm də Allahın xalqının üç min beş yüz il oxuduğu Allahın sözlərini yazıya almışdı!

Müqəddəs Kitabın bu ilk beş kitabının (Tövrat) sözləri Allahın ilhamı ilə Musadan gəlmişdi. Allahı və Onun kim olduğunu anlamaq üçün onların bizim üçün çox böyük rolu var.

Allahın xalqının bütün üsyanlarına baxmayaraq, Allah onlara sadiq qalmaqda davam etdi. Və indi də məqsədinə çatmaq üçün işləməyə davam edir ki, bir gün:

- müqəddəs xalq olsun (Vəhy 20:6);
- **hər** millətdən xalqı olsun (Vəhy 7:9);
- onlar əbədi vəd olunmuş torpaqda təhlükəsiz, sülh və firavanlıq içində yaşayacaqlar (Vəhy 22:1-5);
- onlar Padşahlar Padşahının məhəbbətlə dolu hökmranlığı altında yaşayacaqlar! (Vəhy 19:16).

## 4-cü çağırış



Allahın hər millətdən bir xalq toplamaq planına qoşulmaq üçün nələri edirsiniz?

## Bu dərs vasitəsilə Allah bu gün sizə nəyi öyrətdi?

## Cavablar

1 – O bütün vəd olunmuş torpağı görmək üçün dağa çıxdı.
2 – İsanın dağda Peter, Yaqub və Yəhyanın qarşısında görünüşü dəyişildikdə.
3 – Əbədi vəd olunmuş torpağa uzaqdan baxa bilirik, amma hələ ora girə bilmirik. Biz varis olmağımıza baxmayaraq, göylərin bu tərəfində sahiblik hüququnun bütün üstünlüklərindən faydalana bilmirik.
4 – Biz Allahın Kəlamını oxuduqca, onun üzərində düşünərkən və İsanın ardınca necə getməyi öyrənmək üçün digər imanlılarla görüşdükdə gözlərimizi əbədi vəd olunmuş torpağa dikmiş oluruq.
5 – Qulun vəzifəsi ağasını razı salmaq və ona itaət etməkdir.
6 – *Əgər mən doğrudan da gözündə lütf tapmışamsa, yalvarıram, Öz yolunu mənə agah elə ki, Səni tanıyım və gözündə lütf tapım.*

# TƏBRİK EDİRİK!
# Qanunun Təkrarı kursunu bitirdiniz!

Allah haqqında bu möhtəşəm kitabdan daha çox şey öyrənə bilərsiniz — onun təsirini Müqəddəs Kitabın bütün qalan hissəsində görmək mümkündür! Bu kurs sizin bu kitaba və əlbəttə ki, Rəbb Allaha olan məhəbbətinizi ömür boyu inkişaf etdirmək üçün hazırlanmışdır!

**Bu dərsləri kiminlə bölüşə bilərsiniz?**

# Mündəricat


| | | |
|---|---|---|
| **Qanunun Təkrarı 1-ci dərs:** | Peyğəmbər və vəd | 5 |
| **Qanunun Təkrarı 2-ci dərs:** | Rəhbərlər və davamçılar | 14 |
| **Qanunun Təkrarı 3-cü dərs:** | Birlik və yeni rəhbərlik | 22 |
| **Qanunun Təkrarı 4-cü dərs:** | Həyatı seçin! | 28 |
| **Qanunun Təkrarı 5-ci dərs:** | Mühakimə və mərhəmət | 34 |
| **Qanunun Təkrarı 6-cı dərs:** | On Əmr (1-ci hissə) | 40 |
| **Qanunun Təkrarı 7-ci dərs:** | On Əmr (2-ci hissə) | 46 |
| **Qanunun Təkrarı 8-ci dərs:** | Allahın Rəbbi sev | 53 |
| **Qanunun Təkrarı 9-cu dərs:** | Torpağı fəth etmək | 60 |
| **Qanunun Təkrarı 10-cu dərs:** | Allahın qanunları | 68 |
| **Qanunun Təkrarı 11-ci dərs:** | Xeyir-dualar və lənətlər | 76 |
| **Qanunun Təkrarı 12-ci dərs:** | Əhdin yenilənməsi | 82 |
| **Qanunun Təkrarı 13-cü dərs:** | Gözümüzü gələcəyə dikərək | 87 |
| **Qanunun Təkrarı 14-cü dərs:** | Son xəbərdarlıqlar və təşviqlər | 93 |

**14 dərsdən ibarət olan bu kurs sizi möhtəşəm Qanunun Təkrarı Kitabı ilə tanış edir.**

Qanunun Təkrarı Kitabı Əhdi-Ətiqin qalan hissəsini və həmçinin Əhdi-Cədidi daha yaxşı başa düşmək üçün əsasdır. Bu kitabda yazılanlar yalnız Əhdi-Ətiqdəki İsraillilər üçün deyil, həm də bu gün bizim üçün nəzərdə tutulmuşdur. Bu kurs xüsusi olaraq Orta Asiyada yaşayan imanlıların kiçik qruplar şəklində birlikdə öyrənməsi üçün hazırlanmışdır. Hər dərs bir sıra suallardan ibarətdir və cavablar hər dərsin sonunda verilir. Bu kitabı oxuduqca qoy Allah bizi Öz möhtəşəmliyini və bizim üçün etdiklərini daha yaxşı anlamaqda irəli aparsın!

AZ